BALAŞ AZƏROĞLU

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

...ndov adına
...ycan Milli

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab "**Balaş Azəroğlu.** Seçilmiş əsərləri"*
*(2 cilddə, Bakı, Yazıçı, 1982) nəşri əsasında*
*təkrar nəşrə hazırlanmışdır*

**894.361'1 - dc 21**
**AZE**
***Balaş Azəroğlu. Seçilmiş əsərləri.*** *Bakı, "Öndər nəşriyyat", 2004,* 288 səh.

Çağdaş Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Balaş Azəroğlunun bu kitabında şairin müxtəlif illərdə qələmə aldığı rəngarəng mövzulu şeir və poemaları toplanmışdır. Bu əsərlərdə Cənub mövzusu, Vətən təbiətinin gözəlliklərinin tərənnümü, lirik duyğuların ifadəsi ilə yanaşı, ictimai-fəlsəfi problemlər də öz əksini tapmışdır.

**ISBN 9952-416-07-4**

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# O TAYLI – BU TAYLI ŞERİMİZİN AĞSAQQALI

İki əsrə yaxın bir müddətdə bir-birindən amansız sərhəd xəttilə ayrılmış Güney və Quzey Azərbaycanın xalqı və bu vahid xalqın mənəviyyatı, dili, ədəbiyyatı həmişə bir olmuşdur. Bu baxımdan gənclik illərini Ərdəbildə yaşamış, Cənubi Azərbaycanın milli azadlıq hərəkatının fəal iştirakçısı olmuş Azərbaycanın (məhz Azərbaycanın, tək bir Şimali Azərbaycanın deyil) xalq şairi Balaş Azəroğlu güneyli-quzeyli ədəbiyyatımızın görkəmli çağdaş nümayəndəsi, ağsaqqalıdır.

Bəli, bu belədir, tarixən də, indinin özündə də ədəbiyyatımız vahiddir, dövlət sərhədləriylə bölünməyib. Amma bununla bərabər bu da bir tarixi gerçəklikdir ki, müxtəlif ictimai-siyasi quruluşlar şəraitində, iki fərqli dövlətin – çar Rusiyası, SSRİ və İranın – tərkibində yaşayan xalqın iki qisminin mədəni və ədəbi inkişafında müəyyən səviyyə, məzmun, forma, üslub fərqləri var. Məhz elə buna görə də Azəroğlu yaradıcılığını ümumazərbaycan üfüqləri daxilində, amma Cənub ədəbi mühitinin əhatəsində nəzərdən keçirərkən onun rolunu xüsusi qeyd etmək lazımdır. Azəroğlu ədəbiyyatımızın bu coğrafi sahəsinə böyük yeniliklər gətirmiş, Cənub şerimizdə istər inqilabi mövzuları, istərsə də forma axtarışları, vəzn baxımından novator şairdir.

40-cı illərdə Təbrizin həyatıyla tanış olan şimali azərbaycanlılar bu mühitdə nəinki sərbəst vəznin, hətta hecanın belə yer tutmamasına təəccüb qalmışdılar. Əsasən əruz ənənələrinə aludə olan Təbriz şairləri barmaq hesabı adlandırdıqları heca vəznini şerin daha bəsit şəkli sayırdılar. Balaş müəllim xatirələrində yazır ki, bu dövrdə onun bir gənc şair kimi yeniliyə meyl etməsi iki sənətkarın yaradıcılıq axtarışları ilə əlaqəlidir. Bunlardan biri İran şairi, fars poeziyasında yeni şeir – şeiri-növün banisi sayılan Nima Yuşic, ikincisi isə Rəsul Rza olub. Nima Yuşic fars şairidir və onun poeziyaya gətirdiyi yeniliklər fars ədəbiyyatının malıdır. Rəsul Rza isə Şimali Azərbaycanın ədəbi mühitində yetişmişdir. Deməli, bu missiyanı Cənubi Azərbaycan şerində həyata keçirmək Azəroğlunun öhdəsinə düşmüşdü. Yarım əsrdən artıq davam edən zəngin yaradıcılıq yolunda Balaş müəllim bu vəzifəni ləyaqətlə yerinə yetirmişdir.



Onun bu tarixi xidməti Cənubi Azərbaycan ədəbiyyatına yeni bir ab-hava gətirməklə bərabər ümumazərbaycan şerində də mühüm və parlaq səhifədir.

Yadımdadır, Balaş müəllimin "Elə oğul istəyir vətən" adlı ehtiraslı poetik əsəri meydana çıxanda atam buna necə sevinirdi. Gənclik illərimdən Balaş müəllim və onun ömür-gün yoldaşı gözəl şairəmiz Mədinə xanımla valideynlərimin mehriban münasibətlərinin şahidi olmuşam. Bu isti münasibət iki şair – Rəsul Rza–Nigar Rəfibəyli ailəsinin iki şair – Balaş Azəroğlu–Mədinə Gülgün ailəsinin sevinclərini, qayğılarını, fərəhlərini, nisgillərini dərindən-dərinə duymasıyla bağlıydı. Təbrizi tez-tez yuxusunda görən, Arazın o tayı üçün həsrət çəkən Rəsul Rza Balaş müəllimlə Mədinə xanımın möhnətlərini, doğma şəhərləri, el-obaları üçün nə qədər qəribsədiklərini bütün qəlbiylə hiss edirdi.

Atamın cənub mövzusunda yazdığı nisgilli şeirləri arasında Azəroğluna həsr edilmiş şerin özəl yeri var. Mədinə xanım haqqında da səmimi bir məqalə yazıb. Balaş müəllimin də atama və anama həsr olunmuş dəyərli məqalələri, təsirli şeirləri var. Mədinə xanım Təbriz həsrətli şerini Rəsul Rzaya həsr edib.

Kökləri valideynlərimin dostluq hissləriylə bağlı olan ailə ənənəmizin davamı olaraq mən də böyük məmnuniyyətlə bu sətirləri dərin hörmət bəslədiyim Balaş müəllimə həsr edir, ona yeni yaradıcılıq sevincləri və uzun ömür arzulayıram.

Şeir var, qulaq asanda yatırsan
Şeir var, ayağa qaldırır yatanları.

Bu misralar Balaş Azəroğlunundur və onun şeirləri məhz insanları ayağa qaldıran, mübarizəyə və gələcəyə səsləyən yüksək poeziya nümunələridir.

***Anar***

## DODAQLARI QURUMUŞ

Dodaqları qurumuş
Susus bir torpağam mən,
Sinəmdə cadara bax.
Budağından ayrılmış
Yaşıl bir yarpağam mən,
Qopduğum çinara bax.
Şimşəkləri çaxmamış
Bir bahar buluduyam
Göylərin sinəsində.
Təlatümü susmamış
Bir vulkanın oduyam
Mən Odlar ölkəsində.
Fırtınası yatanda
Ümmandan ayrılmışam,
Ümmana dönmək üçün.
Bir fırtına quşuyam,
Tufandan ayrılmışam,
Tufana dönmək üçün.
Daşlar, qayalar yıxan,
Coşub-daşan bir selin
Kəsilməyən səsiyəm.
Azadlıqçın döyüşən
Bir torpağın, bir elin
Bölünməz zərrəsiyəm...

*1964*

## ADDIMLAR

Sənət meydanına qədəm qoyuram,
Qoy sözüm güc alsın elimdən mənim.
Nə qədər çətindir, bunu duyuram,
Ay dostlar, tutunuz qolumdan mənim.



Körpəcə bir quşam, asiman dərin,
Mən o dərinliyə uçmaq istərəm.
Nəğmə dəftərimin, söz dəftərimin
Adını "Vətən"lə açmaq istərəm.

Mənim arzum budur, bir oğul kimi
Kaş bu çətinliyə dözə biləydim.
Vətənə sevgimi, elə sevgimi
Könül sözlərimlə yaza biləydim.

*1937*

## XƏZƏR, AY XƏZƏR...

Sahili sarı qumlu
Dalğası ağ Xəzərim.
Qum üstə bardaş qurub
Gəl oturaq, Xəzərim.
Mən balıqçı deyiləm,
Qayığım yox, torum yox,
Dalğalarla döyüşə
Qollarımda zorum yox.
Sən göygözlü mələksən,
Dumandan örpəyin var.
Göyərçin ləpələrdən
Qırçınlı köynəyin var.
Nəğmən vüsal andırar,
Ürəyimi yandırar.
Sahili sarı qumlu,
Dalğası ağ Xəzərim.
Gəl uzanıb sübhədək
Hey danışaq, Xəzərim.
Sahilə axşam qonur,
Ürəyimə qəm qonur.
Ayrılığın yamandır,
Bircə kəlmə, bircə söz

Yadigar de, amandır.
Səhər günəş doğanda
Aparar karvan məni,
Kim bilir ki, bir də sən
Görərsən haçan məni.
Hələ əldə fürsət var,
Hələ vaxt var, möhlət var.
Hələ göylər yenicə
Dumanlanır, qaralır,
Hələ sübhə çox qalır.
Qaziyanda* otaqlar
Ulduz-ulduz alışdı,
Pəncərədən axan nur
Dalğalara qarışdı.
Gəl, bu isti qum üstə
Bir də verək baş-başa,
Danış, danış, Xəzərim,
Uşaqlıq illərimə
Sənsən tanış, Xəzərim...

*Ənzəli ,1938.*

**KARVAN**

Gecənin qulağında kədərli zəng səsləri,
Ağır-ağır yol gedir karvan şimala sarı.
Xəyal məni aparır, görən nə vaxtdan bəri
Dünyanı addımlayır zəngli dəvə qatarı.
Karvan şimala gedir, karvan cənuba gedir,
Karvan bəzən vətəndən uzaqlara yol alır.
Karvan bütün dünyanı zaman-zaman qət edir,

*Ənzəli şəhəri çay vasitəsilə iki hissəyə bölünür, onun bir hissəsinə Qaziyan deyilir.



Karvan kədər gətirir, karvan sevinc aparır.
Karvan gedir... Bir zaman Əbülüla Müərri
Bəlkə də bu karvanla bütün şərqi dolandı.
Kim bilir o dahinin ən gözəl əsərləri
İsti qumlar üstündə, xəyalında yarandı...
Karvan gedir aramsız, gecə qara, yol uzaq,
Arxamda mavi dəniz, öndə qarlı Savalan.
Dəvələr bir ahənglə yenə addımlayaraq
Ötürlər babaların keçdiyi tozlu yoldan.
Sarvanın gözlərində yuxusuzluq qəmi var,
Neçə gecə yatmamış, hey yeriyir, yeriyir.
Sarvanın özünün də qəribə aləmi var,
Zəng səsləri altında hər gün bayatı deyir:

> Ağ dəvə düzdə qaldı,
> Yükü Təbrizdə qaldı.
> Oğlanı qan apardı,
> Dərmanı qızda qaldı.

Gecə sakit, uzaqlar əks edir bu nəğməni,
Dəvələr aram-aram addımlayırlar yenə.
O, Xəzər sahilindən alıb aparır məni,
Qədim Babək yurduna – Savalan ətəyinə...

*1938*

**ƏRDƏBİL**

Gəlmişəm, xoş gəlmişəm, sanma məni yad, Ərdəbil,
Hər zaman könlüm olub fikrin ilə şad, Ərdəbil.

Mən nə mömin bir müsəlman, nə axund, nə hacıyam,
Nə gözəl Sonyaya vurğun, nə Fatı möhtacıyam,
Bil, nə qəflətdə keçirtdim ömrü, sonra acıyam,
Olmuşam cümlə-cəhalətdən mən azad, Ərdəbil,
Hər zaman könlüm olub fikrin ilə şad, Ərdəbil.

Söyləyiblər: "Getmə, bir özgə məkandır bu şəhər,
Hər yana baxsan məscid, ya da dükandır bu şəhər.
Həzrəti Adəm necə görmüş, hamandır bu şəhər.
Müşkül işdir bir daha olsun o, abad, Ərdəbil,
Gəl ona biz də deyək: – Ey dadi-bidad Ərdəbil".

Kəbleyi-nüsrətləri qaçmış bu yerdən, dad edib,
"Bir də müşküldür səni yad eyləyəm..." fəryad edib.
Bir zaman bu türbəni Şah İsmayıl abad edib,
İndi olmuşdur o, bərbaddan da bərbad, Ərdəbil,
Ərdəbil, ey dadi-bidad Ərdəbil...

Gəldim axır, baxmadım bu sözlərə, söhbətlərə,
Gördüm, ey dad, düşmüsən sən min töhmətlərə.
Bir tərəfdən qərq olubsan cürbəcür nemətlərə,
Bir tərəfdən də çalıb-çapmış səni yad, Ərdəbil,
Ərdəbil, ey dadi-bidad Ərdəbil.

Qəm yemə, günlər gələr, aylar ötər, illər keçər,
Köksünə dağlar çəkən yüz-yüz bu müşküllər keçər.
Çən olar, gürşad tökər, çaylar daşar, sellər keçər,
Vaxt keçər, dövran keçər, qalmaz bu bünyad, Ərdəbil,
Onda bu könlüm kimi könlün olar şad, Ərdəbil.

*Ərdəbil, 1938*

## ŞEYX SƏFİ MƏQBƏRƏSİ

Qədim Ərdəbilin sinəsi üstdə,
Günbəzi qızılı bir məqbərə var.
Yaxından, uzaqdan hey dəstə-dəstə
Bura ziyarətə gəlir adamlar.



Gəlir illər boyu etiqadını
Bu böyük türbətə bağlayan gəlir.
Gəlir el dərdini, el həyatını
Canında canı tək saxlayan gəlir.

Məqbərə söylədim, nə mərmər sütun,
Nə də divarlarda rəngli kaşı var.
Darvaza ağzından qəbrədək bütün
Düzülmüş yan-yana sadəcə daşlar.

Fəqət bu daşların yaşı çox qədim,
Tarixi solmayan dastana dönmüş.
Haman bu yollarla nə qədər alim,
Nə qədər müdərris gəlib-gedərmiş...

Bir vaxt da Qızılbaş ordusu burda
And içib silaha sarılan zaman,
Vətən yolundakı vuruşmalarda
Önündə diz çöküb, baş əydi düşman.

Fəqət illər ötdü, dövran dəyişdi,
Dəyişdi hökmü də dövri-zamanın.
İgidlik, qoçaqlıq atından düşdü,
Ayağı açıldı bura düşmanın.

Gəlmələr, yerlilər, şahlar, krallar,
Bir gün bu qapıya yaman dadandı.
Nə başbilən oldu, nə də sahibkar,
Bir xalqın sənəti, varı talandı.

Yığıb apardılar xalçanı, qabı,
Nadir əlyazmalar Londona getdi.
Qızıl şirazələr çəkilmiş qapı
Ancaq bilinmədi harada idi.

Fəqət itirmədi öz hörmətini
Məqbərə zamandan-zamana qaldı.
Yadlar apardısa hər sərvətini,
O, xalqın gözündə yenə ucaldı.

Qədim Ərdəbilin sinəsi üstdə
Günbəzi qızılı bir məqbərə var.
Yaxından, uzaqdan hey dəstə-dəstə
Bura ziyarətə gəlir adamlar...

*Ərdəbil, 1940*

## İNQİLAB ŞAİRİYƏM

Mən nə şah, mən nə sultan, nə yaraşıq, nə zinət,
Nə əfsanə, nə mələk, nə saray, nə səltənət,
Nə qədim əsrləri yada salıb ağlayan,
Nə ömrünü qəzələ, mərsiyəyə bağlayan,
Nə dövrün hakiminə şer yazıb pul alan,
Nə cəlladlar önündə həya üçün alçalan,
Nə peymanə, nə saqi, nə şərab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.

Mən əyilib hakimin əllərindən öpmədim,
Şerimi çiçək kimi ayaqlara səpmədim.
Nə aciz bir bəndəyəm, nə satılmış bir qulam,
Nə saray məddahıyam, dərgahlardan qovulam,
Mən ellərin oğluyam, ellər böyütmüş məni,
Şerim eldən alıbdır bu ilhamı, qüvvəni,
Mən nə şam, nə pərvanə, nə rübab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.

Mənim könül dəftərim bənzəyir gülüstana,
Onda yer verilməmiş qarlı qışa, tufana.
Bir bahar ətri vardır hər şerimdə, sözümdə,



Baharın həsrətilə yaşayıram özüm də.
Mən əl açıb göylərdən diləmədim azadlıq.
Mənim arxalandığım onlardan daha artıq
Ölkələr həsrət çəkən afitab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.

*Ərdəbil, 1941*

## NİYAR KARVANI

Hələ oyanmamış günəş yuxudan,
Yenicə boylanır üfüqdən səhər.
Fəqət yavaş-yavaş söküldükcə dan
Qırmızı boyanır yaşıl təpələr.
Buludlar axışır səmada lay-lay,
Sönür göy üzündə rəngi solmuş ay...

Niyardan şəhərə uzanan yolu*
Odur ağır-ağır bir nəfər gəlir.
Dalında kisə var, kömürlə dolu,
O qız nə danışır, nə də dincəlir.
"Amandır, görməsin məni pasiban"
Deyə nəfəs belə çəkmir qorxudan.

Bilir ki, zəhməti gedəcək heçə,
Şəhərə girməsə o ehtiyatla.
Bəlkə də yatmamış qız bütün gecə,
Elə ilk axşamdan çıxmışdır yola.
Qış keçir, yay keçir, nə vaxtdan bəri
O qız bu yollarda açır səhəri...

Başında yaylıq yox, ayağı yalın,
Dalında ağır bir kömür şələsi.
Ehtiyac içində boğulanların

**Niyar* – Ərdəbil yaxınlığında kənd adıdır.

Kəsibdir çiynini ömür şələsi.
Bu yerdə insana omür də yükdür,
Həyatı, nəşəsi, eşqi sönükdür.

Donubdur alnında damla-damla tər,
O yenə küçədə şələ gəzdirir.
Kim bilir, yuxudan durub bir nəfər,
Bəlkə kömür ala, hələ gəzdirir...
Gəzdirir satmaqçın o qız kömürü,
Kömürdən qaradır özünün ömrü.

Axır yanağına gözünün yaşı,
Ötürür köksünü o qız dərindən.
Bu haldan alışır qəlbinin başı.
(Qəzəbim qaldırar dağı yerindən).
Deyirəm: "Nə üçün gecə sübhədək
Çalışan insanlar ac qalsın gərək".

Bu bir cəhənnəmdir odsuz, alovsuz,
Görür, deməsəm də, arif olanlar.
Odur, bu atəşdə odlanır bir qız,
Fəqət nə tüstü var, nə də duman var,
Kim deyirsə gündür, həyatdır bu da,
Görüm ki, o özü düşsün bu oda.

*Ərdəbil, 1941*

## GƏLİN, DOSTLAR, GƏLİN

Gəlin, vətəndaşlar, gəlin, a dostlar,
Şairin sizlərə şad xəbəri var.
Yenə də ucalır gur səsim mənim,
Sönməmiş ilhamım, həvəsim mənim.
Tanıyır bu ellər əzəldən məni,
Çünki ayırmamış bu eldən məni



Nə fikrim, nə arzum, nə də sənətim;
Onun arzusudur saf məhəbbətim.
Qəlbimiz ayrısa, sinəmiz birdir,
Mənə ilham verən bizim ellərdir.
Qoy səsim yayılsın şəhərə, kəndə,
Gəlsin dəmirçi də, əkin əkən də,
Ayağı çarıqlı, əli çomaqlı,
Uzun yapıncılı, dəri papaqlı
Muzdurlar, çobanlar, de kim var gəlsin,
Vətənin qədrini duyanlar gəlsin.
Gəlsin qoy gözləri yolda qalanlar,
Səttarxan yurduna arxalananlar.
Gəlib axın-axın qoşulsun bizə,
Qaynayıb qarışsın sıx cərgəmizə.
Gəlin, vətən deyən cavanlar, gəlin,
Gəlib siz istəyən zamanlar, gəlin,
Gəl yapış ananın indi əlindən.
Onun arxasında bir dağ kimi sən
Dayan, qoyma düşmən toxunsun ona.
Onun o mehriban, ana qoynuna
Dünyalar sığınır görürsən bəzən.
Səni o saxladı körpəliyindən.
Döydü kürəyini acı küləklər,
Pasibanın oldu hər axşam, səhər.
Çıxartdı həyatın fırtınasından.
İndi o girdabda boğulan zaman
Mehriban qolunu açaraq sənə,
Deyir: "Dar günümdür, oğul, gəlsənə.
Gəl, yad pəncələrdən gəl qurtar məni,
Soydu quldur məni, hökmdar məni.
Gözlərim yollarda qaldı amandır,
Sönən çırağımı əlinlə yandır.
Bəlkə bu zülmətdən qurtaraq biz də,
Bir də qul olmayaq öz ölkəmizdə".

*Ərdəbil, 1945*

## SƏTTARXAN

*Bu şeir 1946-cı ildə Təbrizdə "Şairlər məclisi"nin təşkil etdiyi müsabiqədə ikinci dərəcəli mükafata layiq görülmüşdür.*

Yenə dindirdilər könül tarımı,
Bilmirəm zil deyə, ya da bəm deyə.
Mən də bu meydana atıldım, ey dost,
Əlimdə bir kağız, bir qələm deyə.

Pərvanə hər zaman çırpar özünü
Çırağa, məşələ; yanar şəm deyə.
Çox da öyünməsin deyin Bahara
"Bu yerin şairi tək mənəm" deyə.

Öz şəkər dilinə arxalandı o,
Mənə dil bilməyən bir əcəm deyə.
Bilmədim dilim də, vətənim də var,
Dünyada nə desən vətənimdə var.

Şair bərk ayaqda sınaqdan çıxar,
Uzaq yollar keçən kəhərlər kimi.
Yenə də ilhamım tutdu əlimdən
Köməyə yetişən səhərlər kimi.

Mən də öz borcumu vermək istərəm
Sənət cəbhəsində səfərbər kimi.
Səttarxan bu xalqın arasındadır,
Yaşayır hər zaman bir rəhbər kimi.

Mən onun yolunda əmrə hazıram
Vətəninə sadiq bir əsgər kimi.
Tüfəngim qələmdir, gücüm – sənətim,



Xalqıma bəllidir saf məhəbbətim.
Biz heç vaxt sınaqdan namərd çıxmarıq,
İgidlərin qanı qanımızdadır.
Nə düşmən, nə ölüm qorxuzmaz bizi
Səttarxan hər zaman yanımızdadır.

O bizim tarixə düşəndən bəri,
Qüdrət adımızda, sanımızdadır.
Çoxları istədi ayırsın onu,
Gördü qəlbimizdə, canımızdadır.
Əzəldən qaydadır bizdə hər zaman
Ürəkdə yaşayar adlı qəhrəman.

Təbrizin qoynundan çox igid çıxıb
Fəqət ucalmamış Səttarxan kimi.
Ağsaçlı tarixi varaqla bir-bir,
Oxu hər xəttini bir dastan kimi.
Onda ay da vardır, ulduz da vardır,
Sinəsi bəzəkli asiman kimi.
Çox az-az qəhrəman yetirir zaman
Bu el böyütdüyü qəhrəman kimi
Onu yaşadacaq xalqımız bizim
Ən əziz, ən böyük bir insan kimi.
Nə qədər biz varıq o ad da vardır,
Elin arzuları o adda vardır.

Gəzdim bu ölkəni mən qarış-qarış,
Hər yerdən çox sevir Qaradağ onu.
Böyüdüb həyata hədiyyə vermiş
Kiçik pəncərəli bir otaq onu.
Bahar günlərində xatırlayırdı
Uşaqkən gəzdiyi hər budaq onu.
Gördüm o dağları, qayalıqları
Qoynunda saxlamış çox qonaq onu.
Mənə həzin-həzin bir dastan dedi
Tərifə başlayıb hər bulaq onu.

Bilin, təbiət də tanıyır, dostlar,
Kimdə el sevgisi, vətən eşqi var.
Qocalar deyirdi: "Onun gəncliyi
Sıldırım dağlarda, qayada keçdi.
Düşmən ordusuyla durdu üz-üzə,
Ömrünün çox günü qovğada keçdi,
Hücuma keçəndə titrədi dağlar,
Dağ üstdən dağ çəkdi o, yada, keçdi.
Tez yandı, tez söndü zülmət içində,
Elə bil şam idi dünyada keçdi.
Əgər söndüsə də odu, şöləsi,
Adı könüllərin oldu nəğməsi.

Bizim bu yerlərə göz dikən yağı
Az ordu çəkməmiş ömrü boyunca.
Xalqımız hər zaman sirdaş kəsilmiş
Yəhərli bir ata, misri qılınca,
Dünyanı cəbhədə görən cavanlar,
Ömrünü dağlarda keçirən qoca
Demiş ki: – Mümkünmü mən yaşayarkən
Yurdumu düşmənlər qoysun hərraca.
Qızlar qılınc çəkib meydana çıxmış
– Yadların əlində əsir qalınca –
Demiş ki: – Ya öllük vətənimizdə,
Ya da azad olsun vətənimiz də.

Bu el hər çətinə, dara düşəndə
Heç dilsiz göylərə əl açmamışdır.
Hələ yalvarmayıb bir qulam kimi,
Kimsənin önündə dil açmamışdır.

Gülzara bənzəyən bu yer, bu torpaq
Yağılar əlində gül açmamışdır.
Sevməmiş əzəldən yadları yurdum,
Onlara sirrini el açmamışdır.
Xalq öz düyününü tək özü açmış,
Nə Tanrı, nə para–pul açmamışdır.
Vətən girdablarda boğulan zaman



Ya Babək qurtarmış, ya da Səttarxan.
Sərdara dedilər "gəl qoşul bizə",
O dedi: – Keçmərik növrağımızdan.
Canımız bizlərə əziz deyildir
Ana yurdumuzdan, torpağımızdan.
Bu Şərq ölkələri ilham alacaq
Bir gün qana batmış torpağımızdan.
Biz səngər başında and içmişik ki,
Ölək, ayrılmayaq yarağımızdan.
Məndən Rəhimxana xəbər aparın,
Qoşunu qaçmasın qabağımızdan.
Onun bu sözləri bir şüar oldu,
Nəsildən-nəsilə yadigar oldu.

Döyüş günlərində bir ad qazandı,
Tanıyır ən uzaq şəhərlər onu.
Bəzən al günəşlə yanaşı tutdu
Baharda açılan səhərlər onu.
İndi nəqş eləyir varaqlarında
Tarixi yaşadan əsərlər onu.
Bizimçün ən əziz bir yadigardır
Döyüş cəbhəsində görənlər onu.
Onun igidliyi bundan bəllidir:
Bəyənmiş Lenin tək bir rəhbər onu.
Demiş ki, adınla fəxr edir vətən,
Bu Şərq ellərində hünərdə təksən.

Deyin Səttarxana qalxsın məzardan,
İndi yurdumuzda güllər açıbdır.
Aşıq sinəsinə basıb sazını,
Şeyda bülbül kimi dillər açıbdır.
Qurğuşun keçməyən, süngü açmayan
Qorxulu yolları sellər açıbdır.
Artıq boran keçib, qarlı qış keçib
Bizə qucağını illər açıbdır.

Odlara atılmış Azərbaycana
Səadət qapısın ellər açıbdır.
Səndən qüvvət aldıq döyüşlərdə biz
Dəyişdi tarixi cavan nəslimiz.

Yox, düşmən deməsin ölübdür Sərdar,
Onun köksündəki ürək bizdədir.
Yanaşı durmursa bu gün bizimlə
Bilin, götürdüyü tüfəng bizdədir.
Bizim arzumuz bir, amalımız bir,
O istək, o həsrət, dilək bizdədir.
Mən kimə əl açıb kömək istədim?
Dünya həsrət çəkən kömək bizdədir.
İranın elləri bizə göz dikib
Azadlıq günəşi demək bizdədir.
Bunu şərqlilər də bilmişdir artıq
Bizdən keçəcəkdir Şərqə azadlıq.

*Təbriz, 1946*

## VƏTƏN MƏHƏBBƏTİ

Mən hicranla dolu ömür sürmüşəm,
Min əzab çəkmişəm, min qəm görmüşəm.
Axıb neysan kimi gözümün yaşı,
Nələr çəkdirməmiş mənə bu aləm.
İnan ki, əyilər dağların başı
Əgər dərdlərimi ona söyləsəm.
Fəqət qurtarmışam dardan, çətindən
Tək sənin eşqinlə, vətən, ey vətən.

Ömrümün gəncliyi bir çiçək oldu,
Vaxtsız tufanların əlində soldu.
Qanunlar bağladı qoluma zəncir,
Məni ayırdılar doğma elimdən.
Özüm də bilmədim günahım nədir,
Fəqət dedilər ki, müqəssirəm mən.



Daddım zəmanənin hər möhnətindən,
Sənin xatirinçin, vətən, ey vətən.
Keçdi aylar, illər, zaman da döndü,
Yüzillik bir həyat bir anda döndü.
Yenə də başlandı haqq savaşları,
Xalqım at oynatdı, silah götürdü.
Silib yanağına axan yaşları,
İnsanlar yurduma pənah gətirdi.
Ölkələr danışdı rəşadətindən,
Düşdün dildən-dilə, vətən, ey vətən.

Deməyin bunlar ki, bir xatiratdır,
Yox, mənim ömrümdür, bu bir həyatdır.
Onun hər sətrində ürək qanım var,
Könlüm dincəlməyir onu anmasa.
Bunu yaxşı demiş bizim babalar:
"Gözdən yaş çıxmayır ürək yanmasa".
Bir kədər duysan da hər söhbətimdən,
Sənin həsrətindir, vətən, ey vətən.

Qoy düşmən deməsin uzaqdayam mən,
Yox, məni böyüdən torpaqdayam mən.
Onun nəfəsilə qızınır sinəm,
Sevib əzizləyir bu dağlar məni.
Mən böyük Babəkin nişanəsiyəm,
Əyməz bu yaralar, bu dağlar məni.
Hər gün ilham alıb məhəbbətindən,
Artır qüdrətimiz, vətən, ey vətən.

Atamın sonrakı məzarı oldu,
Üstünə bir qırıq kərpic qoyuldu.
Dostları süngüylə qazdı: "Mücahid".
Mənim də "Fədai" qalacaq adım.
Sabahkı döyüşə olmasam şəhid,
Başqa bir ad ilə yenə övladım
O gün vuruşacaq...
Bil, bu zülmətdən
Qurtaracaq səni, vətən, ey vətən.

*Bakı, 1948*

## TƏBRİZİN BAHARI

Gurşad təzə dayanmışdır... hava durulur,
Bulud keçir, göyün üzü görünür təmiz.
Qarı nənə hanasını uzadır, odur,
Elə bil ki, kəmənd atır buluda dəniz...

Günəş batır... dağ başında topa buludlar
Sanki pambıq tayasıdır alışıb-yanır.
Bahar gəlmiş, baş qaldırır çiçəklər, otlar,
Ana torpaq yuxusundan artıq oyanır...

Sərin-sərin meh əsdikcə titrəyir yarpaq,
Çiçəklərin dodağından süzülür inci.
Sarı bülbül gəzir yenə, bax, budaq-budaq
Oxuduqca sinəsinə sığmır sevinci.

Qara dəniz dalğalanır, kiçik ləpələr
Qum üstündə göyərçin tək görünür yenə.
Deyirlər ki, əsrlərdir hər axşam-səhər
Sular nəsə pıçıldayır sahillərinə...

Bir ağacın gövdəsinə söykənmişəm tək,
Yenə məni məftun etmiş özünə bahar.
Ara-sıra tər budaqlar silələnərək
Gah başıma çiçək tökür, gah da damcılar.

Orda-burda dəstə-dəstə qızlar, oğlanlar
Qarmon çalır, nəğmə deyir, çiçək dərirlər.
Düşünürəm, doğrudan da burda bəxtiyar
Ömr sürür qayğıbilməz, xoşbəxt nəsillər.

Birdən məni ayrı salır düşüncələrdən
"Alın, sizə məktub gəlmiş" söyləyən bir kəs.
(Əziz dostum, kim qürbətdə olmamış, inan,
Məktubdakı o mənəvi qüdrəti bilməz...)



Bir kitab da verir mənə dostum gülərək:
– Bax bu da bir gənc ürəyin əziz barıdır.
Bakıdandır, unutmamış dostların, demək,
Al, şairə şairənin yadigarıdır.

Aç "Təbrizin baharı"nı, bir şer oxu,
Deyirlər ki, sizin yerdə gözəl olur yaz.
Mən dinmirəm... (cavabsızdır onun arzusu),
O bilmir ki, nə olmuşdur, duruxur bir az.

Mən dinmirəm... xəyal məni çəkib aparır,
Yenə durur gözlərimin önündə Təbriz.
İlk bahardır... göy gurlayır, bərk yağış yağır.
Bir divara söykənirik sevgilimlə biz...

Sərdar bağı, ağ çiçəkli badam ağacı,
Qərənfillər, yasəmənlər, bahar neysanı,
Şimşək səsi, üfüqlərin odlu qırmancı,
Gözüyaşlı buludların başsız karvanı.

Daşqın sellər, Acı çayı, sərin bulaqlar,
"Şah könlü"nün əyri yolu, yaşıl çəmənlər,
Gözlərimdə canlandıqca, mənsə biqərar
Deyirəm ki, indi sizdən qalmışmı əsər?

Yox, dağıtdı o cəlalı, dağıtdı düşmən,
Ancaq elin ilqarını poza bilmədi.
O sən görən Təbriz deyil, şəhəri gəzsən,
Fırtınalı bir dənizə bənzəyir indi.

Azəroğlun qorxutmadı nə sürgün, nə dar,
Baxışlarda qəzəb vardır, ürəklərdə kin.
Xiyabandan qorxa-qorxa keçir ağalar,
Onlar bilir bu ellərin ürəyindəkin.
Onlar bilir azərilər dözməz heç zaman,
Bu məhkumluq zəncirini qırar bir səhər.
Onlar qorxur bir gün gələ yenə təzədən
Cəbhələrdən baş qaldıra itən igidlər.

"Gələr" dedim, dostum dönüb diqqətlə baxdı,
O, qəlbimi gözlərimdən oxudu dərhal.
Danışmadım... uzaqlarda ildırım çaxdı,
Göy gurladı, buludlarda göründü hilal...

Mən o gecə gözlərimi yummadım inan,
Elə bil ki, sinəm üstə dağ qalanmışdı.
Məni rahat buraxmadı xəyal, həyəcan,
Neçə şer ürəyimə daldalanmışdı.

Mən yatmadım, göy sularda günəş ucaldı,
Daha səndən nə gizlədim, əziz oxucum,
Nə mən borclu, nə o dostum niskilli qaldı
Bu şerimi səhər tezdən ona oxudum.

*Yalta, 1950*

## YALTADAN MƏKTUB

Sevgilim, yağışlı bir yaz günüdür,
Tutmuş hər tərəfi yenə çən, duman.
Nə sahil, nə şəhər, nə göy görünür.
Pəncərə ardında durub bayaqdan
Səni düşünürəm... Axı adətən
Yağışlı günlərdə darıxır insan.
Qəlbimdə, fikrimdə, xəyalımda sən,
Bir də ilk görüşü anıram bu an.

Onda Təbrizdəydik, gözəl bahardı,
Neysan aylarıydı, xatırla bir sən.
Hər hasar üstündə bir əklil vardı
Badam ağacının çiçəklərindən.

Səhər gün çıxardı, ılıq yaz günü,
Günorta şiddətlə yağardı yağış.
Əlvan rənglər ilə göyün üzünü
Bəzəyən qurşaqlar, yadında qalmış?
Sevgilim, sənin də xatirindəmi,



Yağışlı bir gündü görüşəndə biz.
Mənim yadımdadır, bax bu gün kimi
Ayrılmaq bilmirdi nəzərlərimiz.

O gün tək otaqda qəlbim qaraldı,
Yağış da qoymadı bir göz açım mən.
Gözüm bütün günü küçədə qaldı,
Elə bil bu saat sən gələcəksən.

Axdı şüşələrdən kiçik damcılar.
Bu düşdü, başqası axdı tazadan.
Sayırdım onları qəlbim intizar,
Nə üçün? Özüm də bilmirdim, inan...

Saydım saatları, günü, həftəni
Çox az qismət oldu səadət mənə.
Yağışlı bir gündə tapdımsa səni
Zülmət bir gecədə itirdim yenə.

Artıq beş il keçir o ilk görüşdən,
Yenə də mən səndən düşmüşəm uzaq.
İndi cənubdayam... yenə yağış, çən,
Gözəl bir otaqda tək mənəm oyaq.

Düşürsən yadıma... qəmlənir ürək,
Görən sən hardasan, kim bilir, yəqin,
Bu axşam sənin də bəlkə mənimtək
Qapıda qalmışdır nəmli gözlərin.

Alnını söykəyib soyuq şüşəyə,
Sənmisən hicranın oduna yanan?
Küləkmi səs salıb bizim küçəyə,
Yoxsa həzin-həzin sən oxuyursan?
Görürəm bulud tək gözlərin dolub,

Bəlkə ağlayırsan? Bu hal nə haldır?
Yoxsa bu ayrılıq sənə dərd olub,
Yeqin iradəni əlindən aldı?

– Ağlama, sevgilim, bilirsən ki, sən
Hər ağlayan zaman sıxılır qəlbim,–
Deyərkən şüşəyə toxunur birdən
Sənin saçlarına uzanan əlim.

Xəyallar çəkilir, yenə təkəm, bax,
Çöldə şimşək çaxır, bərk yağış yağır.
Yenə də şüşədən yuvarlanaraq,
Sənin göz yaşların süzülüb axır.

*Yalta, 1950*

## YADIMA DÜŞDÜ

Aşıq, qış qurtardı, il təzələndi,
Təbrizin baharı yadıma düşdü.
Qara gözlərindən ayrı düşdüyüm
O könül dildarı yadıma düşdü.

Nərgizin gözləri süzüləndə gəl,
Bənövşənin boynu üzüləndə gəl,
Ağ buxaq altında düzüləndə gəl!
O əhdi, ilqarı yadıma düşdü.

Aşıq, bir məclis qur, yenə saz götür,
Şair xəyalımdan gör nələr ötür:
Uçdu sarı bülbül, tək qaldı Tahir,
Onun Zöhrə yarı yadıma düşdü.

Sənin sözlərinin vurğunuyam mən,
Bir cığalı təcnis de Ələsgərdən.
Yaz gəldi, dağları məskən etdi çən,
Abbasın əşarı yadıma düşdü.
Buludlar su olub torpağa endi.



Badam ağacları gül açıb indi.
Yenə bizim dağlar yaşıl geyindi,
Savalanın qarı yadıma düşdü.

Yenə el adəti, elin bayramı,
Axır çərşənbəsi, bahar axşamı,
Bu gün nov üstünə gedəcək hamı,
Qızların qatarı yadıma düşdü.

*Yalta, 1950*

## OĞLUM ETİBARA

(İki şer)

Oğul, evimizə qədəm qoyandan
Sənə söyləməyə xeyli sözüm var.
Fəqət hardan tapım mən vaxtı, hardan,
Əlindən nə gecəm, nə gündüzüm var.

Nə vaxt ki, oyaqsan, haray salaraq
Töküb dağıdırsan, qarışır hər yan.
Yatırsan – sükuta qərq olur otaq,
Danışa bilmirik biz qorxumuzdan.

Anan çox çəkmişdir əziyyətini,
Gündüz dincəlməmiş, gecə yatmamış.
Yüz yol yatağından qalxsa da, səni
Bir dəfə yuxudan kal oyatmamış.

Bəzən səhərədək uyumamışsan,
Biz səni nə qədər tutmuşuq dilə.
Sübhü gözlərilə açarkən anan,
Sənin bir gülüşün, təbəssümünlə
Bütün ağrıları unudub, yenə
Şirin layla çalmış təzədən sənə.
Xəstə də yatmısan sən uzun müddət,

Bəzən bilinməmiş azarın, dərdin.
Həkimin, dərmanın olsa da fəqət
Bilirəm, yenə də uçub gedərdin,
Bir də qayıtmazdın sən bu otağa
Əcəl tez axtarıb tapardı səni.
Anan sinəsini verib qabağa,
Ölümün əlindən qopardı səni.
İndi sağalmısan, bir yaşın da var,
Yenə əl çəkmirsən dəcəlliyindən.
Daha söz qanırsan, oğlum, Etibar,
Səninlə çox ciddi danışıram mən.

Bir ildən artıqdır şer yazmıram,
Əgər acısam da bu hala bəzən.
Təəssüf etmirəm, Etibar, balam,
Sən özün həyatda şah əsərimsən.

Fəqət qəlbim yanır anana, oğlum,
O bərk xəstələnib bu son zamanda.
At bu dəcəlliyi bir yana, oğlum,
Qoy sən tək sağalıb dursun anan da.

Səninçün itirib o gəncliyini
O sənlə ağladı, sənlə sevindi.
Ağ çiçəklər kimi ömrün hər günü
Onun saçlarına ələnmiş indi.

Üzümə baxsan da indi diqqətlə
Ancaq duymayırsan nə deyir atan.
Bir zaman sən xəcalətlə
Anıb bu günləri utanacaqsan.

O zaman kim bilir nə deyəcəksən,
Mən yaza bilmirəm indi o hissi.
Sən danışmasan da, qoy söyləyim mən,



Ana nəvazişi, ana nəfəsi
Əzizdir dünyada hər şeydən, oğlum,
Onun qədrini bil bu gün sən, oğlum!

II

Mənim əziz oğlum, Etibar balam,
Sən təzə açılmış çiçək kimisən.
Gülüb-oynayırsan yenə bu axşam,
Sənə şer yazmaq istəyirəm mən.
Dəcəlsən, şıltaqsan, kürsən, inadsan,
Bilir xislətini qohum da, yad da.
Çox zaman əlindən yanaraq anan
Belə dəcəllikdə, belə inadda

Uşaq az tapılar, nə deyim buna...
Heç kəs övladını qarğımaz, odur,
Sözlər yığılsa da dilin ucuna
Anan qəzəbini yenidən udur.
Axı sən qəşəngsən, o gözün, qaşın
Nə Arazda vardır, nə də atanda,
Ay kimi gözəlsən, bəzən həmyaşın
Ulduza bənzəyir sənin yanında.

Şəvə gözlərini görəndə hər kəs;
Deyir ki, dünyaya gələndən yəqin,
Anan heç üzünü yumamışmı bəs?
Nə yaman qaradır gözlərin sənin.

Nə vaxt tərifini eşidir anan
Görürəm xoş gəlir bu sözlər ona.
Bəzən inadından danışılarkan
Çəkir yaxasını o zaman yana.

Axı bu görkəmin, bu qamətinlə
Oğlum, bizlərə yox, yana çəkmisən.
Bu mehribanlığın, cəsarətinlə
Anan da bilir ki, ona çəkmisən.

*Bakı, 1956*

## QƏLƏM YOLDAŞIM

Sevgilim,
dodağında həzin bir bayatı
yatırırsan körpəmizi,
gecə yarıdır...
Misralar
sanki Təbriz xiyabanından keçən
dəvə qatarıdır,
qəmli bir ahənglə axır.
Körpə dəcəl olsa da,
nəğmənin ahənginə uyub
xəyala dalmış kimi üzünə baxır.
Bəsdir,
bu qəmli nəğməni oxuma,
Oxuma, sevgilim.
Onsuz da yaman sıxılır qəlbim
bu tək otaqda.
Özüm 56-cı ildəyəm,
xəyalım on il qabaqda.
Gəlir xatirimə,
səngərdə yatdığım,
toza, torpağa batdığım
günlər.
Düşür yadıma fədai dostlarım,
Saqqal Vəli,
Şəmsüvarlı Əbi,
Qoca Şahmar.
Tüfəngin qundağına kəndir bağlayıb,
güllələri dağarcığa yığan,
tankı sinəsilə saxlayıb
qoşun qabağına çıxan
adsız qəhrəmanlar.
Düşür yadıma,
Sakit gecələrdə
düşmən səsini eşitməsin deyə
astadan bayatı deyən cavanlar.



Yox,
Oxuma, sevgilim,
Bu bayatıları oxuma,
Yetər.
Gəlir xatirimə
aylı axşamlarda
tüfəngin qundağı üstə şer yazıb
səhər atışmasından qabaq
bir daşın üstünə qalxıb
onu dostlara oxuduğum günlər.
Düşür yadıma
iki cəbhə dostum –
tüfəngim,
atım.
Biri nəğməm kimi alovlu idi,
biri cilovsuz xəyalım,
uçan qanadım.
Cəlir xatirimə
Təbrizə dönərkən cəbhədən
üçgünlük yolu
bir gecə-gündüzdə keçdiyim,
Gecə bayatı deyib,
gündüz bardaqlardan ayran içdiyim
günlər...
Gəlir xatirinə yəqin ki, sənin də
unutmamısansa əgər,
yenicə dönmüşdüm cəbhədən,
Sərdar xiyabanında
bir səhər üz-üzə gəldik.
Sən gülümsəyərək
bir mənə baxdın,
bir də paltarıma.
Sonra ciddi hal alıb
qaşqabağını tökdün,
toqqanı düzəldib
nizami köynəyinin ətəyini çəkdin,
bir əsgər kimi salamladın məni.

Mən sıxarkən əlini,
dedin:
"Boynuna sarılardım
Xiyaban olmasaydı əgər".
Yadındamı, sevgilim.
Bir əsgər əfsərlə yanaşı getdi
hərbi qərargaha qədər...
Sevgilim,
indi sən beşik başında
Layla çalırsan,
körpə *xumarlanır yataqda.*
Mənsə tək bir otaqda
yaman darıxıram,
yaman.
Gəlir xatirimə
o zaman
Təbriz xiyabanlarını keçib
"Şairlər məclisi"nə qoşa getdiyimiz
günlər.
Gəlir xatirimə,
hər səhər
gecə yazdığım şeri
mikrofon qabağında oxuyarkən mən,
"Azərbaycan"da çıxardı *sənin* nəğmən.
Sevgilim,
bir uzun illərin sınağından
keçib gələn,
həyatın ağlı-qaralı günlərini görən,
bir məslək uğrunda vuruşub,
bir həyata nəğmə qoşub,
yaşamışıq.
Üzümüz ağ,
alnımız açıq.
Sevgilim,
sən dünən cəbhə dostum,
qələm yoldaşım idin,
bu gün həyat yoldaşım olmusan artıq,



Sən,
tüfəngi atıb bir yana
keşik başından
beşik başına
keçib
laylay çalırsan oğluna.
Bilirəm,
sən unutmamısan ilk əhdini,
ilk ilqarını.
Cəbhədə ölən igidlərin yerinə
Böyüdürsən Arazını,
Etibarını.
Sevgilim,
oxu!
Sən mahnılar oxu!
Qoy daha möhkəm gurlasın nəğmən!
Oxu, sevgilim,
Elə oxu,
qoy bilsinlər ki,
fədai olduğunu
unutmamısan sən.

*Bakı, 1956*

## 35 YAŞIM

Əqrəb əqrəbə toxundu,
qırmızı lent kəsildi elə bil.
Açıq qapıdan gəldi yeni il.
Gəldi,
əlində dəstə çiçək.
-Dostlar,
Yeni ilin sağlığına içək.
-İçək!
Səsləndi piyalələr.
Mən də

əlvida edib
35 yaşıma,
Dolu bir piyaləni
çəkdim başıma.
-Sağ olun, dostlar,
Sağ ol, həyat yoldaşım,
Sən də sağ ol , 35 yaşım!
35 nəğməyə bənzər
Ömrün keçən illəri...
Mənsə o nəğmələri
bəzən kədərli ötdüm,
bəzən gülərüzlü, şən.
35 nəğmə uçdu
bu 35 ildə
mənim dilimdən.
İndi il təzələndi,
yaşım bir il artsa da
Nə gileyim var,
nə umacağım,
Nə də ümidim azalır həyatda.
Səhər işə gedəcəyəm,
Axşam dönəcəyəm evə.
Yox,
Belə düşünməyin həyatımı
Yox,
həyat belə olsa əgər,
O nəyə dəyər?!
Doğrudur, nə dövlətim,
nə də miknətim var.
Ancaq, açıq süfrəmdə
pendir, çörək tapılar.
Dostlarım min-min,
Saymaqla qurtarmaz.
Hamıya tanışdır düşmənim,
Fəqət bir niskilim var mənim.
Dostlar bilsə də,
açmadı.
Ancaq,



Mən açmasam qalıb
qəlbimə dərd olacaq.
Yüz il yaşasan,
Yüz bahar görsən həyatda,
Deyin,
nəyə dəyər
ömrün bircə nəğməsini əgər
ötməsən ana yurdda.
35 il keçdi ömrümdən,
35 nəğmə uçdu dilimdən,
İl də təzələndi.
Baxın,
nəyim var indi.
Məclisimiz şən,
Qədəhlər dolu,
dostlar,
oğlum, sevgilim –
Hamı toplanmış başıma.
Mənsə,
qəlbimdə sevinc,
bir də niskilim,
qədəm qoyuram.
35 yaşıma.

*Bakı, 1957*

## İSTİ KÖYNƏK

Dağdan enən zaman yağışa düşdüm,
Nə bir ağac tapdım, nə də bir qaya.
Kolların dibində tənha büzüşdüm
Səni düşündüm...

Gün batır, qaralır göy də, torpaq da,
Kim var ki, çöllərdə gəlsin haraya.
Qoşqar dağlarından xeyli uzaqda
Səni düşündüm...

Dostum, sən hardasan? Darda qalmışam.
İslanıb əynimə yapışdı köynək.
Uzaq bir ölkədə qərib bir axşam
Səni düşündüm...

O isti köynəyi gətir, ay Səməd*
Gətir, öz dostunu çətindən qurtar.
Qəlbimdə intizar, kədər, məhəbbət,
Səni düşündüm...

Keçəcək yağış da, sel də, bulud da,
İllər də ötəcək bu ömrümüzdən.
Görən nə qalacaq, dedim həyatda;
Səni düşündüm...

Kim bilir dünyanın min nemətindən
Bir şer həvəsim qalacaq yəqin.
Bir də köynəyinin hərarətindən
Dostum, donmayacaq heç vaxt bədənim.

Yüz yerdə tutsa da yağış, qar məni
Bildim məhəbbətin qurtarar məni,
Səni düşündüm,
Səni düşündüm...

*Kislovodsk, 1958*

*Qoşqarda yağışa düşdüyümüz zaman Səməd Afiyət öz isti köynəyini verib məni xəstələnməkdən qurtarmışdı



## ƏSL ŞAİR

*Mədinə Gülgünə*

Sənin arzuların, hissin, ilhamın
Neysan yağışına bənzər hər zaman.
Tez yağıb, tez keçər, bağı, çəməni
Ətirli güllərlə bəzər hər zaman.

Sevincin, kədərin bir dağ selidir,
O, sakit axmamış, axmaz bir an da.
Qəlbinin odundan qaynayar, inan,
Şimal qütbündəki buzlu ümman da.

Qəzəbin, nifrətin şimşək kimidir,
Sal daşı parçalar, qayadan keçər.
Qəlbim deməyəni deməz dilin də,
Səni boğazından assalar əgər.

Fikrində, sözündə xəsis olanlar
Yüz il yaşasa da, bil, gözə dəyməz.
Duyğusuz yazılmış yüzlərlə əsər
Ürəkdən deyilmiş bir sözə dəyməz.

Bu odlu xislətin sözünə axmış,
Dostu isindirər, yadı yandırar.
Alov parçasıdır hər misran sənin,
Onu oda atsan, odu yandırar.

Sən bu ilhamınla, təxəyyülünlə
Bir il də yaşasan, yüz il də qalsan,
Sönməz hərarətin, sönməz atəşin
Səni şair doğmuş əzəldən anan.

*1958*

## NƏĞMƏ

Bir nəğmə oxudu sevgilim dünən,
Sanki sellər, sular başımdan aşdı.
Elə bir nəğmə ki, onu dünyada
Hələ bir müğənni oxumamışdı.

Ana laylası tək həlim, mehriban,
Bir dağ seli kimi coşqun, dalğalı.
Nəğmədə sönməmiş bir məhəbbətin
Həm sevinci vardı, həm də məlalı.

"Ömrüm ötdü yarıdan,
İstəyim yox Tanrıdan.
Ürəyimi ağrıdan
Sənə neçə sözüm var,
Neçə sözüm, sevgilim.

Dağ başına endi çən,
Ağ geyindi çöl, çəmən.
Saçlarının rəngindən
Görürəm qocalmısan
Artır dərdim, niskilim.

Mən xəstə, sən ixtiyar,
Ömrə yoxdur etibar.
Bir şer yaz yadigar
Onu oxuyanda mən
Həm ağlayım, həm gülüm..."

O susdu... Nəğmə də uçdu otaqdan,
Duydum sevgilimin gilayəsini,
Dedim ki, mən sənə bağışlamışam
Sinəmin söz dolu xəzinəsini.



Sən şeir istədin, bir şer azdır,
Nədir xəzinədən alsan bir inci.
Sənindir qəlbimdən gələn hər nəğmə,
Onun həm kədəri, həm də sevinci...

*Soçi, 1960*

* * *

Neçə bahar yola salmışam,
ancaq
nə cırcırama kimi oynaq,
nə qurbağa kimi soyuqqanlı.
Nə də göylər kimi dartılmışam
sisli, dumanlı.
Qəhrəman da olmamışam,
düşmən ordusunu pərən-pərən sala bilim.
Bir gözəl qəlbini də ovlamadım,
Fərhad tək
məhəbbət dünyasında qala bilim.
Büdrədiyim çağlar da olub,
Yıxılmamışam ancaq.
Nə özgə hesabına yaşamaq istəmişəm,
Nə başqasının əlilə ucalmaq.
Keşməkeşli illərdə ötsə də gəncliyim
təəssüf etmirəm yenə.

O illəri yenidən qaytarsalar mənə
inan, beləcə yaşayaram
Başıuca, üzüağ.
Ömrün payızına qədəm qoyub
tökülsəm də yarpaq-yarpaq,
qəm yemə, sevgilim.
Bir də ki, nə qəm,
mən ki, gəncliyimi itirməmişəm.
Hələ qışa da çox var...
Nə üçün yaşadığını duyan
ömrün payızını da, qışını da
bahar kimi yaşayar.

*1962*

## PAYIZDIR, ƏZİZİM...

Eyvanda qırmızı gül dibçəyi,
yazda çiçək açar.
Al-atlas ləçəyi
Yanar,
dan yeri kimi.
Yarpaqlar
buludsuz cənub göyləri kimi
gömgöy!
Ləkəsiz.
Suyunu, günəşini
əskik etmirik biz.
Qoy firavan böyüsün
evimizin bəzəyi.
Həmişə yaşıl olsun
Onun yarpaq-yarpaq köynəyi.
Fəqət bir gün
ləkə düşdü,
saraldı bir yarpaq
Sonra da o biri.
Dedim, bəlkə də soyuqdur yeri.
Keçirtdim evə,
Olmadı yenə.
Sarılıq,
elə bil yoluxdu o birilərinə.
Saraldı, saraldı yarpaqlar...
Fikir apardı məni.
Görəsən niyə saralır?
Bəlkə bir azarı var?
Sevgilim əlini çəkdi
Ağarmış saçlarıma.
Dedi:
-Payızdır, əzizim...
daha nə etmək olar...

*1964*



## SÜLEYMAN RÜSTƏMƏ

Səni hər görəndə uçur xəyalım,
Yadıma ən gözəl bir dövran gəlir.
Elə bil ömrümün bahar çağında
Gah günəş görünür, gah duman gəlir.

Yenə xatirimdə qalmısan elə,
Şinelli, çəkməli o heykəlinlə.
Eşitdim gəlirsən, çıxdım sahilə
Dedim, qardaşımdır bu, mehman gəlir.

Yoluna gül səpdi el tabaq-tabaq,
Neçə dost evində sən qaldın qonaq.
Nə vaxt o günlərdən söz düşür ancaq
Yadıma Kəpəzlə Savalan gəlir.

Təbriz qızlarına qəzəllər dedin,
Məni unutmayın, gözəllər, dedin.
Bu bağlar, çəmənlər, bu güllər dedin
Mənə doğma gəlir, mehriban gəlir.

İndi o günlərdən neçə yaz keçir,
Bilirəm qəlbindən hansı söz keçir.
Hicranın qoynunda ömrümüz keçir
Heyif çoxlarına bu asan gəlir.

Nələr çəkdirmədi zəmanə bizə.
Dağ dağa qovuşdu, dəniz dənizə.
"Gün o gün olsun ki..." qoca Təbrizə
Deyəm, aç qoynunu Süleyman gəlir...

*1966*

## BABAMIN ÖMRÜ

Sən ağlaya-ağlaya gəldin həyata,
Gedərkən
üzündə həm təbəssüm vardı,
həm də kədər...
Qəbrinin başında duranlar
bunu duya bilmədilər.
Özün də bilmədin yəqin,
dünyada sevincin çox oldu,
yoxsa qəmin.
Kimi "nakam" deyib ağladı.
Kimini də boğdu qəhər.
Yüz il yaşasaydın
bəlkə "nakam" deməzdilər.
Yazıq babam.
Nə idi sənin
bu həyatdan alacağın kam?
Gəldin,
ağlaya-ağlaya.
Getdin,
Təbəssümün kədər boyalı.
Özün de,
biz nəyə yozaq bu halı?
Əziz babam.
Bu vida çağında
həyatını bir də yadına salsam
bilmirəm, razı qalarsan məndən,
ya gileyli.
Fəqət,
nə etməli...
Bəlkə bir gün
mənim də qəbrim başında
dayanaraq nəvəm belə,
həyatımı düşünə-düşünə
vidalaşacaq mənimlə...
Nə zaman ki, uşaqdın,



həyata əyləncə kimi baxdın.
Nə yanmağını bildin,
nə donmağını anladın.
Nə taleyindən küsdün,
Nə də bəxtini danladın.
Böyüdün,
böyüdü dərdin də, əzabın da.
Sən səadət axtardın
həyatın iztirabında.
Qolunun qüvvətini,
qəlbinin odunu,
beyninin nurunu taladı
bir parça çörək.
"Bunlar ötəridir..." dedin.
"Ağ gün qabaqdadır bəlkə..."
Ah, bu "bəlkə"lərə nə deyək...
İşlədin, işlədin...
Yorulmaq da bilmədin,
dincəlmək də.
Yadından çıxdı
dərddən ağlayıb,
sevincdən gülmək də...
Bir gün gücdən düşəndə
yeni həsrətlər doğdu sinəndə:
Bir isti koman olaydı,
bir yanan ocağın.
Kaş, bir işin olaydı,
ya bir parça torpağın...
Neçə il də çalışdın
bu həsrətlə
Qovuşduqca həsrət həsrətlə,
Üzündə kədər,
dodaqlarında təxəyyül aləminin təbəssümü
Getdin bu dünyadan.
Səndən qabaq getmiş
yüzləri, minləri kimi.
Gəldin... Getdin.

Özün də bilmədin niyə, neçin.
Həyatda əzabın çox oldu
Ya da sevincin?!
Axı sən insandın.
Əli, ayağı
şüuru, təfəkkürü
öz yerində olan insan!
Niyə bəs bu həyatdan
belə ayrılırsan?
Axı səbəb nəydi?
Niyə həyat qəddini belə əydi?!
Əzildin
dəyirman daşı altına düşmüş
buğda dənəsi kimi,
niyə?
Sən nə istəyirdin ki,
həyat saldı səni mongənəyə?
Yaşamaqçın doğuldun,
adına "insan" dedilər,
Fəqət,
sən ömrün günlərini daşıdın
beşikdən qəbrə qədər...
İndi qəbrə qoyuruq səni...
Əzablar, işgəncələr,
arzular, ümidlər
hər şey bitdi tamam.
Görəsən dünyaya niyə gəlmişdin,
niyə gedirsən...
Yazıq babam.
Yazıq babam.

*1964*



## İNAMLA YAŞAYIRAM

*İbrahim Topçubaşova*

Sən mənə inam verdin
ümidsizlik boğurkən məni.
Hələ də unutmamışam
o gün mənə röya kimi gələn
görkəmini...
Ağ xalatın,
tənzif yaşmağın,
rezin əlcəyin,
rezin başmağın
hələ də yadımdadır.
Çırağın altında bərq vuran,
bıçağının ovxarı,
qanımı donduran iynələrin qarı,
hələ də yadımdadır...
Yadımdadır,
təsəlli, tərif dolu,
qayğılı sözlərin də.
Yadımdadır,
tər damlaları düzüldükcə üzündə
mənə baxıb gülməyin belə.
Hər şey, hər şey yadımdadır,
unutmamışam hələ...
Unutduğum,
ümidsizliyin üstümə saldığı kölgədir,
Bir də sarğı otağından
Çıxarıldığım o an.
Qalan nə varsa xatırlayıram tamam.
Sən mənə ümid, inam verdin,
Həyatda inamla yaşayıram.

*1966*

## HƏYATA QAYITMIŞAM

Bu səhər
həkim baxıb yarama
mənə göz vurub gülümsədi,
sonra şəfqət bacısına:
– Olar, – dedi.
Həkim çıxdı otaqdan,
maraqla baxdım arxasınca.
Görəsən nədir bu "olar" kəlməsi.
Sonra yadıma düşdü
həkimin mənə baxıb gülməsi.
Təlaşım azalsa da,
Marağım azalmadı.
Axı gülməklə
bu "olar" kəlməsinin sirri
açılmadı.
Gözüm qapıda qaldı,
deyə bilmirəm necə.
İntizar üzdü məni,
sarğı dəyişən qız
otağa gəlincə.
Qız da baxıb üzümə gülümsədi:
– Qalxın gedək.
Mən də gülümsədim.
Ürəyimdən keçdi ki,
"nə araba var, nə də xərək,
axı necə gedək..."
Qız baxıb gözlərimə
– Olar, – dedi.
Daha hər şey aydındır indi,
qalxdım yataqdan.
Fəqət ağır-ağır,
qorxa-qorxa.
Baxdım löngər vuran
qapıya, pəncərəyə, otağa.
Gözlərim qaraldı yaman.



Şəfqət bacısı tutub qolumdan
gətirdi pəncərə qabağına.
Baxdım çinarın payız güneşi altında
qızaran yarpağına.
Sevincdən qabardı sinəm,
demək yenidən qayıtdım həyata.
Küçədə ikibir, üçbir keçən
adamları gördüm,
qəribə gəldi mənə.
Hər şey iki həftə qabaq
gördüyüm kimiydi yenə...
Adamlar, kimi laqeyd,
kimi fikirli,
kimi qayğılı idi.
Kədərləndim yaman,
demək bir gün ayrıldın həyatdan
unudurlar səni.
Bu fikirlər sıxdı məni...
Elə bu zaman
Çinar altında duran
iki məktəbli əl etdi mənə.
Sonra iki nəfər də gəldi...
Sonra da bir nəfər...
Gülə-gülə mənə əl etdilər.
Mən də əllərimi yellədib havada:
– Bəli... Mənəm... Mən
Olar...Olar...
Deyib güldüm...
– Daha qalxdım yataqdan, dostlar,
həyata yenidən gəldim...

*1966*

## KÖNLÜM BAHAR İSTƏYİR

Könlüm bahar istəyir...
Doqquz aylıq həsrəti qəlbimdən silə bilsin.
Könlüm bahar istəyir...
Bütün təravətiylə qəlbimə gələ bilsin.

Könlüm bahar istəyir...
Çayları, irmaqları şəlaləyə döndərə,
Məclis qura, laləni piyaləyə döndərə.
Bənövşəsi, arx boyu düzüləndə yan-yana,
Öz ətrindən məst ola, boynu əyilə yana.
Buludlardan yol çəkə zanbağın ayağına,
Yağışdan inci düzə qönçənin yanağına.

Könlüm bahar istəyir...
Hər çatanda qaşını,
Neçə kəmənd toxuya günəşin zərrəsindən.
Dağların göz yaşını
Gilə-gilə axıda çalmalı zirvəsindən.
Dumanı çəmənlərə, bağlara örpək ola,
Gülləri gəlinlərə, qızlara çələng ola.

Könlüm bahar istəyir...
Qoca Sədi demişkən:
"Səhər dan yeri söküləndə dağ döşündə dayanam..."
Çiçəklərin ətrindən
Güneyində məst olub, quzeyində oyanam.
Üfüqdə halay vuran buludlar gülüşəndə
Gurşadından islanıb, qızınam günəşində.
Könlüm bahar istəyir...
Rəngi bol, neməti bol,
gülabı, nabatı bol.

Şöhrəti eldə qala.
Elə bahar ola ki,
Gələn bahara kimi
Söhbəti dildə qala...

*1966*



## GÖYGÖL

Göygöl, tərifini çox eşitmişəm,
Adın dastan olub dilə düşübdür.
Gəzib oymaq-oymaq Azərbaycanı
Sorağın bizim də elə düşübdür.

Bizim Şahgölünün öz qardaşısan,
Deyirlər həsrətə sən tablaşırsan.
Odur nə kükrəyib, nə də daşırsan,
Şahgölü hicrandan çölə düşübdür.

Araz qoşun çəkdi yolu bağladı,
Yerlər yasa batdı, göylər ağladı.
Dağlar öz qoynunda səni saxladı,
O, şahlar əlinə kölə düşübdür.

Fəqət o kimdir ki, hicran görməyib,
Qəlbi sal daş olub, heç kövrəlməyib.
Deyirlər suların çaydan gəlməyib
Kəpəzin gözündən gilə düşübdür.

Sinəndə rəqs edir nərgiz, yasəmən,
Elə bil gül açmış yaşıl bir çəmən.
Gecələr sənmisən göydə əks edən,
Yoxsa göyün əksi gölə düşübdür?

Baharda qəlb açır növrağın sənin,
Deyirlər gözəldir hər çağın sənin.
Mənsə bir gün oldum qonağın sənin
Nə etmək, bizimki belə düşübdür.

*1957*

## BU AXŞAM ÇİMMƏYİN

Gecə sakit, gecə lal,
Ətraf sükut içində.
Göyün atlas donunda
Gümüş rəngli neçə xal
Üzür bulud içində.
Gecə beşikdə gülən
Bir uşağı andırır.
Kəpəzin sağ çiyninə
Sancılıb qalmış hilal
Bir orağı andırır.
Göydə, yerdə nə varsa
Su əks edir özündə.
Asiman ağ çiçəkli
Bir çəmənə bənzəyir
Göygölün güzgüsündə.
Aysa qızıl oraq tək
Düşüb qalmış çəməndə.
Gözləyin o oraqdan
Ey insanlar, çiməndə.
Sabah söküləndə dan,
Şəfəq tonqal quranda
Göydəki ağ buluddan,
Kəndli yenə qayıdıb
Orağını tapacaq.
O zaman çimsəniz də,
Ey insanlar, bu axşam
Çimməyiniz siz ancaq.

*1957*



## BƏNÖVŞƏ

*Osman Sarıvəlliyə*

Yenə bahar gəldi, isindi torpaq,
Yerdən baş qaldırdı bağlarda zanbaq.
Günəşin altında buxarlanaraq
Gəldi geniş düzlər cana, bənövşə.

Çöllərdə otları oxşadı rüzgar,
Əriyib su oldu quzeydəki qar.
Bilirəm, bu qızıl saçaqlı bahar
Qoymaz yarpaqlardan dona, bənövşə.

Yenə də nərgizin gözü süzüldü,
Qərənfilin üstə jalə düzüldü.
Lalənin saplağı yerdən üzüldü
Batdı yarpaqları qana, bənövşə.

Bir gün kənd yoluyla dönürdüm yenə,
Bir bulaq başında rast gəldim sənə.
Gördüm ki, başını qoyub çiyninə
Əymisən boynunu yana, bənövşə.

Bilmədim küskünsən, yoxsa gileyli,
Gəlib mən yanında oturdum xeyli.
Qəlbimdə nə səni qoparmaq meyli,
Nə də əl uzatmaq sənə, bənövşə.

Bükülmüş boynuna baxdığım zaman,
Bir qələm dostumu düşündüm, inan.
Məndən inciməsin qoy şair Osman,
Bir sualım vardır ona, bənövşə.

Axar sular kimi rəngsiz olsaydın,
Bəlkə xumar gözlü nərgiz olsaydın,
Ya da qələmə tək dümdüz olsaydın

O, rəy verərdimi ona, bənövşə?
O gün ki güllərdən çəkildin kənar,
Bu qərib halını qəmə yozdular.
Fəqət razı olma səni sənətkar
Kədərli, qüssəli ana, bənövşə.
Hər gülün, çiçəyin öz hüsnü vardır,
Sənin də görkəmin bir ilk bahardır.
De, kim şer yazıb nəğmə qoşardı
Boynun əyilməsə yana, bənövşə?!

*Bakı, 1954*

## QƏRƏNFİL

Nə tez oyanmısan qış yuxusundan,
Hələ təzə gəlir bahar, qərənfil?
Gözünü gör necə ağardır sənə
Kəpəzin başından o qar, qərənfil.

Nə nərgiz çıxmışdır, nə novruzgülü,
Nə dağlar atmışdır üzündən tülü.
Şaxta yaman vurub meşəni, çölü,
Gözlə yarpaqların donar, qərənfil.

Ayağın altına sərilmiş otlar,
Başına mirvari səpir buludlar.
De, nədən titrəyib əsirsən, nə var,
Bir yerdə tutmursan qərar, qərənfil?

Bəlkə yırğalayır sərin meh səni?
Bəlkə də üşüdür şəbnəm, şeh səni?
İndi necə dərim, necə, ah, səni,
Ey nərgiz gözləri xumar qərənfil.

Qoy gəlsin özünə yazığın barı,
Gəl, odlu sinəmə gəl sığın barı.
Qızınsın köksümdə yarpağın barı
Qəlbimdə sönməyən od var, qərənfil.



Axı, bu çöllərdə nəyin var, nəyin?
Ruzgarın əlində solar örpəyin,
Kim deyir, yox sənin arxan, köməyin?
Yolunu gözləyir dildar, qərənfil.

*1957*

## BULUDLAR

Yenə ağ çalmalı Kəpəzin üstdə,
Çətir tək durmusuz, qara buludlar.
Deyin, külək qovmuş, günəş dağıtmış,
Sizi kim gətirmiş bura, buludlar?

Niyə qaraldınız bu bahar çağı?
Sizdəmi gördünüz ayrılıq dağı?
Görünsə günəşin qızıl saçağı
Hara gedəcəksiz, hara, buludlar?

Cənub ellərinə siz gedən zaman,
Bir sözüm çıxmasın qoy yadınızdan.
Məni xəbər alsa gülüzlü canan,
Salam deyərsiniz yara, buludlar.

Deyin, qəm çəkməsin siz ona, dözsün,
Dərdə, işgəncəyə, zindana dözsün.
Axı söz veribdir, hicrana dözsün,
Tapaq bu dərdlərə çara, buludlar.

Gözünüzdən axan qəlb sevincidir,
Bəlkə həsrət yaşı, bəlkə incidir?
Yəqin bu ayrılıq sizi incidir,
Edir könlünüzü para, buludlar?

Yetər, ağlamayın bu gölün üstə,
Bu dağın, çəmənin, bu çölün üstə.
Günəş bayraq açıb bu elin üstə,
Bu torpaq bürünmüş nura, buludlar.

Gedin, o sahillər gözləyir sizi,
Yuyun göz yaşıyla, yuyun Təbrizi.
Nə düşmən ləpiri, nə də qan izi
Düşməsin bir daha ora, buludlar.

*1957*

## KƏPƏNƏK

Zərli qanadını açaraq yenə
De, hara uçursan, hara, kəpənək?
Hamı heyran qalmış gözəlliyinə,
Üstünün xalları qara kəpənək,
De, hara uçursan, hara, kəpənək?

Bahar bəzədikcə çəməni, bağı,
Quşlar budaqları eləyir məskən.
Öpür ayağını gülün dodağı
Qönçədən-qönçəyə hər qonanda sən
Quşlar da budaqda eləyir məskən.

Nə qədər xoşbəxtsən, şair, sənətkar
Adını bülbüllə çəkir yanaşı.
Nə nəğmən, nə də ki, gözəl səsin var,
Fəqət çiçəklərin yaxın sirdaşı
Bülbüllə çəkilir adın yanaşı.

Bəlkə də hamıdan böyükdür dağın,
Bu dərdin, sevincin kimə bəllidir?
Bəlkə güldən-gülə uçub qonmağın
Səninçün ən böyük bir təsəllidir,
Bu dərdin, sevincin kimə bəllidir?



Bəlkə min arzun var, min diləyin var,
Hanı təbəssümün, göz yaşın hanı?
Bəlkə qəmlə dolu bir ürəyin var,
Dərdini söyləsən tutar dünyanı?
Hanı təbəssümün, göz yaşın hanı?

Çəməndə oynayan körpə uşaq tək
Uçursan, uçursan dinclik bilmədən.
Arzunu duymayır bir gül, bir çiçək,
Dinib danışmırsan bircə kəlmə sən
Uçursan, uçursan dinclik bilmədən.

Sözlərim dəyməsin incə qəlbinə,
Anıram hər səhər, hər axşam səni.
Könlünün sirrini aç, danış mənə,
Axı mən şairəm duyaram səni;
Anıram hər səhər, hər axşam səni.

Zərli qanadını açaraq yenə
De, hara uçursan, hara, kəpənək?
Düzü, heyran oldum gözəlliyinə,
Ey üstünün xalı qara kəpənək,
De, hara uçursan, hara, kəpənək?

*1957*

## DAĞLAR

Yenə sizi gördüm, könül tərlanı
Vətən dağlarına uçdu, a dağlar.
İndi Savalanın başının üstə
Sıxıb gözlərini buludlar ağlar,
dağlar, a dağlar.

Saldınız yadıma ötən günləri,
Necə gözəl imiş Vətən günləri!
Hərdən xatırlaram həmən günləri,
Sanki gözlərimdə qaynar bulaqlar,
dağlar, a dağlar.

Çapanda atımı üzüyuxarı,
Başıma qonmuşdur Səhəndin qarı;
İndi gördüyünüz bu ağ saçları,
Yadigar vermişdir mənə o çağlar,
dağlar, a dağlar.

Qoy deyim səsimi eşitsin aləm,
Qürbət ölkələrdə yüz il də gəzsəm,
Vətən torpağının həsrətindəyəm;
Xəyalım uzaqdan sizi qucaqlar,
dağlar, a dağlar.

Məni unutmayın, dönəcəyəm mən,
Əlimdə bənövşə, lalə, yasəmən,
Keçib Sərdavadan, Vilədərədən,
Yanımda tanışlar, dostlar, qonaqlar
Sizinlə görüşə gələrəm, dağlar,
dağlar, a dağlar.

*Kislovodsk,1958*

## YARPAQLAR TÖKÜLƏNDƏ

Dağların zirvəsində hər gün bulud görünür,
Dərələrin üstüylə boz dumanlar sürünür,
yarpaqlar töküləndə.
Köçür bağdan-bağçadan zərif güllər, çiçəklər,
Qəribə görkəm alır çəmənlər, biçənəklər...



yarpaqlar töküləndə.
Köçəri quşlar uçur hər gün cənuba sarı,
Gərdənbəndə oxşayır durnaların qatarı,
yarpaqlar töküləndə.
Yolları, cığırları çən tutur, yağış yağır,
Üfüqlər də daralır, asiman da darıxır,
yarpaqlar töküləndə.
Gündüzdən öz ömründən gecələrə pay verir,
Səhər çox gec açılır, axşamlar çox tez gəlir,
yarpaqlar töküləndə.
İldırımın səsindən haray düşür dağlara,
Yaylaqlardan qayıdır kənd yerinə mal-qara,
yarpaqlar töküləndə.
Otlaqları bəzəyir bağ-bostanın neməti,
Elə bil ki, ucalır ağacların qaməti,
yarpaqlar töküləndə.
Kəndlilər taxıl döyür, kəndlilər məhsul bölür,
Şəhərlərdən, kəndlərdən payızın ətri gəlir
yarpaqlar töküləndə.
Dizə qalxır bağlarda ağacların xəzəli,
Elə bil ki, soyunur təbiətin gözəli,
yarpaqlar töküləndə.
Baharın təravəti payızda yaşa dolur,
O daha gözəl olur, daha füsunkar olur
yarpaqlar töküləndə...

*1965*

## NƏRGİZ GÜLÜ

Çöldə qar yağır,
alaçalpov.
Evdə
gülqabında nərgiz çiçəyi.
Xumar gözlərində
həyat eşqindən yanan alov,

Başında
yarıb çıxdığı qarın
ağ ləçəyi.
Qara kirgiklərində
neçə gecənin bal yuxusu.
Nəfəsində
torpağa hələ qədəm qoymamış
bahar qoxusu...
*Əyilib*
qulağına pıçıldayıram;
–Çiçək olsa da adın,
Əməlində qəhrəmansan,
qəhrəman.
Kaş, sənin kimi
bahardan müjdə gətirmək üçün
şaxtayla,
boranla üz-üzə durmağı
bacaraydı hər insan.

*1962*

## ZANBAQ

Bir zaman arx kənarında gördüm səni,
oturub lap yanında
oxşamaq istədim
sarı, qıvrım tellərini.
Baxdım,
mehin yarpaqlarında titrəməsinə.
Nəsə danışırdız, dodaq-dodağa.
Yadımdadır yenə,
Gah təsdiq edərək başını əyirdin
lap torpağa qədər.
Gah inkar edərək
silkələnirdin başdan ayağa qədər...
Bu vaxt bir ləçəyin qopub düşdü suya,



üstündə bir qarınca.
Getdi arx boyunca.
Baxdım,
Nə çıxarmaq fikrinə düşdüm,
nə də bu haqda düşündüm düzü.
Mehi, qarıncanı, səni
arxa tapşırıb üçünüzü getdim...
Bu gün yenidən görüşdük.
*Fəqət nə qarınca, nə nesim, nə də arx.*
Sən, büllur qabda
suya qoyulmuş zanbaq.
Mən, yumşaq səndəldə oturmuş
gözü eynəkli,
alnı qırış-qırış,
saçlarına payız qarı qonmuş bir şair...
Bu gün yenidən görüşürük.
Fəqət,
belə görüşmək istəməzdik
nə sən, nə də mən.
Ancaq zamanın hökmüdür,
nə edəsən...

*1966*

## SEVGİLİM

Şəhla gözlərini gördüyüm zaman
Dedim, gül üstünə bir jalə düşmüş.
Bilməm o baxışda nə məna vardır,
Bu şair eşqindən xəyala düşmüş.

Hüsnündən bəllidir, ey nazlı dildar,
Səni qucağında böyütmüş bahar.
Çiyninə tökülən xurmayı saçlar
Sanki mərmər üstə şəlalə düşmüş.

Salıbdır gözlərin məni kəməndə,
Ancaq bu halımı duymusan sən də.
Kim səni qızlarla görsə çəməndə
Deyər gülüstana biir lalə düşmüş.

Demirəm Məcnun tək çöllərdə qaldım,
Nə də Fərhad kimi hey külüng çaldım,
Nə Sənan oldum ki, şöhrətim, adım
Deyələr obaya, mahala düşmüş.

O gün ki qapıdan baxıb gəlibsən,
Məni atəşlərə yaxıb gedibsən.
Qəlbimi müjganə taxıb gedibsən,
Gəl gör ki, aşiqin nə hala düşmüş.

*Ərdəbil, 1942*



* * *

Saqi, xumar-xumar baxırsan yenə
Canıma od düşür bu nazdan mənim.
Nədən qırmızıdır camdaki bədən
Bildin xoşum gəlmir bəyazdan mənim?
Mən onsuz da məstəm, dəryadır qəmim,
Bir an ayrılmamış qəmdən aləmim,
Doldur piyaləmi, qərq olmuş gəmim
Qoy çıxsın dərindən, dayazdan mənim.

Yəqin bu halımı duymusan sən də,
Mən heç içməyirdim dostlar içəndə.
Amandır sərhədi qatar keçəndə
Doldur piyaləmi Arazdan mənim.

*1945*

## KİMDƏN ÖYRƏNDİN

Ey şairin həmvətəni,
Çox istərəm görəm səni.
Lalə üstünə laləni
Taxmağı kimdən öyrəndin?

Üzün aydır, boyun çinar,
Könül səndən ilham umar.
Oğrun-oğrun, xumar-xumar
Baxmağı kimdən öyrəndin?

Gördüm səni düşdüm oda,
Ömrüm, günüm getdi bada.
Sən atlısan, mən piyada
Qaçmağı kimdən öyrəndin?

Hüsnün hər vaxt gələr xoşa,
De, kim səni saldı başa,
Qara rəngi qələm qaşa
Yaxmağı kimdən öyrəndin?
Hüsnün məni dərdə salıb,
Bir salmışdı, bir də salıb.
Günəş üzə pərdə salıb
Çıxmağı kimdən öyrəndin?

*Təbriz, 1945*

## ŞƏKLİN BAŞIM ÜSTƏDİR

Mənə məktub göndərib, zəng edərək uzaqdan,
Soruşursan hər zaman:
"Söylə görüm necəsən?
Xəstəmisən, sağmısan?.."
Sevgilim, özün düşün, sən məndən uzaqmısan?
Gözlərinin rənginə baxa-baxa hər axşam
Mən yuxuya dalmışam.
Bil ki, könül həmdəmin nə yorğun, nə xəstədir,
Şəklin başım üstədir.

Mən səni bir görüşdə təsadüfi sevmədim,
Təsadüfi tərk edim.
Uzaq eldə olmağın etmir məni nigaran,
Gözdən uzaq olduqca qəlbə yaxınlaşırsan.
Günəş qərbə keçəndə azalırmı atəşi?
Ey qəlbimin günəşi!
Könlüm nə hicran duyur, nə ayrılıq hiss edir,
Şəklin başım üstədir.

Mən səni unutmaram məktub yazsan, yazmasan.
Axı hər vaxt, hər zaman
Mən səni düşünmüşəm, sən də məni anmısan.
Ağır gündə, çətində arxamda dayanmısan.
Bu həyat yollarını birgə vurmuşuq başa.



Yaşayacağıyıq qoşa.
Mən heç kədərlənmirəm, ömür keçir, gün keçir...
Şəklin başım üstədir.

*1957*

## GÜNAHKAR

"Günahkar".
Nə ağır damğadır...
Bu ad,
Məhv edər
Kişini də,
Qadını da.
Şəklini asmışam otağıma,
Bilməsəm adını da.
Göstərib
Dostuma,
Qonağıma
Hər gün deyirəm:
"Günahkardır" bu qadın!
Ancaq
Təqsirin nədir?
Bilmirəm.
Barı sən özün soruşaydın
Bu adı sənə verəndən!
"Nə üstə ittiham oluram mən..."
Baxıram,
Sinən açıq,
Başın açıq.
Türk gözəlinə oxşayırsan azacıq.
Doğan günəşin telləri tək
Mərmər çiyinlərinə tökülən
Xurmayı saçlar
Qulac-qulacdır.
Şümşad barmaqlar

Döşlərin üstündə daraqlanıb,
Zindan barmaqlığı kimi.
Köksündə həbs etdiyin
Kimdir elə?
Çırpınır,
Azadlığa möhtacdır.
Yoxsa,
Geniş sinəni örtmüsən
Kiçik əllərinlə?
Səmaya dikilmiş
Mavi gözlərin,
Suyu qurumamış bulaq kimidir,
Hələ də çağlar.
Orada gənclik hissi,
Həyat eşqi
Sönməmiş.
Söylə, "Günahkar"?
Bu sahilsiz diyardan
Neçə səyyah
Geri dönməmiş?!
Məlul baxışlarını
Dikib göyə
Yalvarırsan:
"Ey böyük Tanrı
Keç günahımdan".
Axı, niyə?
Sənin nə təqsirin var!
Nə edəsən ki,
Səni belə yaratdılar.
Dodağın;
Neçə ömrün bahasına alınmış
Yaqut danəsidir.
Qaşların;
Ocaqdan yeni çıxmış
Qılınc tiyəsi tək qaradır.
Gözün,
Yanağın,



Boyun,
Bir bahar nişanəsidir.
Günahkar o adamdır ki,
Səni belə yaradır,
Sonra da
Ad verir:
"Günahkar".
Qalx,
Dizi üstə çöküb,
Yaradanın qarşısında
Göz yaşı töküb,
Günahlarçın yalvardığın
Yetər.
Dünyanın ən gözəl qızı,
Səni bu halda görsə əgər,
Qabağında diz çökər,
Sənə səcdə edər, inan.
Axı sən
Günaha yox,
Pərəstişə layiqsən.
Qalx,
Çıx o çərçivədən!
Qoy mənim olsun
Günahların tamam.
Çərçivə üçün yaranmadın sən.
Qalx!
Dua etdiyin illəri
Yenidən yaşa.
Mən də
Sənin günahınla
Yüz il dolanaram.
Qoy mənim olsun
Günahların tamam...
Eh, buna nə var ki...
Ey cənnət arzusuyla çırpınan
Göyərçin,
Cəhənnəmin qəbzinə qol çəkərəm

Səninçün.
Sənin günahını daşımağa nə var ki...
Bütün günahlar
Gözəllik günahı olaydı təki...
Onu daşımağa nə var ki...
İndi,
Şəklinin altından pozuram
"Günahkar" sözünü
Adını nə yazım?
Qalx,
Özün de.
Ey, gözəllik ilahəsi,
De.
Düzünü de...

*Soçi, 1960*

* * *

Necə tale məni etmiş də pərişan sənsiz,
Qalmışam həsrət ilə gözləri giryan sənsiz.

Gülə sənsiz üzüm aləmdə, bu müşküldü mənə,
Heç açılmaz ürəyim, qalsa o bir an sənsiz.

Bu yer olmuş vətənim, qardaşım ellərdir,inan,
Yenə hicrində sıxır qəlbimi hicran sənsiz.

Məni Məcnun elədin, sirrimi faş etdim əzəl,
Bilmədim çoxdu tökən göz yaşı pünhan sənsiz.

Əriyir şam kimi yandıqca könül, eşqinə bax,
Yox əlacım, dirilib gəlsə də Loğman sənsiz.

Əymərəm baş, məni səndən ayıran əllərə, bil,
Buna o hakimi-dövran verə fərman sənsiz.

Azəroğlun daha atəşlərə az yandır sən,
Bil ki, atəşdə yanır hər tərəf, hər yan sənsiz.

*Ərdəbil, 1943*



* * *

Eşitdim ki, yazıb Fitrət təzə bir şeri-nab indi*,
Cavan şairlərə söylər ki, versinlər cavab indi.

Cavanlar feyziyab olsa təəccüblü deyil məncə,
Qoca aşiqlərin ancaq olur eşqi savab indi.

Bu cananlar vəfasından cahanda bir saray tikdim,
Fəqət çox çəkmədi oldu haman evlər xarab indi.

Bu pərdə altda söz yazmaq nədir mən bilmirəm, Fitrət,
Görürsən pərdəni atmış üzündən afitab indi.

Sən Azəroğluna baxma Azərbaycana vurğundur,
Bu şairlər həyatında yaradaq inqilab indi...

*Ərdəbil, 1943*

* * *

Saqi, nəzər et məclisə, gör canım hardadır?
Bir yol güzər etməz bizə cananım, hardadır?

Məndən məni sorma, nə deyim mən kiməm indi,
Hicrə düşəli bilmirəm ünvanım hardadır.

Qəlbimdəki tufanların heç qeydinə qalma,
Qəlbin qəmini çəkməyə imkanım hardadır.

Saqi, elə zənn eyləmə yormuş məni hicran,
Yox, yox, deməyin siz mənə dərmanım hardadır.

*Bu qəzəl şair Əli Fitrətin eyni qafiyəli qəzəlinə cavab olaraq yazılmışdır.

Bir dağ seli tək çöllərə düşsəm də, nə qorxum,
Axır taparam dalğalı ümmanım hardadır.

Rəiyyət nədi, dövlət nədi mən sultanı eşqəm!
Eşq əhli nə vaxt söylədi sultanım hardadır?!

Azər kimi yandım yenə mən azəri-hicrə,
Ancaq demədim atəşi-hicranım hardadır.

*Təbriz, 1944*

* * *

Neyləyim, ey dil ki, o dilbər ola canım mənim,
Qəlbimin sirrini duya qəlbilə cananım mənim.

Mən görəndə lal olur nitqim, inan, söz tapmıram,
Görməsəm bir il keçir hər ləhzəm, hər anım mənim.

Çün qızılgül yarpağından da zərif bir qəlbi var,
Tez küsür, tez inciyir ol çeşmi-məstanım mənim.

Mahə bənzətdim dünən mən o gözəllər şahını,
Qəhr ilə tutdu üzün, bil, şəmsi-tabanım mənim.

Hər dolanda gözləri eşqim düşür tufanlara,
Qorxum ondadır ki, daşsın bir gün ümmanım mənim.

Bir bahardır, ləblərində qönçələr açmış onun,
Jalə tək düşmüş o güllər üstünə qanım mənim.

Mən eşitdim Azəroğlu dildə yer vermiş ona,
Hökmrandır o sarayda indi sultanım mənim.

*Təbriz, 1944*





* * *

Göl min il yaşadı səssiz-səmirsiz
Nə bir bulaq gördü, nə də bir dəniz.
Lillənib qaldıqca öz yatağında
İncitdi qəlbini, o torpağın da.
Nə sevinci oldu, nə də kədəri,
Belə sakit ötdü ömrün günləri.
Dağ seli bircə gün haray qopardı,
Qayalar uçurtdu, daşlar apardı.
Sonra da qovuşdu axar bir çaya,
Axdı fırtınalı coşqun dəryaya,
Nə ömrə acıyıb, nə bəxtə küsdü,
Mənalı bir ömrə bir gün də bəsdi...

*1965*

## DƏNİZ VƏ GÜNƏŞ

Gecə rahatlıq bilmədi dəniz,
gah haray çəkib hönkürdü,
gah da inlədi.
Fəqət dil açıb danışmadı,
kimsə dərdini bilmədi.
O rahat olmadı,
dünyaya yeni insan gətirən ana kimi.
Yosunlu qayalarda yoldu saçını
dan ağarana kimi.
Səhər bir tabaq atəş doğdu
zümrüd sular.
Dalğalar düşdü atından,
ləpələr qumlara sindi,
Sahildə tökülüb qaldı

qayalardan yolunmuş yosunlar.
Dəniz rahatlandı elə bil.
Sakitcə uyudu
qırmızı tül örtmüş gəlin kimi.
Başını üfüqün ətəklərinə qoydu.
uyudu...
Zaman günəşin əlindən tutub
çəkdi günorta yerinə.
Gün od ələdi dənizin üzərinə.
Ərimiş qurğuşun kimi
qaynadı dəniz,
əridi dəniz...
Qaynadı...
Əridi...
Fəqət səssiz-səmirsiz...
Zaman qüruba çəkdikcə günəşi
Sovuşdu odu,
atəşi.
Suçlu övlad kimi
saralmış gözlərilə
günəş baxdı göy sulara,
üfüqdən asılı qaldı.
Dəniz nə fırtına qopardı,
nə haray saldı.
Dalğalı qollarını uzadıb
qoynuna aldı onu.
Dənizdən doğan günəş
dənizdə də batdı.
Sonra hər şey yatdı...
Fəqət,
bütün gecəni
dənizin səsi gəldi yenə.
O laylay çalırdı
öz dəcəl körpəsinə...

*1966*



## DƏNİZİN SƏXAVƏTİ

*Mirzə Cavad müəllimə*

Bir gün xəzri başlamışdı yaman,
ətəyini dalğalarda yuyan duman
sahili bürüyəndə,
ayrıldım dənizdən...
Əyilib duzlu dodaqlarından öpüb,
qulağına dedim:
– Çox razıyam səndən.
Qızılı qumun,
qızmar günəşin,
mehriban nəvazişin,
harayın,
gülüşün,
bütün nemətlərin üçün razıyam...
Qəzəbləndi dəniz,
Xəzrinin dililə coşdu yaman,
dedi:
– Bir də gözümə görünmə, ey insan.
Mən gözüac deyiləm,
nə verirəmsə
əvəzində nə minnətə,
nə də təşəkkürə
möhtac deyiləm.

*1966*

* * *

Dənizlə tənha qalmaq istəyirəm,
oturub sahil qumlarında
qucaqlayam dizimi...
Uzaqdan qanadlanıb gələn
ləpələrə dikib gözümü

hər şeyi unudam...
Dənizlə tənha qalmaq istəyirəm,
razıyam bizi salalar bir qəfəsə.
Oturaq üz-üzə,
nəfəs-nəfəsə.
O nəğmə deyə,
mən şer oxuyam,
hər şeyi unudam...
Dənizlə tənha qalmaq istəyirəm
bütün gecəni səhərə qədər.
Görəm ulduzları necə yola salır sular,
günəşi necə qarşılayır ləpələr.
Qovub gözlərimə qonan yuxunu
duzlu suyuyla dənizin,
sakitlik içində unudam
bütün keşməkeşini əsrimizin.
Dənizlə tənha qalmaq istəyirəm,
tək bircə gecə.
Görəsən bu necə olar, necə...

*1966*

## DƏNİZ OLMAQ LAZIMDIR

Qızılgül açan bağçada,
baharın oğlan çağı
baxıb sevinmişəm.
Payız budaqdan qoparanda
saralmış yarpağı
elə bil ürəyimə
yarpaq-yarpaq ələnmiş qəm...
Fəqət
necə olub ki, sən
gözlərimin önündə
günbəgün,



anbaan dəyişmisən.
Mən duya bilməmişəm bunu.
Dünən şəklinə baxarkən
Dərk etdim
bunun həqiqət olduğunu...
Sən həmişə
bahar idin mənimçin
dünənə qədər.
Təbrizdə ilk dəfə gördüyüm
qara saçlı,
qara gözlü,
qara qız idin gözlərimdə
bəlkə də belə qalacaqdın,
lap ölənə qədər.
Saçların
gecənin bir parçasıydı,
Arazın
sahil daşlarından süzülən
dalğalar kimi
tökülmüşdü çiyninə
dalğa-dalğa,
çin-çin.
Gözlərin,
zülmətdən oğurlanmış
şəvə kimi,
yanırdı için-için...
Köksün,
fırtına ilə
döyüşmək həvəsində olan
qaya kimi sərt, amansız.
Sən,
bütün görkəminlə
fırtınalar içində doğulmuş
Təbrizli bir qız.
Fəqət,
dünən şəklinə baxdım,
Saçında dan yerinin şəfəqi vardı

dilim-dilim,
zolaq-zolaq.
Dənizlə üz-üzə durmuşdun
köksünü qucaqlayaraq...
"Dənizin sahili var" deyirdin
bilə-bilə.
Sahilsiz xəyalınsa
uçurdu bu sahildən o sahilə...
Önündə,
dalğasız, ləpəsiz dəniz
ayna bir göl kimi.
Sən də dalğalı,
təlatümlü bir sel kimi
qovuşmaq istəyirdin
sanki bir ümmanla.
Axı dünən dilindəki tufanla
bu gün qəlbinə hopmuş
fırtınanın fərqi
ümmanla sel qədərdir.
Kamala dolan insana
Coşqun dağ seli olmaq
hədərdir...
Dəniz olmaq lazımdır!
fırtınası,
təlatümü,
dərinlikdə olan dəniz.
Mən
bu halını daha çox sevirəm, gülüm,
bəlkə də yanılıram
nə bilim,
nə bilim...





## QAÇQINLAR

Onlar üç nəfər idi,
Vətən uğrunda vuruşan
ordunun üç nəfəri.
Nə qədər ki,
Qurtarmamışdı gülləleri,
Bir cərgədə,
bir cəbhədə vuruşdular,
Yüzlərin, minlərin
sırasında.
Nə teslim oldular,
Nə də "aman" diləyən oldu
onların arasında.
Vuruşdular
son gülləyə kimi...
Sonra gəldilər
ölüm ayağına
iftixarla, inamla.
Qala divarı önündə
dayanıb nizamla,
Ölümü gözlədilər.
"Yaşasaq vuruşacağıq".
"Ölsək yaşayacağıq".
Dedilər...
Nə hökm oxundu,
nə qərar yazıldı.
Güllələr açıldı
qırıq-qırıq...
Ancaq ölənlərin sayı
məhkumlardan az oldu.
Axtardılar,
üç nəfər tapılmaz oldu.
– Yəqin ölümdən qorxublar.
– Bəlkə qəhrəmanlıq sayıblar

düşmən əlindən qaçmağı...
Hərə bir söz dedi,
unutdular tamam
sonra bu üç qaçqını,
üç "qoçağı".
Beləcə yoxa çıxdı
ölümə gedənlərin
üç nəfəri.
Qaçdılar...
Dostlarının,
qardaşlarının,
cəbhədaşlarının
ölümünü görmədilər.
Qaçdılar,
ölümə gedənlərin
dözümünü görmədilər.
Vətənçin yaşamağı,
Vətənçin ölməkdən
üstün bildilər yeqin.
Kimsə bilmirdi
sonu necə olacaq
ixtiyarını taleyin əlinə
verənlərin.
Qaçdılar,
o zaman ki arxada qaldı
zolaqlı sərhəd ağacı,
bir də Vətən,
elə bil dərk etdilər birdən,
necə də yalqız,
necə də kimsəsiz qaldılar.
Bayaq Vətən torpağında,
düşmən qabağında,
necə də vüqarlı idilər,
indi necə də alçaldılar...



## BİRİNCİ QAÇQIN

O, ağ saçlı,
ağ saqqallı idi.
Dünyanın isti-soyuğundan
hali idi.
Elə birinci gün
peşman oldu qaçmağına.
İmkanı olsaydı əgər
özü özünü salardı
silah qabağına.
Artıq məhv etmişdi
bir ömrün bahasına qazandığı
adını, sanını.
Qaçmışdı,
demək itirmişdi
özünün özünə inamını.
Nə bir hünər göstərdi ki,
Vətəndə ana biləlr.
Nə də qəhrəman kimi
səngərdən çıxdı ki,
qayıdacağına inana biləlr.
"Qaçmalısan" dedilər,
qaçdı o da.
İnsan necə də miskinləşir
kimliyini unudanda...
İndi o hər şeydən hali idi,
yaşamaqçın
ölüm meydanında qalmalı idi.
Dağ uçar, yeri qalar,
igid ölər, qalar adı.
O nə öldü,
nə də qaldı.
Bir gün də getdi bu dünyadan.
Qəribədir həyat...
Qəbri üstündə dedilər:
– Rahat yat.

Fəqət,
rahat yata bilmədi hətmən,
içini yeyən peşmançılığın,
bir də bu ucuz,
mənasız ölümün kədərindən...

## İKİNCİ QAÇQIN

Özü qaçan,
"Özü yıxılan ağlamaz" dedi.
Sonra da yavaş-yavaş
hər dona,
hər cildə girdi.
Ölümə gedənləri ananda
əllərini yellədi aram-aram.
Görəsən mən də ölsəydim
nə olardı?
Yaxşı ki, qaçdım.
Yaxşı ki, sağam.
Bəzən də nitq elədi
əlinə tribuna düşəndə.
Səsində, boğazında
süni qəhər:
– Biz yaşamalıyıq,
Vətən üçün,
döyüş üçün.
Bir qaşıq qanımızdan
qorxsaq əgər,
bizi bağışlamaz şəhidlər.
Elə bu an
fırlandı başına tribuna.
"Eh, hardan düşdü
bu şəhidlər sözü yadıma..."
Alnında soyuq tər
endi tribunadan birtəhər.
Elə ki, gəldi özünə,



düşündü,
"yaşamalıyıq" deyəndə
görəsən gülən olmadı mənə?
Axı, hamı
hər dəfə təkrar olan,
sürtülmüş daş kimi
nə əldə,
nə də ağızda qalan
bu sözlərin kökünü bilir.
"Yaşamalıyıq" deyən adamın
nə zamandır
yaşaya-yaşaya
öldüyünü bilir...

## ÜÇÜNCÜ QAÇQIN

Üçüncü nə təsadüfən öldü,
Nə də vezifə düşkünü oldu.
Od idi Vətən torpağında,
düşmən qabağında.
Qaçırtdılar,
torpaqdan ayırdılar,
ocaqdan ayırdılar.
Köz oldu,
kül altında qaldı...
eləcə də qalacaq
yenidən od olub,
ocaq olub
yanana kimi.
Qalacaq,
güllə qabağına gedən
yüzlərin, minlərin
qanını alana kimi.
Qalacaq,
əllərdə məşəl olana kimi...

Onlar üç nəfər idi,
ölümdən qaçdılar.
Onlar üç nəfər idi,
biri öldü,
biri yoxdur daha,
ancaq biri var.

## ELƏ OĞUL İSTƏYİR VƏTƏN

Gecədən xeyli keçmiş
Hələ qurtarmamış mübahisəmiz.
Filosof dostumla biz
Neçə bağlı papiros çəkmişik
Bir samovarı boşaltmışıq.
Qanun və hisslərlə dolu
Mübahisəni
Gecə yarısınadək uzatmışıq.
Fəqət Çin hasarı kimi
Nə axırı görünür, nə nəticəsi,
Nə qədər uzun olsa da
Payız gecəsi, –
Məğlub ordunun əsgəri tək
Ulduzlu paqonları çıxarıb
Bir-bir
Atır yeni doğan səhərin ayağına,
Gecə əriyir.
Ay bir qılınc kimi girir qınına...
Dostum tarlaşmış eynəyini
Hovxurur,
Silir,
Yenidən taxır...
Sonra eynəyin üstündən mənə baxır:
– Bəli, – deyir –
Şair olsan da
Yəqin bilirsən
"İks"i kökdən çıxarmağı!



Cəmiyyət də belədir.
Öz qanunu var..
O qanunla getməsən
Nə xalq azad olar,
Nə də "iks" kökdən çıxar...
Qulaq asıram
Filosof hey qanundan danışır.
Daha səbr kasası daşır.
Düzü əhvalım da qarışır.
Bir söz demək istəyirəm
Bu formullar mücəssəməsinə,
Ancaq dilimin ucundan qaytarıram yenə.
Lənət sənə, kor şeytan...
– Qardaş, saxla bu mühazirəni!
Vaxt gələr oxuyarsan tələbələrinə.
İndi qulaq as mənə:
Faruq ehkamlar ölkəsindən qovulanda,
Feysəlin sinəsi qurğuşunla ovulanda,
Xalq taxtından salanda istibdadı,
De görüm formullar pozuldumu?!
Ya pozulmadı!
İyirminci əsr, altmış yaşlı –
Ağ saçlı bir qoca:
25 dəfə səfərə çıxdı
Afrika boyunca.
Neçə xalq qurtardı qara gündən,
Neçə dövlət istiqlal aldı.
Görən "iks" kök üstünə çıxdımı!
Ya yenə də kök altında qaldı?
Neçə ildir Əlcəzairdə
Doyonəkli fransızlar
Haqqını istəyənlərin fəryadını
Təpiyi ilə boğur.
Görəsən bu
Cəmiyyət qanunlarının
Hansına uyğundur?!
İran müstəşarxanədir

"Məsləhətləş, sonra danış..."
İşə bax,
          Firdovsinin nəsli
Gəlmələrin fikrinə möhtac imiş.
İndi elə bir zamandır ki,
Sədlər dayana bilmir
Ümmanların dalğasına.
Ağalar özləri səs verir
Müstəmləkə dünyasının dağılmasına.
Azad olur
Ağlar, qaralar.
Fəqət bizim Azərbaycanda
Orta əsrin bidətləri var.
Düşünürsən,
Fikirlər qızarmış dəmir tək
Beynini yandırır,
          Əlini yandırır,
Dilinə alırsan
          Nəfəsin od tutur,
          Dilini yandırır...
İyirminci əsr ayaq tutduğu gündən
Üç dəfə şahla üz-üzə duran,
Üç dəfə hökumət quran,
Öldürən, ölən,
Döyüşdə üzü dönməyən,
Azadlıq üçün torpağa düşən,
Fəqət ayaqlarda sürünməyən
          Bir xalqın
Haqqını qəsb etmiş ağalar.
Nə ana dilində məktəbi var.
Nə də əlifbası.
Budur Tehranın qisası...
"Milləti-qəyyur..." deyə
Kürəyinə əl vurub
Dilini kəsirlər bir millətin.
Görək kim qanıyla bahasını verəcək
          Bu cinayətin!



Şərq xitabət kürsüsünə qalxdığı,
Qaralar ağların hakimiyyətini yıxdığı
          Bir zamanda
Ana dili qadağan olmuş Azərbaycanda.
Bir həddinə baxın zülmün...
Səfəvilərin qanun yazdığı dilə
     Kilid vurmuş cəlladın birisi.
Baxırsan,
Nə dili söz tutur,
Nə də
Beş qara pula dəyər
Dərisi...
İndi dilimiz "məhəlli"
Nəğməmiz "məhəlli",
Özümüz "məhəlli" olmuşuq.
Nizamisi dünyaya sığmayan
          Bir xalq,
Bir məhəlləyə dolmuşuq!
Bir həddinə baxın zülmün!
Gör nə günə qaldı
Bütün İrana məşrutə verən
Sərdarın nəvəsi!
Bax, budur
İyirminci əsrin
Ən böyük faciəsi!!!
Filosof dostum,
De görüm
Cəmiyyətin hansı qanunu
Bizə rəva gördü bunu!
Yox, dostum,
Yox!
Bu qayda,
Bu qanun,
Rəvayətdir.
Haqsızlığa qarşı
Qılıncların tiyəsi,
Bir də "topların səsi

Həqiqətdir..."
Filosof dostum!
İndi elə oğul istəyir vətən
Düşmənlərin başına
Alov töksün dilindən.
Qalxıb Savalan dağına
Bir millətin dərdini
Bütün Şərqə bağırsın.
Qoy qoca Şərq eşitsin
Dili bağlı,
qolu bağlı,
Sinəsi çarpaz dağlıların
səsini...
Qoy bilsin
Azərin taleyilə oynayan ağalar;
Kül sovuşmamış!
Köz sönməmiş!
Odla oynayanın
Ya əli,
Ya da saqqalı yanar...
İndi elə oğul istəyir vətən
O, Səttarxan ürəkli,
Xiyabani nəfəsli,
Möcüz niyyətli olsun.
Qılıncının odundan,
Sözünün qüdrətindən,
Şerinin siqlətindən
Düşmən el-el qovulsun!
Ey filosof dostum!
İndi elə oğul istəyir Vətən
Füzulinin "nəzmi-nazik"
Yazdığı dildə
Yadlara meydan oxuya bilsin.
Xətai qılıncıyla
Neçə top zəncirini qıra bilsin.
On nəfərlə
Min nəfərə qarşı



Dura bilsin.
Axı, böyük olur
"Kiçiklər"in dərdi.
Gücü düşən,
Sözü ötən,
Bir yara vurur.
Dinməsən ağzın tıxanır,
Vurmasan qolun burulur.
Dənizlər kralı
Zəncilər "sahibi".
Bir zaman
Süngü gücünə
Şərqə soxuldu.
"Həddi-buluğa çatmamış" deyə,
Neçə ölkənin
"Hamisi" oldu.
Kral neçəncinin
Xəzinədar Lordu
Neçə xalqın istiqlalını
Büküb qoydu polad seyfə,
Bank kağızı tək.
Səsi çıxana
"Dinmə" dedi –
"İstiqlalın xətərdədir..."
"Dinsən xortdan yeyəcək..."
Filosof qardaş,
Bizdə belə məsəl var.
"Qonşuya ümid olan
Şamsız qalar..."
Kim öz dərdinə qalmasa,
Kim haqqını almasa,
Qapını döyüb gətirməzlər
– Buyur hürriyyət payını!
Ümmanda naqqallar udan balıqların
Kim eşidir harayını?!
İndi zamandır.
Elə oğul istəyir vətən

Dişilə zənciri qıra bilsin,
Süngü qabağında
Sinəsilə dura bilsin.
Ağır tankları əritsin nəfəsi.
Top gülləsindən uzaq getsin
Haqq deyən səsi...
Bir əli İsfahanda olsun,
Biri Mahabadda.
Neçə görkəmdə,
Neçə adda
Milləti toplaya bilsin
Bir bayraq altına.
*Qoy İran yenidən qalxsın*
İnqilab atına.
Bir yumruq kimi birləşsin
Sözün,
Qılıncın,
Şerin qüdrəti.
Azadlıq təşnəsi milləti
Apara bilsin ardınca.
Həsrətdə saralınca
Səngərdə ölməyə kim razı olmaz?
Kim?!
Filosof dostum!
Cəmiyyət qanununun
Pozulsa da bir bəndi,
İnan,
Dünya mehvərindən qopmaz.
Nə də
"İks"ə bir xələl gələr.
Əvəzində xalq hakimiyyəti düzələr.
Bilirəm o zaman
Sən də bir yol tapıb
"İks"i çıxararsan radikaldan.
Axı xalq hakimiyyəti,
İnsan səadəti,
Daha müqəddəsdir.



Qanunu kəmənd eyləmək
Əbəsdir.
Filosof olsan da
Bilirsən bunu;
Cəmiyyətin ən böyük qanunu
Azadlıqdır...
Qalan qanunların
Hamısı artıqdır.
Filosof dostum,
Razısan deyəsən!
Düşünəndə bir az,
Axı başqa yolu yoxdur
Bəşəriyyətin!
Nə qədər gücsüz olsa da
Səsini boğub,
Radikalını almaq olmaz
Bir millətin!

*1960*

## MƏN SƏADƏT AXTARIRAM

"Səadət yanmaqdadır..."
***B. Vahabzadə***

Oxudum şerini, qardaş!
Oxudum,
uzun yollar keçən,
qızmar günəş altında
səhradakı sərabı
bulaq suyu kimi içən
bir yolçu tək,
şerini oxudum.
Elə bil bahar buluduydum,
boşalmışam yenidən doldum,
hələ üstü qaysaqlanmamış

yarama toxundun elə bil.
Düşündüm,
səadəti axtarmısan neçə il
Axırda tapmısan.
Mənsə axtarmışam ömrüm boyu,
axtarıram,
axtaracağam yenə...
Şair,
bircə qeydim var şerinə,
"Səadət yanmaqdadır..." dedin.
Sanki boş qaldı
sondakı üç nöqtənin yeri.
Necə ki,
səadət axtaranların
bir zaman
top ağzında
göyə sovruldu külləri,
boş qaldı yerləri...
"Səadət yanmaqdadır..." deyirkən
elə bil dairəyə almısan
səadət ifadəsini.
İndi şerə köçürmək istəyirəm mən də
səadət axtaran qəlbimin səsini.
"Səadət yanmaqdadır..."
Bəlkə də bu düz olar
əgər,
səni yanmağa qoyalar.
Yanasan...
Məşəl kimi,
Çıraq kimi!
Yanasan,
alovları sütün-sütun,
buluda söykənən ocaq kimi!
Şölən düşə zülmətin sinəsində
zolaq-zolaq uzanan
yolların üstünə
səhər-axşam.



Sonra ağızdolusu deyəsən:
Xalq üçün yanıram!
Fəqət yanmağa da qoymurlar.
Deyirlər:
alovsuz, tüstüsüz yan!
Yan! Lap xalq üçün,
Nə sözümüz var...
Ancaq şölə çəkmə,
yan xısın-xısın,
yan için-için.
Xalq üçün...
Qardaş, nə edəsən belə "səadəti?!"
Onun xoşbəxtliyindən daha çoxdur
kədəri, möhnəti...
Səadət vətəndədir, məncə,
Torpağı, göyü,
suyu, sərvəti azad vətəndə.
Oğlu, qızı,
dili, sənəti azad vətəndə.
Ayağın altında doğma torpaq,
başın üstündə doğma asiman,
qəlbindən keçəni
azad danışasan.
Danışasan
ağızdolusu, ürəyincə.
Gülesən də,
ağlayasan da –
Fəqət öz diləyincə...
Daha deməyələr:
– Bu, sevinc gətirir sənə,
bu kədər...
Buna gül,
buna ağla!
Yox!
öz evinin özün olasan ağası.
Başın üstdə oturub
xeyrini, zərərini

daha öyrətməyə sənə başqası...
Məncə, belə olar səadət
Özü də niskilsiz, tamam.
Qardaş, sən səadəti tapmısan,
Mən onu hələ də axtarıram...

*1963*

## QIZIL BALIQ

Payız günəşi tökülmüş hovuza,
ayna üstünə dağılan
civə muncuqları kimi.
Nə sular fırtınalıdır,
nə təbiət əsəbi.
Sakit payız havasında
xumarlanır hər yan.
Suda günəşin zərrələrilə oynayan
qırmızı balıqlar da
təqlid edirlər təbiəti.
Sanki bu beş addımlıq hovuzda
tapmışlar səadəti.
Hərdən sarı yarpaqlar
titrəyə-titrəyə düşür
suyun aynasına.
Su da, balıqlar da diksinir bu hala.
Elə bil yarpağın düşməsindən
Hovuzda fırtına qopacaqmış az qala.
Balıqlar suyun dibinə enir,
kirəc "dağın" ovuqlarında gizlənirlər
bir zaman...
Sonra da qumun üstündə sürünürlər
qorxa-qorxa, hərəsan...
Kim isə bir balıq salır hovuza,
iri qızıl balıq.
Fırtına qopur elə bil,



su dalğalanır
hovuz daşır,
hər şey, hər şey bir-birinə qarışır.
Bir göz qırpımında
yıxılır kirəc "dağ" da,
suya qarışır
hovuzun dibindəki qum da,
lillənmiş torpaq da.
Balıq da şahə qalxmış at kimi
quyruğu üstə qalxıb
atır özünü qırağa.
Sonra torpaq üstündə
başlayır sürünməyə,
sürünüb çapalamağa.
Onu suya atırlar yenə,
bəlkə sakit oldu deyə.
Balıq hovuza baş vurur,
burnu quma toxunur.
Qalxır,
suyun aynası qırılır.
Birdən şahmar kimi qıvrılır
yenə atılır qırağa.
Sinəsini dayayıb yaş torpağa,
sürünür arxasına baxmadan,
Sürünür harasa...
Elə bil hiss edir balıq,
onu hovuza atacaqlar
burada qalsa...
Tutmaq istəyirlər,
sürünür.
Qaldırmaq istəyirlər,
çapalayır.
Qanadını, quyruğunu döyərək yerə
sanki torpağı qucaqlayır.
O, üzü üstə düşmüş
bir uşağa bənzəyir
bu görkəmilə.

Hönkür-hönkür ağlayır...
Qaldırmaq istəyirlər,
getmir...
Kiçik, sürüşkən əllərilə
torpağı qucaqlayır...
Baxıram, heyrət aparır məni...
Deyirəm:
– Ey insan, vurma əllərini!
Toxunma!
Onu dalğası adam boyu qalxan
dənizə aparmayacaqsan əgər!
Əl vurma nahaq!
Sənin beşaddımlıq hovuzunda
o qalmayacaq.
Toxunma ona!
Boş yerə düşmə bu həvəsə.
Azad yaşamaq istəyəni
salma qəfəsə.
Qoy qumların üstündə qalsın,
sinəsində
fırtınalı ümmanın həsrəti.
Qoy sürünə-sürünə,
hönkürə-hönkürə ölsün.
Onu hovuza qaytarıb,
əlindən alma
bu sonuncu səadəti...
Əl vurma!
Əl vurma,
O balığa, ey insan!
Əl vurma,
əgər onu
azadlığa çıxartmayacaqsan!

*1962*



## FİL

Birinci cərgədə oturmuşuq sirkdə
oğlumla qoşa.
Hər oyun,
hər tamaşa
elə bil nadir nemətidir cahanın.
O gah əl çalıb,
gah da diqqətlə baxmaqla
bildirir sevincin, həyəcanın.
Bəzən
səhnədə baş əyib
gedənlərin dalınca
elə ürəkdən gülür ki,
lap gözləri yaşarınca.
Quş uçur;
        pərvazlanır o da.
At qaçır,
        həvəslənir.
Nə bir söz soruşur,
nə dillənir.
Baxır diqqətlə
hər şeyə,
hər şeyə
həvəslənir...
Bir qadın gəlir səhnəyə,
arxasınca yekə bir fil.
Dərisi şoran bir torpaq kimi
Cadar-cadar
Əl çalır oğlum,
Əl çalır tamaşaçılar...
Qadın qürurlu,
qadın fəth etmiş
fərmandehi andırır.
Yapışıb xortumundan
Fili səhnə boyu dolandırır,
Sonra

Fil başını sallayıb durur.
Durur əmrə müntəzir.
İndi qadın tək gəzir, –
Oynadaraq şallağını,
Birdən
Filin xortumu üstə
qoyub ayağını
əmr edir ona;
– Ey, tənbəl,
qaldır məni boynuna!
Fil xortumunu uzadıb
bir odun parçası tək
qoyur onu
qulaqlarının arxasına.
Qadın əlini yellədir havada.
Hamı əl çalır
Onun bu ədasına...
"Yamanca yoruldum.
İsti oldu mənə".
Fil yarım ton xortumunda
bir quş qanadını qaldırıb
yel vurur sahibəsinə.
Tamaşaçılar gülür...
Ağacla üç dəfə vurur
Filin başına,
demək
düşmək istəyir qadın.
Palıd gövdəsi tək ayaqlar
bükülür,
Sonra xortumunu sərir
xalının üstünə
pillə-pillə
çin-çin.
Qadın saraydan enən kimi
enir bu pillələrlə,
Bir parça qənd atır torpağa
Filin bu xidmətləriyçin.



Ləngər vuraraq fil
qalxır yerindən...
Əl açıb gülən oğluma
demək istəyirəm mən:
– Oğlum, bu fil deyil!
Bir adı,
bir də görkəmi var
Əsl fil
Afrikada meşələrdə yaşayar!
Ağacları kökündən çıxaran
xortum
ayaqlar altına sərildimi,
şirləri quru yarpaq kimi əzən
dizlər
bir parça qənd üçün əyildimi,
daha o fil deyil, oğlum!
Haram olsun ona
o gövdə,
o xortum!
Ancaq ölməməkçün
əl açan dilənçiyə oxşayır.
Özü də bilmir
nə üçün yaşayır.
Bir parça qənd üçün
nəslini də,
adını da
təhqir etmiş.
İtirmiş mənliyini də,
həyatını da,
Azadlığı da əlindən getmiş.
Üzündə nə qəzəb var,
nə gülüş.
Bir mədəsi var;
bir tikə qənd atır ona
hər gün.
Bir xortumu var
Yer süpürməkçün.

Bir də cadarlanmış dərisi;
O da öyrənmiş kötəyə.
Yox, oğlum!
Yaxşı bil,
o fil deyil!
O fil deyil!

*1962*

## QANUN

Oğlum!
Məhbəsdən yazıram
bu məktubu sənə.
Görüşəcəyimizə
ümidim azalmasa da
yenə
yazıram...
Atalar demiş:
"Vəsiyyət yüngüllükdür..."
Bu həyat
çiyinlərimdə elə ağır yükdür ki,
fırtınaya düşmüş
Gəminin bosmanı kimi;
ya onu sahilə çıxaracağam,
ya da
büküb çiyinlərimi
batacağam,
keşməkeşli həyatın
dalğaları içində
məndən əvvəl batmış
yüzləri kimi.
Qoy bu sözlərim
qalsın qulaqlarında
həyatı,
insanları,
bir də azadlığı sevən



bir adamın sözləri kimi...
Oğlum!
Yadımdan çıxarsam da
zindanda keçirdiyim
günlərin sayını,
fəqət unutmamışam
sən anadan olduğun günü,
bir də
sənə alacağım hədiyyələri –
ata payını...
Divara onuncu xətti çəkdim
bu axşam.
Bu, on hədiyyə deməkdir,
Almamışam.
Kim bilir hələ
neçəsini də borclu qalacağam!
Fəqət heç darıxmıram, oğlum!
Azad olduğum gün
hamısını,
hamısını
alacağam...
Oğlum!
Bir həqiqət olsa da
görməyən inanmaz buna,
On il
bir şəhərdə yaşayıb
həsrət qala
ata oğluna.
Düz on ildir
bir dəfə də görməmişəm üzünü.
Evimizə gedən daşlı yoldan
yəqin çoxdan silmişdir zaman
ayaqlarımın izini.
İndi
Sən yeni ləpirlər salırsan
həmin yola.
(mən rəisə demərəm

bu dərdi
Yüz il də qala...)
Fəqət sənə deyirəm, oğlum,
bu hal
məni kədərləndirir yaman.
Axı nə qədər dözümlü olsam da
mən də insanam!..
Düşünürəm;
saçların –
 otağıma
 hamıdan tez-tez gələn
 axşamın qara tellərinə
 oxşayır yəqin.
Gözlərin –
 barmaqlıqdan
 bir parçası görünən
 asiman rəngindədir
 sənin...
Səsində –
 bir dağ şəlaləsinin
 ahəngi var.
Baxışına məhəllə qızları
yəqin ki, mahnı qoşmuşlar.
Boyun-buxunun...
Yox, *yazmaram dalısını...*
Oğlum,
qoy bu ayrılığın acısını
tək mən çəkim.
Sən cavansan
ürəyinə düşməsin ləkə.
Yəqin,
heç indiyə qədər
bilmirsən bəlkə
ata oğlunu dizi üstə alıb
qıvrım saçlarını
necə qarışdırar,
onu necə oxşayar,



necə danışdırar...
Necə nəql edər
Məlikməmməmmədin
buynuzlu divləri yıxmasını.
Zümrüd quşunun
qanadları üstündə
qaranlıq dünyadan
işıqlı dünyaya çıxmasını...
Sən bilmirsən bəlkə;
uşaq necə dayayar başını
atanın dəmirçi körüyünə bənzəyən
sinəsinə,
qulaq asar
insan təxəyyülünün yaratdığı
o həqiqətdən şirin
əfsanəsinə...
Sən bunları bilmirsən yəqin.
Fəqət heç darıxmıram, oğlum,
azad olduğum gün
danışaram səninçin...
Lakin
məni darıxdıran budur;
axı sən bilmirsən
atan nə üçün həbs olunmuşdur!
*Anandan soruşsan*
o da deyə bilməyəcək
doğru, düzgün...
"...Nə bilim, ay bala,
toyumuzdan keçmişdi 15 gün,
nə gəlinlik paltarımı çıxarmışdım,
nə də əllərimin hənası solmuşdu.
Hələ ona deyilməmiş neçə sözüm,
ürəyimdə nə qədər arzum qalmışdı...
Bir axşam
əlisilahlı iki polis
gəlib apardı atanı.
O gedəndir...

Nə sorağı var
nə də nişanı..."
Bundan başqa
nə bilir ki,
nə desin anan.
Bəli,
məni həbs etdilər...
həbs etdilər
qanun adından...
On ildir
üç addımlıq otaqdayam
qəfəsə salınmış şir kimi...
nə tələbimi eşidən var,
nə xahişimi!
Dinirəm,
Rəis deyir:
– Qanun belədir!
On ildir
Əlisilahlı polislər
qapıda keşik çəkir,
məni güdür.
"Qanun belədir..."
Nə hava görmüşəm,
nə işıq
düz on il!
Nə etmək,
"Qanundur!"
Pəncərəmdəki barmaqlıq,
divar üstündəki məftil
"qanundur!"
"Qanundur"
qapımdan asılan qıfıl da,
qolumdakı dəstbənd də!
"Qanundur!"
üzümdəki siqar dağı da,
Kürəyimdəki şallaq yarası da,
Rəisin üzümə gülüb



göstərdiyi "nəzakət" də!
Bunlar hamısı "qanundur", oğlum!
İlk tutulduğum gün
başqaydı qanuna münasibətim.
Gəlir yadıma
Rəislə söhbətim...
Dedi:
– Həbs olunursunuz
qanun adından!
Dedim:
– Günahsızam.
Dedi: – Bilirəm.
Dedim:
– Ailəm var.
Dedi:
– Nə fövqəladə işdir bu?
Adam ya ailəli,
ya da ailəsiz olar!
Dedim:
– Mən insanam!
Cənabi rəis!
İnsan!
Rəisin sarı yanaqları
qızardı bir az.
Dinmədi...
Sonra
Göy gözlərilə
Mənə baxıb xeyli,
dedi:
– Get, həbsxanada qanarsan!
Günahsız ailəli insan!...
Oğlum!
Qanun – bir mum parçası.
Qolun qüvvətlidirsə əgər
sıx əriyib su olana qədər!
İstəsən zəncir düzəlt
vur gücsüzün qoluna.

Ya da gül dəstəsi edib
səp dostunun yoluna.
Əy sual işarəsi olsun!
Düzəlt – nida!
Odur ki, oğlum
bu dünyada
bir qanun var;
insan azadlığıdır o da:
Polisli, yaraqlı qanunların
yoxdur həqiqəti!
Ayaqlarda kəmənd,
qollarda zəncir,
Kürəkdə şallaqdır
onların
ən böyük "səadəti"...
Oğlum
Bu məktubu oxusan
biləcəksən yəqin
Nə üçün həbs olunmuş
atan sənin!

*1962*

## TORPAQ

Bilmirəm
hansı müdrik insan
bu adı vermiş sənə:
"Torpaq!"
Sənə "Ana",
"Vətən" dedik,
ancaq
etiraf etməliyik, düzü,
öz əzəmətini itirmədi
yenə "Torpaq" sözü.
Sevdik səni
anamız qədər.
İnsanlar sənin yolunda
dəstə-dəstə,



nəsil-nəsil
ölümə getdilər.
Sinənə göz yaşı axdı
gilə-gilə,
qan töküldü
zolaq-zolaq.
Necə də laqeyd qarşıladın,
torpaq,
İsti göz yaşın da,
qaynar insan qanını da,
bəlkə bununçün
"Torpağın üzü soyuq olur"
dedilər,
qəbul etdin
insanların bu böhtanını da.

### I

Atam dolandı başına
ayağı yalın,
başı açıq,
Dedi: "Bəlkə sən,
sudan, günəşdən
korluq çəkməyəsən..."
Özünü oda-suya vurdu qoca,
Əlləri şaxtadan yana-yana
Neçə çayın suyunu axıtdı
qurumuş dodaqlarına.
Komamıza gün düşmədi,
"Birtəhər dolanarıq" dedi.
Kəndidən un qurtardı*
uşaqlar tərə qaynadıb yedi.
Ancaq
sağa, sola çevirdi səni
hər gün;
"Torpaq günəşsiz qalmasın..."

*Kəndi – un saxlanan yer.

Son ovuc buğdanı da
səpdi sinənə –
"Torpaq sonsuz olmasın..."
Daşdan çıxartdı çörəyi
yazıq atam.
Axşamlar canının ağrısından
uşaq kimi ağladı.
Fəqət,
yenə ümidini sənə bağladı:
"Torpaq həyatımızdır" dedi.
Nə ata bildi,
Nə uda bildi...
Bir gün də
sinəsinə söykəyib
zamanın qırmancından
şırım-şırım olmuş
sinəsini,
alanda son nəfəsini,
yenə səni qucaqladı
hamıdan qabaq.
Öldü..
Ovcunda bir çəngə torpaq!..
Sən hiss etmədin bu dərdi!
Yox!
Hiss etmədin yəqin!
Axı, mənim tək
nə hönkür-hönkür ağladın,
nə də anam kimi
için-için!..
Hiss etmədin
bu dərdi yəqin.
Bilmədin bəlkə
qollarının qüvvəsini,
alnının tərini
arx suyu kimi içdiyin,
hissini,
həyəcanını,



bir də həyat eşqini
oraqsız, dəryasız biçdiyin
bir dəri,
bir də sümük yığını olan
bu insan,
bir gün yolda qalacaq.
Bəlkə də bilmirdin bunu?!
Fəqət nə oldu,
Sənə qucaq-qucaq
günəş verən adamın
Axırda uddun qəlbinin odunu!
Ancaq biz yenə
nə "qatil" dedik,
nə də düşmən olduq sənə.
Atamın ölümündən sonra
qardaşım çəkdi nazını,
babamdan sonra
atam çəkən kimi.
"Torpaq həyatımızdır" dedik,
sevdik səni
ana kimi,
vətən kimi.
Çəkdik nazını
atam çəkən kimi...

## II

Ancaq,
sən ana olmadın bizə.
(babalar demiş:)
"Ey üzü soyuq torpaq"!
Anam dözdü
günlərin ağına, qarasına.
Sığındı atamın
günəşsiz, çörəksiz komasına.
Dözdü:
əllərinin cadarına,
dizlərinin yamağına.

Bir dəfə də "acam" deyə
yıxılmadı ağanın ayağına.
Fəqət sən!
Suyu olmayana
bir sünbül vermədin.
Öküzü olmayanın
üzünə gülmədin.
Yoxsulluq nə olduğunu
bilmədin!
"Ver, verim!" dedin
Bazar baqqalı tək.
Daha demədin
kəndisi boş qalanlar
acından öləcək!
Bilmədin
gətirən kimdir,
aparan kim.
Nəşədən qəhqəhə çəkən,
acından fəryad qoparan kim.
Gündə bir ada yazıldı
sahiblik kağızın,
dinmədin...
Məhsulun hər il
bir anbara doldu,
dinmədin...
üstünə neçə ad,
neçə qayda qoyuldu,
dinmədin...
sənin yolunda
neçə arzu külə döndü,
dinmədin...
"Anamın cehizidir bu torpaq!"
deyən ağa öyündü,
dinmədin...
Bəlkə sən dözümlüsən, torpaq!
Axı nə qədər dözəcəksən
bu təhqirə,
bu tapdağa?



Niyə fil gövdənlə
qalxıb ayağa
demirsən:
– Ey anasının cehizini,
babasının mirasını
axtaran cənab!
Daha bəsdir şəcərəbazlığınız!
Bu gündən
qurtardı bu irsi haqq-hesab!
Bir də sən kimsən,
sahib olasan mənə?!
Ömründə əlin toxunmayıb
əlimə,
nə şaxta çəkmisən mənimlə
nə isti bilmisən!
Nə sevincimi duymusan,
nə kədərimi bölmüsən!
Bilin!
Nə sahibim var mənim,
nə ağam!
Mən
məni əkib-becərənlə
bu həyata ortağam!!!

### III

Ey ana torpaq!
Mən istəyirəm
sən haray çəkəsən, haray!
Bütün insanlar eşidə
etiraz səsini.
Özün öz əllərinlə parçalayasan
"Mən torpağın sahibiyəm!" adlı
bəşərin nəsildən-nəslə gələn
faciəsini!..
Qoy, kəndliyə sədəqə kimi
Tala-tala torpaq verən
cənabların əlləri düşsün

yanına!
Qoy utansınlar
xalqın malını oğurlayıb
yenidən sahibinə satdıqlarına!
Mən bunu istəyirəm ancaq;
nə sahibin olsun, nə ağan!
Sən də mənimlə
bir cərgədə
səsini ucaldasan!
Ey ana torpaq!
Ey ana torpaq!

*1962*

## ROMANTİKA

Dünən yenə gördüm onu
bir bağda.
Adamlardan uzaqda,
sakit bir güşəyə çəkilib
oturmuşdu tək.
Çənəsini əllərinə söykəyərək
baxırdı kəpənək qovan nəvəsinə...
Dayandım,
çəkilib bir ağacın kölgəsinə
baxdım ona...
(Düzü nə qabağa gedə bildim,
nə də geri).
Düşdü yadıma gənclik illəri;
ilk görüş,
cavabsız qalan sözlər...
Düşdü yadıma,
yumurlandı alnımda tər...
Düşdü yadıma,
bir qədər utana-utana,
o zaman
necə dedim ona:
– Sən qar altından təzə çıxmış



bənövşə kimi təmizsən.
O dinmədi...
– Sən gül yarpağına düşmüş
şəbnəm tək ləkəsizsən.
Yenə dinmədi.
– Gözlərin ulduzunu itirmiş gecələr kimi
nə qaradır.
Qamətin necə də füsunkardır,
yol üstdə tək duran çinar qədər.
Qaşların üfüqdə yenicə doğmuş
ayparadır,
min ayə dəyər...
Gülümsədi, dinmədi...
Füzulinin Leylisi,
Nizaminin Şirini,
Cavidin Xumarı
tay ola bilməz sənə.
Mən Məcnunun olaram,
Fərhadın, Sənanın olaram,
təkcə bir kəlmə mənə...
Gülümsədi, dinmədi yenə...
Dedim:
– Mən Füzuli kimi
səni şerlə alqışlaya billəm.
Hafiz tək
Sənə iki şəhər bağışlaya billəm.
Nə olsun,
adımın qabağında yoxdur
"Mövlana",
ya da "Xacə" kəlməsi.
Nə olsun sinəmə kölgə salmır
medalların cərgəsi...
Maraqla baxdı sinəmə
dinmədi...
Dedim:
– Ömrüm – hicranla vüsal,
həqiqətlə xəyal,
arzuyla ümid arasında keçib.

Bir az həsrətli,
bir az nakam
bir az ilham,
bir qədər səadət,
bir qədər sədaqət,
sonra dəli Xəzər,
bir də Xan Araz,
hərəsi bir qədər,
hərəsi bir az
ömrün günlərini içib...
Fəqət heyfsilənmirəm yenə.
İsa kimi yox,
həqiqi dirilmək nəsib olsa mənə
ilk dəfə
həyatın tərənnümünü başlayıb,
insanı, azadlığı alqışlayıb
Şeir yazaram,
bu günün,
bir də gələcəyin naminə.
O baxıb üzümə,
gülümsədi yenə,
dinmədi...
Mən də gülümsədim onun kimi.
Sonra da toplayıb iradəmi
dedim:
– Qalan ömrümü də
gözəlliyə – sənə,
inama, etibara verər...
Ucadan güldü,
Fəqət dinmədi yenə...
Doğrusu, daha tükəndi səbrim,
Dedim:
– Niyə dinmirsən?
Razı deyilsən məgər?!
Dedi: – Qulaq asırdım bayaqdan,
yaman romantik imişsən,
yaman...



Dedi, getdi...
Qaldım baxa-baxa...
Qəribə sözdür "Romantika!"
Sonra da çağırdım arxasınca:
Bir dayan görüm
Axı haradadır bunun romantikası?
Sadəcə "sevirəm" desəydim,
razı qalardınmı?
Nə bilim...
O geriyə baxmadı bir daha,
getdi...
Yeni doğan bir məhəbbətin
Ömrü beləcə bitdi...
İndi təzədən gördüm onu,
saçları,
dağ başına düşmüş qar,
alnında dolaylardan keçən cığırlar.
Əlləri,
gömgöy, damar-damar.
Bir guşədə oturub tək.
Fikrə gedərək,
baxır kəpənək qovan nəvəsinə.
Elə bil,
aramızdakı uçurum
indi göründü mənə.
Düşündüm,
o zaman da belə imiş yəqin.
Mənim öz dünyam varmış,
onun öz dünyası.
Ah,
necə də yaman olurmuş
hissin,
həvəsin,
məhəbbətin
romantikası...

*1967*

## UZAQDAN MƏKTUBLAR

*"Həyat haqqında düşüncələr" silsiləsindən*

1

Sevgilim, bir zaman tamamlanmayan,
Nə qədər misrası qəlbimdə qalan,
Kağızın üstündə durub sıraya,
Fikrimdən keçəni qoyub araya,
Səninlə, dostlarla söhbət etməyən,
Ancaq xəyalımdan heç vaxt getməyən,
Bir şerim indi
Təzədən dil açıb qəlbimdə dindi.
Mən bu duyğuları sənə yazmasam,
İnan ki, yenə də olmaram aram...

2

Sevgilim, bilirəm çox darıxırsan,
Nə etmək, əvvəldən belədir insan.
Uzaqda, qürbətdə olsa adamı,
Nə gündüzü olar, nə də axşamı...
İndi bir aydır ki, qürbət eldəyəm,
Doğrusu, başqadır bu yerdə aləm.
Uyuşa bilmirəm, inan, bir anlıq,
Mən hicran çəkirəm, sən nigaranlıq.
Yəqin ki, oyanıb hamıdan erkən:
"Yuxuda görmüşəm, bu gün gələrsən".
Deyərək gözlərin dikilir yola,
Xəyal bir quş olub qonur min kola.
Elə bil varlığın darda qalıbdır,
Bilsən də sevgilin harda qalıbdır,
Yenə dözməyirsən.



Bir hikmətə bax,
(Sən bizim qızlarda sədaqətə bax...)
Mən də bu yerlərdə, düzü, birtəhər,
Günü axşam edib, axşamı səhər,
Həkimlə, dərmanla sirdaşam indi.
Çarəm yox, gərəkdir tablaşam indi...
Bu uzaq ölkədə çəksəm də həsrət.

Deyirlər bir quşdur ömürdə səhhət –
Uçdumu, dönməsi uzanır xeyli.
Odur ki, sevgilim, olma gileyli,
O şirin vüsalın xatirinə mən
İçirəm dərmanı gileylənmədən.
Dözürəm, insanda fil dözümü var.
Fəqət ürəyimi yeyən ağrılar
Nə hicran dərdidir, nə vüsal qəmi.
Necə təsvir edim mən bu aləmi,
Onu mənim kimi duyasan sən də.
Bir başqa dünya var indi içimdə...

3

Sevgilim, etiraf gözəldir, inan –
Başqadır təmənnam indi həyatdan.
Elə darıxıram bu tək otaqda,
Sanki əzir məni yumşaq yataq da.
Yuxuda, aşkarda, hər yanda, hər gün
Doğma kəndimizi görürəm bütün.
Görürəm çəməni, bulağı, daşı,
Əsir o yerlərçin qəlbimin başı.
Artıq şair qəlbim bu niyyətdədir –
Deyim ki, hər nə var təbiətdədir.
Sevirəm dağlara çən gələn zaman,
Sevirəm çayları,
Günəş doğarkən
Necə rəngə çalır hər bir zərrəsi.
Həyat nəğməsidir bulağın səsi.

Sevirəm çəməni ilk bahar çağı,
Sevirəm meşəni, sarı yarpağı
Qalxa dizə qədər,
İtə yol, cığır...
Nə vaxt göy kişnəyib gur yağış yağır,
Bulud göz yaşıyla yuyur torpağı,
Yfüqdə uzanır göyün qurşağı,
Yarpağın üstündə qalır damcılar,
İstər payız olsun, istərsə bahar
Sevirəm o zaman təbiəti mən.
Ayrıla bilmirəm təbiətimdən...

**4**

Bilirəm, sevgilim, qınayacaqsan:
– Bəs insan?
Dünyanı yaradan insan?!
Onu sevmirsənmi?
Sevirəm qəlbən.
İnsansız təbiət düşünmürəm mən.
Sevirəm insanı, insan min-mindir,
Seçib ayırmaq da, düzü, çətindir.
İnsanlıq nə pulda, nə varda deyil,
Nə də ki, yamaqlı paltarda deyil.
Nə qızıl eynəkdə, nə savaddadır,
Nə şanda, şöhrətdə, nə də addadır.
Nə də adamların sənətindədir.
İnsanlıq insanın xislətindədir.
Sevirəm insanı, sevirəm qəlbən,
Kim ki ayrılmayır təbiətindən.
Yüksəlsə rütbəsi, məqamı belə,
Əvvəldən necəydi, o qalır elə.
O üz döndərməyir dostdan, yoldaşdan,
Mən ona deyirəm həqiqi insan...
Fəqət adam da var, baxırsan üzdə
İnsandır, yaşayır yer küremizdə.
Nə toya yarayır, nə də ki, yasa.



Əgər sellər gəlib dağlar uçulsa
Bir sakit guşəyə qısılıb qalar,
Təki bir tükünə toxunmasınlar.
Sədi yaxşı demiş, belə bir insan
Sanki bir şəkildir baxır divardan.
Sevgilim, hər yerdə belələri var,
Elə bil həyatda duz dadmamışlar.
Kədəri, qüssəni qovub özündən,
Görürsən yalandan gülür də bəzən.
Elə bil qorxur ki, gülməsə əgər,
Ömrünün bir günü gedəcək hədər.
Dindirsən üzünə gülümsəyərək
Deyəcək: – Birtəhər yaşayaq gərək.
"Birtəhər yaşamaq..."
Niyə "birtəhər?"
(Belə yaşamağa ömür deyərlər!)
İnsansan, yer tapsın qoy ürəyində,
Sənin kədərin də, sevinməyin də.
Kədər ki, ömürə yamaq deyildir
Qəlbindən qoparıb atasan onu.
Sevinc ki al rəngli boyaq deyildir
Hər zaman dodağa yaxasan onu.
Kədərin də özgə bir aləmi var,
Neçə sevinclərin anasıdır o.
Kədərin mənasın duyan adamlar,
Bilir məhəbbətin aynasıdır o.
İnsansan, varlığın tacısan demək,
Nə vaxtdır əllərin üzülüb yerdən.
Hər yerdə hər şeyə gülümsəyərək,
Yenidən meymunluq niyə edirsən.
Demirəm üzündə yer salsın kədər,
Ağlayıb sızlamaq vərdişin olsun.
Ömründə bir dəfə gülsən də əgər,
Elə gül, ömürlük gülüşün olsun.
Sevgilim, bilsən də yazıram yenə,
Özgə pencəyini geysən əyninə,

Ya qolu sallanar, ya da ətəyi.
Bəs necə geyəsən özgə ürəyi?
Birtəhər yaşamaq xatirinə sən,
Qəlbin ağlasa da özün güləsən...

5

Bir rəqs meydanına getmişdim dünən,
Çəkilib bir yana seyr etdim xeyli.
Çətindir vəsf etmək,
Gərək görəsən,
Həm ağlamalıydı, həm də gülməli.
Elə bil bir dəstə rəngli böcəyi,
Qızarmış dəmirin üstə yığıblar.
Atılıb düşürlər,
Bu rəqs etməyi
"Mədəniyyət" bilən nadanlar da var.
Dərk edə bilmirəm, düzü, nə haldı,
Niyə mədəniyyət bu günə qaldı.
Bəlkə deyəcəksən bu bir qaydadır:
"Zülfəli qoyular keçəlin adı".
Yox, bu tək ad deyil pozaq adını.
Sən razı olarsan öz övladını,
Bax bu düşüncədə, mədəniyyətdə
Böyüdəsən bizim bu cəmiyyətdə?
Axı hansı ana tablaşar buna,
Qızı qürbət yerdə gedib oğlana
Ordan məktub yaza:
– Mehriban anam,
Gözün aydın olsun, gəlin olmuşam.
Burada sevişib mən ərə getdim,
İndi o yaşayan şəhərə getdim...
Sevgilim, de niyə dinmirsən, niyə?
İndi nə ad verək biz bu sevgiyə?
Bəlkə də yadına gəlir sənin də,
Gəlin gətirəndə bizlərdə kəndə,
Qarılar qabağa ayna tutardı.
Cavanlar at çapıb fişəng atardı.



Qızın da başında al rəngli duvaq,
Bir evdən bir evə gələndə qonaq,
Neçə şam yanardı yolu boyunca.
Gəlini evində görəndə qoca,
Bilərdi nə qonaq, nə qonşudur bu,
Oğlunun ömürlük yoldaşıdır bu.
Sevgilim, bilirəm dinmirsən nədən,
Yox, köhnə adətə qayıtmıram mən.
Sən məni qəlbində danlama nahaq.
Gəl sevgi haqqında açıq danışaq.
Qəlbimdən keçəni sən də düşün, bil,
Sevgi toyda deyil, duvaqda deyil.
Qız duvaqlı olsun, duvaqsız olsun,
Nə fərqi, kaş sevgi yamaqsız olsun.
Sevgilim, qəlbində danlama məni,
Küçədən qoşulub gələn gəlini
Qayınana nə etsin.
Bilmirmi məgər,
O bir gün də belə qoşulub gedər...
"Örpəyin düyməmə ilişən zaman,
Qəlbimi ovlayıb apardın, canan".
Deyən adamların cılız səsi də,
Onun həyat haqda fəlsəfəsi də,
Elə düyməsi tək bir anlıq olur.
Həyatı, sevgisi qaranlıq olur...
Yenə də bir filmə baxırdım dünən,
Adını yazmıram, yəqin görübsən.
Kəndin kənarında azı yüz nəfər,
Şirini ulağa mindirirdilər.
Fərhad da ordaydı,
Yadına gəldi?
Ancaq o biz bilən Fərhad deyildi.
Min ildir Nizami köçmüş həyatdan,
"Xosrov və Şirin"i unutmamışsan.
De görüm o filmin nə idi adı?
Daha hansı yeri yadında qaldı?
Niyə dinməyirsən, niyə, sevgilim?

Sənət belədirsə onda nə bilim,
Nə üçün özünə zəhmət verib sən
Füzuli şerini əzbərləyirsən.
Yəqin deyəcəksən: – Uçma həyatdan.
Yox, mənim əzizim, yaxşı düşün bir,
Yaxşını yamandan ayıran insan
Bilər bu sözlərim inkar deyildir.
Gözəl bir dövranda yaşayırıq biz,
Aya körpü salır yerdən nəslimiz.
İnan ki, azalsa günün ziyası,
Günəşə nur verər insan dühası.
Elə dahilərlə həməsrəm ki, mən,
Hazıram yüz dəfə öpəm əlindən.
Elə sənətkarlar arasındayam,
İstərəm bir ömür şagirdi olam...
Fəqət, mehribanım, bilənlər bilir,
Əsl sənət nədir, məhəbbət nədir.

6

Sevgilim, qəlbimdə ağrı var yenə,
Ancaq fikir versəm həkim deyənə,
Ömrümü vəqf edəm gərək dərmana.
Yox, daha hər şeyi atıb bir yana,
Qalxıram ayağa.
Həyat döyüşdür.
Kimin ki silahı əlindən düşdü,
Kimin ki ilk dəfə əyildi dizi,
O çıxır sıradan.
Sevgilim, bizi
Qoy aciz bilməsin bu həyat belə.
Döyüş günlərimiz öndədir hələ.
Məni düşündürən sənsən, sevgilim,
Zamandır, danışıb dinsən, sevgilim.
Yenə də ucalsa o məğrur səsin,
Neçə sözqanmazın, neçə nakəsin
Sözünü ağzında kəsərsən,
bir də –



Daha görünməzlər sən olan yerdə.
Həyatın mənasın geyimdə bilən,
O yersiz bəzənib, o yersiz gülən,
Avara kəsləri misri qılınc tək
Elə yerindəcə kəsəsən gərək.
Sənsə danışmırsan, səbrə bax səndə,
Demirsən geyinib bəzənməsən də,
Fitrətən, xislətən böyüyəm elə.
Haçan böyümüşük özgə əliylə?!
Axı bu misalı niyə çəkmədin:
Günah sarbandadır, böyük bir nərin
Ovsarın gör hara bağlamış naşı,
Ulaqla nər olub boyun yoldaşı...
Niyə danışmırsan?
Təvazömü bu?
Hələ dumanlıykən bəşərin yolu,
Şərqi də, qərbi də heyrətdə qoyan,
Kim idi o dahi, o böyük insan?
O vaxt ki, İskəndər gəzib dünyanı,
Fəth etmək istədi Azərbaycanı,
Ordusuz, silahsız çıxıb meydana,
Nüşabə qələbə çalanda ona,
Nə qədər tayfalar, nə qədər xalqlar,
Uşaqlıq dövrünü yaşayırdılar...
Doğrusu beynimdə min irmaq axır,
Çaylar bir ümmanda qovuşub, axır.
Dolanıb nə qədər kəndi, şəhəri,
Birləşir fikrimin şəlalələri.
İndi şair qəlbim bu niyyətdədir,
(Bu niyyət can verir şerə, sözə də)
Deyim ki, gözəllik təbiətdədir,
Həyatın mənası mübarizədə...

*Berlin, 1963*
*Yesentuki, 1977*

## MƏCNUN SÖYÜD

Belində yağışlı payız günləri,
Bulud göz yaşıyla yuyur şəhəri.
Küçələr bomboşdur, nə səs, nə adam.
Mənsə tək otaqda lap darıxmışam.
Çıxıram şəhərə...
Sısqa yağışda
Göz yaşı axıdır ağac da, daş da.
Kiçik bir meydandan keçdiyim zaman,
Görkəmi pərişan, özü pərişan
Bir məcnun söyüdü görürəm birdən.
Onun qabağında dayanıram mən.
Bir arxın üstündə o durmuşdur tək,
Sakitlik içində fikrə gedərək...
Saçları qarışmış zəmanə kimi.
Özüsə hər şeyə biganə kimi.
Səhradan, günəşdən, qumdan uzaqda,
Bu soyuq, rütubət, qərib torpaqda,
Gəlib-gedənlərə baxır həsrətlə.
O odlu, o qaynar, coşqun xislətlə,
Bu soyuq şəhərdə necə dözür o?
Burda nə axtarır, kimi gəzir o?
Məcnun söyüdmüdür belə lal durur?
Yox, o Məcnun deyil,
Bir xəyal durur...
Məcnuna oxşayır görkəmində o,
Olmamış məcnunluq aləmində o.
Məcnun zəmanəylə girmədi dona,
Dövrünün ən qəti qanunlarına
O nə "bəli" dedi, nə də baş əydi.
Sanki iki dünya baş-başa dəydi.
Sonra da deyingən qarı sayağı,
Böhtana açıldı dövrün dodağı.
Nə hökmü, nə zoru dada çatmadı,
Fəqət o susmadı, aram tutmadı,
Yanıb "Məcnun" dedi eşqin oğluna.



Qeysə bax, fəxr etdi məcnunluğuna.
Açıq sinəsini verib qabağa,
Yalın ayağıyla odlu torpağa
Yeni cığır salıb obadan çıxdı.
O dedi: "Məcnuna yollar açıqdı..."
Qılınc da, nizə də, ox da, zəncir də,
Saxlaya bilmədi onu bir yerdə.
Gəzdi iqlim-iqlim o gənc yaşında,
Məhəbbət, sədaqət, haqq savaşında
Neçə hökmdarı saldı taxtından.
Neçə cangavər də küsüb baxtından
Məcnunla duranda qabaq-qabağa
Qanlı qılıncını atdı torpağa.
Ram etdi çöllərin pələngini də,
Ceyranın qorxulu ürəyini də
İnsana isidən bəlkə o oldu.
Dağların döşündə məclis quruldu.
Çölün sakinləri yığılıb gəldi,
Qaçan da, qovan da burda dincəldi.
Nə güclə bəlləndi, nə də ki, aciz.
Hakim qulsuz oldu, qullar hakimsiz.
O yığdı hamını öz süfrəsinə,
Ülvi bir məhəbbət dairəsinə.
Bu üns məclisində hörmətə meyar
Bir məhəbbət oldu, bir də etibar.

Bəs indi gördüyüm bu nə aləmdir?
O Məcnun hardadır?
Bu Məcnun kimdir?
Saçları tökülmüş çiyinlərinə,
O inam, o təmkin, o qəm yerinə
Onun gözlərindən axan yaşdırmı?
O öz keçmişindən ayrılmışdırmı?
Birdən məcnun söyüd gələrək dilə
Dedi: – Elə demə, bir insaf elə.
O yazıq, kimsəsiz Məcnun mənəm, mən!
– Yox, – dedim, – bu fikir əsla düz deyil

Məcnun yazıq deyil, kimsəsiz deyil.
Bir yerdən gəlmişəm odlu, atəşli,
Qumu hərarətli, göyü günəşli.
Leyli də ordadır.
Bəli, özüdür...
Məcnunu olduğun o şərq qızıdır.
Gözləri Dəməşqin gecələri tək,
Saçları Fəratdan bir qədər gödək,
Qaşları çatılmış qılınc tək qoşa,
Sanki Nofəl özü çatmış baş-başa.
Nəxlə bərabərdir boyu, qaməti
Dəclə nəğməsidir sözü, söhbəti.
Yerişi, duruşu elə Leyli tək.
Əynində ətəyi həşyəli köynək.
Hicranın odundan gələrək dilə,
Hər axşam səsini çəkəndə zilə
Xəzərin sinəsi qabarır, enir,
O qızın səsindən səhralar dinir.
Dağlarda əks olur "Ya Qeys!" kəlməsi.
Onun məhəbbəti, dərdi, nəğməsi
Sənin həsrətindir, sənin fərağın.
İnsanın, dövranın, bir də torpağın
Min illik dərdini danışır bizə.
Sanki Füzuli də qarışır bizə
Ona qulaq asır...
"Ey xoş ol məst ki, bilməz
qəmi-aləm nə imiş.
Nə çəkər aləm üçün qəm,
nə bilər qəm nə imiş".

Gördüm ki, düşünür məcnun söyüd də.
Bayaqdan göz yaşı tökən söyüddə
İndi başqa hal var, başqa görkəm var.
Sanki onu ondan ayırmışdılar.
Haçandan-haçana gələrək dilə
Dedi: – Heç bilmirəm bu gəlişinlə
Mənə sevinc verdin, yoxsa ki kədər.



(Bağışla qəlbinə toxunsam əgər...)
Arayıb, axtarıb məni tapmısan,
Bunu bir dünyaya dəyişməz insan.
Nə qədər sıxsa da bu qürbət məni,
Sənin sözündəki hərarət məni,
Min il də yaşadır, bəli, min il də
Leylidən uzağa düşdüyüm eldə...
– Gəl gedək deyirsən?
Hara gedək biz?
Siz mənə Leylini vəd edirsiniz.
Məni atəşlərə çəkirsiz yenə.
Yox! Dözə bilmərəm vəslin dərdinə.
Yox, dözə bilmərəm! Bu dərdim bəsdir!
Minillik fəraqdan qaçmaq əbəsdir.
Bir də Leyli özü danlayıb deyər:
– Səni Məcnun bilib sevirdi ellər.
Səninsə dözümün, hünərin buymuş?
"Məcnun diz çöküb, o təslim olmuş..." –
Deyib danlamazmı görənlər məni!
Yox! Vəslə çağırmaz ərənlər məni.
Gedəsi deyiləm, doğrusu, burdan.
Mən vəslə yetişsəm, kim çəkər hicran!
Elə bir adamı göstərin, hanı?!
Mən ona tapşırıb gedim hicranı.
"...Məcnun köçüb getdi sinəsində qəm,
İndi bu dövranın Məcnunu mənəm..." –
Deyən aşiqlərin arzusu, qəmi
Dövrünün Məcnunu olmaq deyilmi?
Özün de, eşqdə bu da hünərmi?
Mən necə anladım ona dərdimi.
Axı mənim dərdim hind dəryasıdır.
Leyli o dəryanın bir damlasıdır.
Təkcə eşq olsaydı cahanda dərdim
Onu piyaləyə töküb içərdim.
İçib məst olardım.
Bəlkə o zaman
Nə Leyli olardı, nə mən, nə hicran.

Yox! Yox! Məstliyin də olmaz imdadı.
Əgər Ömər Xəyyam yaranmasaydı
Bəlkə inanardım.
Mahaldır indi.
Təqsir bizim deyil, zəmanənindir.
Ən böyük günahkar o Xəyyam oldu,
Məni Məcnun etdi, o, Xəyyam oldu.
İndi elə aşiq istəyirəm mən
O yüksəkdə dura eşqdə məndən.
Sən belə aşiqdən gətirsən xəbər
Leyliyə demirəm, dünyaya dəyər...
Dedim: – Tarix oldu sən doğan illər,
Min tufan içindən keçsə də bəşər
Səni unutmadı yenə heç zaman.
İstəyim budur ki, səni bu dövran
Yenidən doğaraq öz oğlu kimi,
Yaşatsın Nizami, Füzuli kimi.
– Yaşatsın deyirsən! Qəribədir bu!
De nə vaxt müqəddəs bir eşqin oğlu
Yenidən yaşamaq fikrinə düşdü!
Bir də ki, Məcnunu kim öldürmüşdü?
Dünən qəbilədən çıxan bir nəfər
Bu gün şöhrətlənmiş bu dünya qədər.
İndi mən hər eldə, hər diyardayam.
Həyatda, torpaqda, xəyallardayam.
Burda bir ağacam, Şərqdə dastanam,
Kitabam, nəğməyəm, şerəm, insanam.
Neçə ad vermişdir mənə hər ustad
Qərbdə Otelloyam, Şərqdəsə Fərhad.
Bir vaxt Sənan idim, şeyxlərin başı,
Sonra Hamlet oldum saraya qarşı.
Mənsuram, Yusifəm, Romeoyam mən.
Yox, heç kəs deyiləm, onlar mənəm, mən...
Sənsə bu halımı bilərək yenə
Gəl gedək deyirsən nə haqla mənə!
"Gəl gedək deyirsən!"
Hara gedim mən?



De, necə ayrılım özüm-özümdən.
Leylidən söz açdın, Leyli məndədir.
Onun eşq atəşi bədənimdədir.
Bu qəmim, həsrətim, dərdim Leylidir.
Eşq oduna yanan hər kim Leylidir.
Günəşsiz yaşaram min il də bütün.
Leylisiz qalmadım ömrümdə bir gün.
Bir vaxt başım üstdə o günəş oldu.
Onun atəşindən yanıb qovruldu
Xeymə ağacı tək dərim, bədənim.
Bir insan tüstümü görmədi mənim.
İndi də bu duman, bu çiskin, bu çən
Leylidir, bulud tək başımın üstdən
Asılıb göz yaşı axıdır müdam.
Mən bu göz yaşıyla ülfət tutmuşam.
"Gəl gedək deyirsən!"
Hara gedim mən?
De, necə ayrılım özüm-özümdən.
Ən böyük sevincim bu dərd, bu qəmdir.
Hicrandan vüsala bircə qədəmdir.
Ancaq qorxum budur vüsala yetsəm,
Leylini itirəm, qəmi itirəm.
Gəl sən də çox görmə hicranı mənə.
Bil, dözə bilmərəm vəslin dərdinə...
Deyərək astaca əydi başını,
Mən gördüm Məcnunun ilk göz yaşını.
Düşündüm qəlbinə toxunmuşam mən.
Danışa bilmədim xəcalətimdən.
Çəkildim.
　　　　O söyüd tək qaldı yenə,
Qərq olub dərdinin dərinliyinə
Tək qaldı yenə.

*Berlin, 1963*

## MİLADDAN QABAQKI DANIŞIQ DİLİNDƏ

Mənə dəftər verin,
bir də qələm...
Satıcı qız əllərini açıb yana
başını tərpədir, –
yəni bilmirəm,
Dükana gələn də yoxdur
mütərcim ola bəlkə.
Yenə,
miladdan qabaqkı danışıq tərzi
Çatır köməyə...
Deyir: – Haralısan?
Deyirəm: – Şərqdən gəlmişəm,
Mirzə Şəfinin vətənindən.
Kitabını oxumusunuz yəqin!
– Oxumuşam.
Ancaq
sən azəriyə oxşamırsan,
ay şərqli qonaq...
Qız rəfdən bir kitab götürür,
baxıram,
üstündə bir oğlan şəkli var –
uzun çuxalı, şiş papaqlı.
Bir də
Behzadın yaratdığı
Bir Şərq gözəli, –
tül yaşmaqlı.
Satıcı gülümsəyir
şəklə baxaraq.
Duyuram,
demək istəyir:
"Budur Vazehin həmvətəni,
ay qonaq..."
Mən içimə salıb
etiraz təlatümünü



gülümsəyirəm satıcı qız kimi.
– Yox, belə deyil Şərq!
Belə deyil, gözəl xanım!
Şərqi belə düşünsən, inan,
həyatdan yüz il geri qalarsan.
Nə az, nə də çox,
düz bircə əsr.
Yox, belə deyil Şərq!
Əsrin keşməkeşləri içində
dəyişmiş Şərqin görkəmi də,
düşüncəsi də.
Onun "əfsanələr aləmi" də,
"Min bir gecə"si də.
Nə "Baxçasaray fantanı" var
nə də Bəhram şahın hərəmxanası.
Yox, başqadır
Bayronun poemalarından öyrəndiyin Şərqin
indiki dünyası.
Bəlkə bir zaman varmış!
Daha yoxdur o aləm!
Nə dəvə karvanı var,
nə də ulaq üstündə mürgüləyən sarvan.
Avropanı axtarsan
Şərqdən çox dəvə taparsan.
Nə şiş papaq geyirik,
nə də vəznəli çuxa.
Baxın,
mən də sənin kimi geyinmişəm;
başım açıq,
ayağı dar şalvar,
ağ köynək,
kraxmallı yaxa.
Nə şiş papağım var,
nə də vəznəli çuxa.
Gözəl xanım!
Elə sənin də
yüz il qabaqkı deyil

Düşüncən də, paltarın da.
Perlon köynəyin də,
Əyninə güc ilə geydiyin
topuqdan yuxarı şalvarın da.
Yüz il qabaqkı deyil, xanım.
Niyə sən gündə bir boy artırkən
mən gərək öz yerimdə dayanım?
Niyə?
Niyə kitabdan öyrənirsən
həyatını bir millətin?!
"Əfsanəli,
tilsimli,
cadulu Şərq..."
"Hər addımı macəralarla dolu Şərq".
Yox, belə Şərq olmamış, xanım!
Yoxdur indi də!
Biz dəvə üstündə keçdik keçən əsrləri,
siz at belində.
Qərb xaç yürüşü apardı,
ərəblər din döyüşü.
Hər ikisini lənətlədi zaman.
Hər ikisində sönən ocaq oldu,
ölən insan.
Bir zaman
siz də silah götürdünüz,
biz də.
Bir düşmənə qarşı döyüşdük
ikimiz də.
Sən "Toxucular" marşı oxudun,
mən "Mücahid" nəğməsi.
Bəli, gözəl xanım,
Şərqin öz həqiqəti var,
Qərbin öz fəlsəfəsi...
Qalileyi oda atdılar Qərbdə.
Şərqdə Nəsimini soydular
diri-diri.
Bu özünü dərk elədi,



dünyanı kəşf edəndə o biri.
Qərb qulaq asanda
qoca Homerin Odisseyə qoşduğu nəğməsinə,
Rüstəm Qaf dağında
dizini qoymuşdu Ağ divin sinəsinə...
İskəndər Nüşabəylə üz-üzə duran zaman
Son hökmü Nizami verdi fəqət.
Bəli, gözəl xanım,
Bu yer kürəmizdə
əfsanə, cadu, tilsimlə
yaşamamış heç millət,
Şərq ilə Qərb arasındakı məsafəni
indi dəyişmişkən zaman ölçüsü,
Yenə sən,
Şərqi
Behzadın şəkillərilə ölçürsən.
Gəl mənimlə gedək Şərqə.
Özün gör nə aləm var
Mirzənin əlində.
Gedək,
Nə uçan xalçada,
nə dəvə üstündə,
nə də at belində.
Gedək,
iki saatdan sonra
təyyarə meydanında düş,
qara saçlı, qara gözlü
ömür yoldaşımla görüş.
Nə tül yaşmağı var,
nə qara rübəndi.
(Çirkinlər gizlənmirkən
niyə yaşınsın
Şərqin gözəlləri indi!)
Yox, o qısqanmaz da
tutduğum bu "işə".
Axı şərqlilər Otello olmurlar həmişə!
Gedək, gözəl xanım,

Sən də Şərqi gəz,
mən Qərbi gəzdiyim kimi.
Gör necə də böyük olur
buğdayı dərililərin qəlbi.
Neçə şəhəri, kəndi gəz
yoluna Kaşan xalısı sərsinlər.
Günəşi də, dənizi də
ixtiyarına versinlər.
Çim, yan...
Axşam hansı evdə qalsan
Ya Təbriz çilovu yeyərsən,
Ya da Qafqaz kababı.
Üstündən bal şərbəti içərsən,
ya da Gürcüstan şərabı.
Ancaq
bizdə bir məsəl var;
"İlan vuran ala çatıdan qorxar..."
Gedək,
nə "Hacı Vilhelm" tək,
nə də əfsanə yazan kimi.
Gedək dost kimi,
həqiqi insan kimi.

*Almaniya, Erfurt şəhəri,*
*1961*

## MARSELİN TALEYİ

Praqada tanış olduq,
adını xəbər aldım
– Marsel, – dedi.
– Fransadan gəlmisən yəqin?
– Yox, Əlcəzairdən.
Bu nədir!
Şəhər başıma fırlandı elə bil
"Əlcəzairli Marsel!"



Əlimi çəkib əlindən,
qəzəbləndim, düzü.
Düşündüm, nə Əhmədsən, nə də Həsən,
niyə axı Marselsən?
Sonra da ürəyim yandı halına.
Bəlkə də xoş gəlməkçin ağalarına
atan qəsdən qoymuş sənə bu adı.
Axı siz olmasaydınız
Afrika boyunduruq altında qalmazdı!
Dəyməzdi Əlcəzairə gəlmələrin ayağı da,
Parçalanmazdı tala-tala
Afrika torpağı da ...
Axı sən Marsel.
anan Fransua,
atan Şarl
olmasaydı əgər,
Kimə sığınardı qürbət bir ölkədə
əli silahlı gəlmələr!
Titrək dodaqlarında
acı bir təbəssüm,
başını əyib aşağı
– Atam Əhməddir,
anam Gülsüm.
Marsel olsa da adım,
Əlcəzairliyəm özüm.
Qarışdı söhbətə
Mərakeşli Məhəmməd,
qıvrım saçlarında günəşin qoxusu.
Qara gözlərində odlu bir məhəbbət.
Qalın dodaqlarını büzərək
bir Marselə baxdı,
bir mənə.
– Yox! – dedi –
ərəb demək olmaz sənə!
Yox, qardaşım,
incimə, sən,
bəlkə Əlcəzairdə doğulmuş bir gəlməsən!

Saçın sapsarı,
gözlərin gömgöy,
özün firəngcə danışırsan.
Haran ərəbə oxşayır, qardaş,
Haran?!
İki kəlmə ərəbcə danış,
sonra qılıncını çək
lap boynumu vur...
Afrikada belələri azmı:
Şərqdə doğulur,
Şərqdə yaşayır,
dar ayaqda
gəlmələrlə bir yerdə silah daşıyır.
İncimə məndən, Marsel,
əlcəzairlisən,
bunu danmıram.
Ancaq ərəb olmağına
inanmıram!
Axı az görməmişəm,
Afrika sizinlə doludur.
"Afrikalıyam" deyib,
sonra boğazımızda bir şahmar olur.
Suyumuzu içib,
çörəyimizi yeyir.
Danışanda da üzümüzə
"vəhşi" deyir.
Hələ apardıqları sərvət
qalsın bir yana.
Heyvan kimi baxırlar
əlinin zəhməti,
alnının tərilə
yaşadıqları insana.
İncimə məndən, Marsel,
incimə!
Sən əlcəzairlisən,
buna sözüm yox.
Fəqət



ağacı içindən yeyən qurdları
görməyə gözüm yox!
Mən ərəbəm!
Dediklərim həqiqətdir,
acı olsa da,
danışmaya bilmərəm.
Özümü, nəslimi danan,
Afrikanı parça-parça udub
nallı çəkmələrilə sinəmin üstündə dayanan
cənabları,
bağışlaya bilmərəm!..
Marsel tutuldu bulud kimi,
elə bil daha da saraldı yanaqları.
Məhəmmədin zərbələrindən
əzilən bədənini,
saxlaya bilmədi ayaqları.
Yanındakı daşa çöküb
əllərilə örtdü üzünü.
Düşündüm,
bu ittihamlardan
Marsel necə qurtaracaq özünü!
Bəlkə təslim əlamətidir elə bu hal?
Axı indi nə zəncir var,
nə qandal.
Üz-üzə dayanmış
bir ərəblə bir gəlmə.
Marsel susurdu,
danışmırdı bir kəlmə...
Birdən başını qaldırıb
dolmuş gözlərilə
bir Məhəmmədə baxdı, bir mənə:
– Doğrudur! – deyə, bağırdı.-
Doğrudur, haqq verirəm sənə!
Mən də duymuşam bu həqiqəti.
Duymuşam çoxdan,
neçə illər qabaq.
Fəqət taleyimə bax!

Bir zaman qurğuşunla
yadlara dediyim bu sözləri,
indi sən,
Məhəmməd, mənim özümə deyirsən!
Aldanıb adıma, saçlarımın sarısına,
sən söz dağı çəkdin
qəlbimin xəncər yarasına.
Yox, qınamıram səni, Məhəmməd,
qınamıram.
Gör necə talesiz olurmuş adam..."
"...Əlcəzairdə doğulmuşam,
ərəb olmuş atam, anam.
Mən özüm də bir ərəbəm,
damarımda ərəb qanı.
Bu dünyaya gələn gündən
mən ərəbcə çağırmışam öz anamı.
O zaman ki, mən torpağa qədəm basdım,
mən Gülsümün laylasına qulaq asdım.
Afrikanın havasıyla doldu sinəm.
Fəqət buna öyünmürəm.
Afrikada doğulana
axı bunlar adi haldır.
Düşünürəm bəlkə elə
gözlərimdə o göylərin,
saçlarımda boz torpağın
rəngi qaldı...
Anam öldü,
saçlarıma əl çəkməmiş,
gözlərimə
qara keçən həyatının
günlərindən rəng çəkməmiş.
Anam öldü...
Mən uşaqdım,
hiss etmədim bu ağrını,
Damarımda onun qanı,
dodağında onun südü,
anam öldü.



Yetim qaldım.
Gəlmələrdən təlim aldım.
Dayəm qoca fransızdı,
dilimi də o açmışdır.
O mənimlə Gülsümümün dilində yox,
öz dilində danışmışdır.
Uşaq idim,
dərk etmədim bu dərdi də.
Mən nə bilim, mən nə bilim,
Gülsümümün köksündəymiş
mənim doğma ana dilim...
Mən böyüdüm, mən danışdım.
Kolleci də qurtaranda
bu ağrını duymamışdım...
Sonra Paris aldı məni...
Tərk edəndə mən vətəni –
ağladım da.
Soruşmayın niyə, neçin?
Fəqət, fəqət dayəm üçün.
Paris doğma gəldi mənə,
Axı hələ uşaqlıqdan öyrənmişdim
o ölkənin qaydasına, adətinə.
Adım Marsel!
Gözlərim göy,
rəngim sarı.
Məni firəng çağıranda
bir gün ərəb uşaqları
elə bil ki, mən ayıldım,
bir ömürlük röyalardan.
Ax, necə də dəhşətlidir
kimliyini dərk etməsə
əgər insan!
Mən ərəbəm, adım Marsel?!
Görən hardan gəlmiş bu ad?!
Elə bil ki, birdən-birə
adım mənə göründü yad.
Mən ərəbəm!

İnanırdım özümə mən!
Bəs nə imiş əsl adım?
Gülsüm verən, Əhməd verən
doğma adım!
Mən Gülsümü görməmişəm,
necə oldu Əhməddən də soruşmadım?!
İndi kim var alım xəbər?
İyirmi il bilmədiyim öz adımı
kimlər mənə söyləsinlər?!
Elə bil ki, bir səs gəldi
ürəyimin lap içindən.
Qulaq asdım o səsə mən.
Qulaq asdım,
o səs deyir:
"Anla, Marsel,
bu ad, bu dil sənin deyil,
dayənindir..."
Mən qayıtdım doğma yurda,
azadlığın cəbhəsində əsgər oldum,
Mən qovuşdum
öz xalqımla, öz elimlə.
Silah alıb mən vuruşdum
Gəlmələrlə,
bu adımla, bu dilimlə.
Mən vuruşdum...
Nə təngidim, nə yoruldum.
Səngərlərdə yaralandım.
əsir düşdüm,
məhbus oldum.
Məhbəsdə də mən vuruşdum,
nə təngidim, nə yoruldum...
Vətənimlə birgə çıxdım azadlığa.
Fəqət indi sən toxundun
sinəmdəki bu yaraya,
göz bağlamış köhnə dağa...
Mən ərəbəm!
atam Əhməd,



anam Gülsüm!
Mən ərəbəm!
İnanıram buna özüm.
Adım Marsel,
gözlərim göy,
saçım sarı!
Nə zamandır unutmuşam
mən bunları.
Damarlarda al qanımla,
bütün hissim, həyəcanımla
ürəyimlə mən ərəbəm!
İnamımla,
düşüncəmlə,
diləyimlə mən ərəbəm!
Mən ərəbəm!!."
Marsel susdu...
Biz durmuşduq heykəl kimi.
Məhəmmədə nəzər saldım,
O dinmədi.
Mən Marseli seyr elədim,
o susurdu.
Birdən mənə elə gəldi,
Marsel tamam qapqaradır Məhəmməd tək
Məhəmməd də saralmışdı Marsel kimi
Üçümüz də dayanmışdıq,
dayanmışdıq heykəl kimi.

*Praqa, 1963*

## NİKOLA MƏBƏDİNDƏ

Bir gün məbədə getdik,
Praqada Nikola məbədinə.
Doğrusu, heyrət apardı məni:
– Bu ki sal qayalı dağdır, – dedim.
Şiş qüllələri
buludları doğrayırdı

dilim-dilim.
Hər qüllənin üstündə qızıl bir xaç,
aşağıda çiyinləri əbalı rahiblər.
keşikçilər.
Tanıya bilmədiyim daha neçə nəfər...
Qapının üstündəsə –
qızıl dar ağacından asılmış İsa,
başını əyərək sinəsinə,
sanki baxmaq belə istəmir
içəri girənlərin çöhrəsinə.
İçəridə,
böyük şamdanların yanında
müqəddəs ata,
çiynində qırmızı məxmərdən əba.
Arfa sədaları altında
bilmədim, xütbə oxuyurdu,
yoxsa dua...
Qulaq asan da vardı,
tamaşa edən də.
Mütərcimlə bir tərəfdə
sakitcə dayanıb mən də
baxırdım,
müqəddəs kitabdan qarışıq xətlərlə
sütunlara köçürülmüş yazılara.
Bir də
hansı rəssamınsa
ömrün bahasına bəzədiyi
tavana, divara...
"Məryəm ana, qucağında körpəsi..."
"İsanın yenidən gəlməsi..."
"Bir şəkkakın kəsik başı,
damcı-damcı axan isti qanı..."
"Rahiblərin əlinə düşmüş dinsizin
üzündəki iztirabı, həyəcanı..."
Daha neçə qəzəbli heykələ,
vahiməli şəklə baxdıq...
Düzü, dayana bilmədim,



kilsədən çıxdıq.
Küçə günəşlə dolu,
gülə-gülə keçirdi adamlar...
Mütərcim nəfəs alıb sinəsi dolu,
sonra çevrilib mənə
dedi:
"Bu məbədin iki əsr tarixi var.
O zaman ki Avropada
azalırdı etiqad, inam,
bunu tikdilər.
Özü də əlli il çəkdi tamam,
o şəkillər də qəsdən çəkilmişdir elə.
Axı kömək etməyirkən nə şirin vədlər,
nə də hiylə,
keçdi hücuma intiqam, qəzəb, kin.
Sığındı məbədə
bir ayağı qaçaqda olan din..."
Düşündüm, qəribədir həyat.
Vədlər üstündə yaranmış etiqad
gör nə hala düşür,
dünyanı tutmaq istərkən
axırda məbəd küncündə büzüşür.
Əgər dağa da söykənsə yalan,
dayana bilmir yenə.
Həqiqəti dərk edirkən insan,
qaytara bilmir onu
nə dar ağacı,
nə də cəlladın baltası.
Yaman olur etiqada söykənən
dünyanın dağılması...
Yəqin Papa da dərk etmiş bunu.
Dağ boyda bir məbədlə kəsmək istəmiş
Həqiqətin yolunu...
Fəqət nə oldu aqibəti,
İşığa can atan bəşəriyyəti
başqa yolla apardı zaman.
Orta əsrlərdən qalan

bu məbəd də dəyişdi
əsl mənasını tamam.
Bura dəstə-dəstə gəlib,
dəstə-dəstə gedən adam
nə ziyarət, nə də tövbə edir.
Hər şəklə baxdıqca
üzünü çevirib yana,
"Necə də dəhşətlidir" deyir.
Burdakı hər şey
indi dəyişmiş təsirini.
Dünən inam üçün yaranan
bu gün nifrət doğurur.
Ancaq bu bina
yenə əzəmətlə durur.
Kilsə, yə məbəd olsa da adı,
nə fərqi var.
İndi ona məbəd kimi baxmır adamlar.
Bəlkə bu bina neçə əsr də yaşayacaq belə,
Axı nəsildən-nəslə qalır
sənət əsərləri
öz gözəlliyi,
öz ölməzliyilə...

*Praqa, 1963*





## TƏBRİZİM MƏNİM

**I**

Başı Səhənd çalmalı,
Ətəyi Acıçaylı,
Quzeyi qar ətirli,
Güneyi çoban haraylı,
Yayı firuzə köynəkli,
Qışı bulud örpəkli,
Yazı neysan yağışlı,
Payızı ay yanaqlı,
Ulduz baxışlı,
Sinəsi ayna göllü,
Bulaq zümzüməli,
Dupduru kəhrizim mənim,
Təbrizim mənim.

**II**

Bir zaman qala divarı tək
kərpic-kərpic hörülən,
Sonra küçə-küçə,
Məhəllə-məhəllə bölünən,
Bağmeşə hüsnlü,
Qarağac təravətli,
Əmrəxiz vüqarlı,
Sirxab sənətli,
Ərk əzəmətli,
Şəmsülimarə saraylı,
Gecələri sakit,
Gündüzləri haraylı,
Ay selim, ümmanım,
Dənizim mənim,
Təbrizim mənim.

III

Neçə ölkə, neçə şəhər dolaşan,
Bir ucu hicrətdən o taya aşan,
Tarixə qovuşan,
tozlu, daşlı yolların
görüşdüyü şəhər.
Karvan-karvan
qumrov səsilə oyanıb hər səhər,
Axşamlar aypara işığında yatan.
Sinəsini güllə qabağına verib
tarix yaradan.
Məşrutə niyyətli,
Azadlıq soraqlım,
günəşim, gündüzüm mənim,
Təbrizim mənim,

IV

Babamın babasının yadigarı,
Qara gözlü,
şirin sözlü
gözəllərin,
Qəhrəman oğulların diyarı.
Keçmişi əzəmətli,
bu günü həsrətli,
gələcəyi ümid dolu,
Bir əli yaraqda,
Bir əli torpaqda,
döyüşə-döyüşə yaşayan,
həyatını, nemətini qoruyan,
Şərəfini, şöhrətini qoruyan,
iki gözüm mənim,
Təbrizim mənim.



V

Nə vaxtdır,
Gülüstan bağında olmamışam,.
Ərkin tamaşasına dalmamışam,
Gözlərimin önündədir
Əmirbazarı,
Şişəgər meydanı,
Kəcil qapısı.
Yadımdadır gördüklərimin hamısı.
Gecələr xəyalımda,
gündüzlər fikrimdəsən,
hər dəqiqə, hər an.
Yəqin sən də məni unutmamısan.
Neçə xiyabanında,
neçə meydanında
Hələ də qalır izim mənim,
Təbrizim mənim.

VI

Nağıllar nağılı,
Həqiqətlər həqiqəti,
Ömrümün acısı, şirini,
kədəri, sevinci,
şadlığı, möhnəti.
Göz yaşıma şərik,
gülüşümə ortaq,
Gəncliyimi,
dincliyimi
əmanət qoyduğum,
Hər zaman nəfəsini duyduğum,
arxam, köməyim, dayağım,
dünənim, bu günüm, sabahım,
hamıdan doğmam,

Hamıdan yaxınım,
əzizim mənim,
Təbrizim mənim.

VII

Dünən döyüşdüm səninçin,
cəbhə-cəbhə, səngər-səngər.
Sabah da döyüşərəm,
əmr etsən əgər.
Dözmərəm ürəyi nisgilli,
alnıkölgəli olasan.
Axı sən arxamda bir qalasan.
Sənsiz mən kiməm?
Mən nəyəm?
Nə adım var, nə sanım var.
"Üzüyü qaşıyla tanıyırlar",
Sənsən dünyaya tanıdan məni.
Elimin, dilimin vətəni.
Harayım, səsim, sözüm mənim,
Təbrizim mənim,
Təbrizim mənim.

*1969*

## ÇİNARDAN BİR YARPAQ QOPDU

Sapsarı, zəfəran rənginə çalan
Bir çinar yarpağı qopdu budaqdan.
Titrəyə-titrəyə endi torpağa,
Torpaqdan yaranan döndü torpağa...
Bir yarpaq budaqdan ayrıldı, düşdü,
Bir dünya, bir ömür məna danışdı.
Bir yarpaq kimiyik həyatda biz də,



Bizim bu dünyaya gəlişimizdə
Günəşin, torpağın, suyun hökmü var.
Hərə öz fikrincə bunu anlayar,
Sarı yarpaq da,
Nə qədər budaqdan ayrılmamışdı
Bilmirdi dünyada payızdı, qışdı.
Bilmirdi necə də saralıb rəngi.
Bilmirdi payızın soyuq küləyi
Necə amansızdır, –
Qoparır onu,
Haraya istəsə aparar onu...
Bunları bilmirdi o sarı yarpaq.
Nə qədər doğmaydı o kiçik budaq...
Gəlir xatirinə baharda necə
Bülbül dimdiyi tək balaca, incə
Yaşıl dodağını günəşə açdı,
O, şəfəq də içdi, şəbnəm də içdi.
Torpaq da qəlbindən qan verdi ona,
O, necə sevindi doğulduğuna...
Böyüdü, böyüdü, bilmədi ancaq
Bir gün bu nemətlər sona çatacaq.
Zamanın hökmündən sarsılacaq o,
Bir səhər budaqdan ayrılacaq o.
Titrəyə-titrəyə düşəcək yerə.
Nə qədər yarpağa qarışacaqdır.
Neçə məna çalan bu titrəyişlə
Ömrün günlərini danışacaqdır:

B i r i n c i   m ə n a

Ömür nə gödəkmiş, həyat nə şirin,
Əli bu dünyadan üzülənlərin
Qəlbini titrədən bir məna budur.
Həyatı duymamış saralıb-solur...

### İkinci məna

"Gəldim, zəmanəylə üz-üzə durdum.
Bilmədim nə zaman, niyə doğuldum.
Gedirəm, bilmirəm, vaxtlı, ya vaxtsız.
Birimiz haqlıyıq, birimiz haqsız.
Dünən yaşamaqçün mənə haqq verən,
Yaşamaq haqqımı alır əlimdən..."
Bəlkə titrəməyin mənası budur?
Həyatdan belə də ayrılan olur...

### Üçüncü məna

"Niyə tələsmədim, görəsən niyə?!
Yaşadım – birtəhər ömr edim deyə.
Niyə bilmədim ki, doğulduğum gün
Həyata gəlirəm mən ölmək üçün.
Bir insan ömrünün sahili bəlli:
Bir yanı niskildir, bir yan təsəlli.
Elə bil səyyahdım, gəzdim dünyanı,
Qayıdıb gedirəm,
Təsəllim hanı?
Günlərin əlində talandı ömür,
Mən kimi qınayım, günah məndədir..."
Bu da bir mənadır, bir həqiqətdir,
Etiraf özü də böyük nemətdir...

Bir payız səhəri...
Qopub budaqdan
Bir çinar yarpağı endi torpağa.
Mənsə heyran-heyran durub uzaqdan
Baxırdım titrəyib düşən yarpağa.
Budağı ömürlük tərk edirdi o,
Sanki bu gedişi dərk edirdi o,
Bəlkə də bununçün əsirdi zağ-zağ
O sarı yarpaq...

*1972*



## ANA

Payız tək qucağı bəhərlə dolu,
Yay kimi qəzəbi, sevinci odlu,
Qışın qarından da daim üzü ağ,
Bahar günəşi tək mehriban, parlaq,
Bizim dünyamızın bəzəyi ana.
Bütün göyçəklərin göyçəyi ana.

Babam ömrü boyu hey cənnət gəzdi,
O cənnət sənsən.
Atam ölənədək səadət gəzdi,
Səadət sənsən.
Oğlum gözəllərdən məhəbbət gəzdi,
Məhəbbət sənsən.
Mən də bir zamanlar həqiqət gəzdim
İndi dərk etdim ki, həqiqət sənsən.
Həyatın ən böyük neməti ana.
Bütün insanlığın şöhrəti ana.

*1973*

## KƏDƏRLİ, SEVİNCLİ İLLƏR

Əsrin yarısını yaşamışam,
necəliyini siz deyin, dostlar.
Həyatın dərdini,
kədərini daşımışam.
Sevincim də olub,
Fəqət ötəri...
Füzuli deyib:
Ən böyük vüsal hicrandan doğub,
şadlıq kədərdən.
Mən də
vüsal üçün hicranı yaşadıram,
sevinc üçün kədəri.

İnanın şair sözünə,
yalan olmaz:
Kədərsiz insan olmaz...
Özgədir mənim kədərim,
Sevinci bəlli,
vüsalı bəlli,
nikbin kədər.
Bu günümə,
sabahıma təsəlli,
dəryalardan dərin kədər.
O, mənim azadlıq sorağım,
mübarizə yarağımdır.
Yarısı səngərdə,
yarısı xitabət kürsüsündə
keçən ömrümün
qocalığı yox,
gəncliyi yox,
Bir ömrü illərə necə böləsən ki,
bir gün də dincliyi yox.
Dünənki səngərimdir
bugünkü yazı masam.
Uzunlu-qısalı atəş xəttidir
misralarımın düzümü.
Yazmasam,
bağışlaya bilmərəm özümü.
Mən yazmasam,
cəbhəmizin bir səngəri susar yəqin.
Düşmən ayaq götürər üstünə vətənin.
Məni məndən ayırar,
ömürlük kədərin,
hicranın siqləti.
O zaman itirərəm
bu sonuncu səadəti,
Dəyişər mənasını
ümid dolu,
inam dolu,
məni həyata,



döyüşə səsləyən kədər.
Sonra yüz il yaşa,
kimə gərəkdir,
odun kimi,
bir-birinin üstünə yığılmış illər.
Mən yarım əsr yaşamışam,
bilmirəm az, ya da çoxdur?
Fəqət bunu bilirəm,
kədəri sevinclə,
hicranı vüsalla
əvəz etməyincə
ölməyə haqqım yoxdur.

*1971*

## QİBTƏ

Heç kəsə paxıllıq etməmişəm,
İstər cavan olsun, istər qoca.
Həsəd də aparmadım kimsəyə
ömrüm boyunca.
Bilənlər bilir,
bu belədir.
Belə də olacaq...
Atalar demiş:
"Südlə gələn sümüklə gedər".
Yüz il də yaşasam yenə
zidd gedə bilməyəcəm təbiətimə,
bu hisslərim qalacaq...
Ancaq qibtə etmişəm
iki şairin şerinə, sözünə,
fikrinə, iradəsinə,
taleyinin təntənəsinə...
Qibtə etmişəm,
köksünə iki cahan sığan,
özü bu cahana sığmayan

şair babamız Nəsimiyə.
Yer mənəm, göy mənəm, ümman də mənəm,
yaradan da mənəm, insan da mənəm,
Mən həqdən zərrəyəm, həqq özü məndə,
Heç zaman ölməyir həqq yer üzündə
deyə-deyə dar ağacına – ölməzliyə gedən
məğrur babamız Nəsimiyə
qibtə etmişəm.
Qibtə etmişəm.
Macar oğlu Şandor Petefiyə də.
Şerlərində azadlıq həsrəti,
qəlbində vətən məhəbbəti.
sözlərin kəsərilə
məclis-məclis döyüşdü
vətən düşmənlərilə.
bir gün də
sakit Dunaya düşdü
zağlı qılıncının şöləsi.
Səngərdən ucaldı
dünən xitabət kürsüsündən
eşidilən səsi...
Şair qəhrəman oldu,
vuruşdu vətən yolunda,
azadlıq yolunda.
Neçə-neçə vətən oğlunun
ömrü birləşdi onda.
Vuruşa-vuruşa qovuşdu
Həyatın zirvəsinə.
Şerlə başlayan ömür
qılınc meydanında sona yetdi.
İndi mən qibtə edirəm
Petefeyin taleyinə, iradəsinə.
Axı hamıya qismət olmur,
yaza-yaza yaşaya,
döyüşə-döyüşə yaşaya,
Ölə, yaşaya.
Şeri dillərdə,
şöhrəti ellərdə,



adı nəsillərdə yadigar qala.
Axı hamıya qismət olmur,
ömrü nə səksən, nə yüz ola.
Ən çoxu otuz ola.
Ancaq ömür ola,
ÖMÜR...

*1971*

## O ŞEİRİ KİM YAZACAQ

***Mənə nəğmə de kürül-kürül...***

***M.Gülgün***

Sən nəğmə istədin, gülüm,
dəniz tək coşqun olsun.
Fəqət dənizdən mehriban.
Qağayılar dalğalarda uyuyan kimi
sən də şerlə yatıb,
şerlə oyanasan.
Sözlər,
misralar düzülsün boynuna
mirvari dənəsi kimi.
Yox,
sən dedin:
dünyada elə daş varmı
qiymətli ola
sözün mənası kimi...
"Susuz, çörəksiz yaşayaram
fəqət,
nəğməsiz qala bilmərəm
bir an da..."
Mən indi bildim ki,
insan necə də yüksəlirmiş
sözün,

sənətin mənasını duyanda.
Sən nəğmə istədin, gülüm,
Dərdini, sevincini danışa bilə .
Bəzən bulud zümzüməli olub,
bəzən dağ seliylə yarışa bilə.
Axşam,
Həzin səsiylə yuxuya gedəsən,
Səhər,
səni ayağa qaldıra harayı.
Sən nəğmə istədin, gülüm,
ömrünü qısalda bilməyə
ayların, illərin sayı...
Sən nəğmə istədin,
"varını verən utanmaz" demişlər.
Ancaq,
mən indi deyə bilmirəm
belə bir şeri
kim,
nə zaman
yazacaq...

*1965*

## MƏNİM BİR NƏNƏM VARDI...

Bu gözəl dünyada
mənim bir gözəl nənəm vardı.
O, geyimi,
sakit yerişi,
ağır tərpənişi,
titrək əllərinin mehriban nəvazişi ilə
başqa nənələrə oxşardı.
Nənəm hər gün obaşdan durar,
əvvəlcə namazını qılar,
sonra düz bir tabaq xəmir yoğurar,
təndiri qalardı.



Dan söküləndə
Karvanqıranı yola salardı,
sonra da astadan deyərdi:
– Durun, ay uşaqlar.
Xəmir əldən getdi.
Qalxardı yataqdan gəlinlər, qızlar...
Mən bilməzdim o zaman
dünyada nə var.
Səhər gözümü açıb
otağın baş ucunda
cərgə-cərgə düzülmüş
üstü naxışlı fətirləri görərdim.
Bir də
təndirin qırağında qaynayan çaydanı.
Mən belə görmüşdüm dünyanı...
Bir gün
evimizdə hamıdan qabaq duran,
fətir bişirib çay qoyan,
bizi işə, zəhmətə,
ruziyə, nemətə
səsləyən nənəm,
evimizdə hamıdan qabaq
getdi bu dünyadan...
Nənəm öldü...
Özü demiş
biz onu "axirət evi"nə yola saldıq,
hamımız nənəsiz qaldıq.
Atam şəhərdən zəngli bir saat aldı,
bizi vaxtında oyatsın.
Gəlinlər, qızlar hərəsən yatdılar,
xəmir vaxtında gəlsin,
təndir vaxtında çatsın.
Nəvələr də yata bilmədilər doyunca.
Sübh olunca
qaldırdılar bizi,
– Ey, tənbəllər, qalxın yuxudan.
Durun, durun.

Su gətirin,
çaydanı doldurun...
Hamı deyirdi bir-birinə.
Ancaq
nənənin yeri görünürdü yenə.
Günəş qalxır,
atam öküzləri qoşurdu,
hələ nə çay qaynayır,
nə də fətir bişirdi...
Elə bil nənəmlə getmişdi
evimizin nizamı, qaydası,
Nə gəlinlərin harayı,
nə də saatın sədası,
sakit yerişli,
ağır tərpənişli
nənəmin yerini vermirdi.
Niyə?
Heç kəs bu sirri bilmirdi.
Hər səhər oyananda
yadıma düşürdü,
otağın baş ucunda
çin-çin yığılmış
üstü *naxışlı fətirlər*.
Bir də
təndirin qırağında qaynayan çaydan.
Sonra...
Eh.. nə deyim...
Bir zaman...
Bəli, bir zaman
Bu gözəl dünyada
mənim də bir gözəl nənəm vardı,
Evimizdə o hamıdan qabaq oyanardı...

*1968*



* * *

Qartalı qoynuna elə aldı göl,
Sanki bir ox düşüb suları dəldi.
Onun xəyalında elə qaldı göl,
Sandı ki, buludlu göylərdə öldü.

*1975*

## YAĞIŞ NEMƏTDİR

Dünən şıdırğı yağış yağırdı,
nənəm demiş:
"Tut ucundan göyə çıx..."
Babam deyərdi:
"Yağış nemətdir..."
Ancaq biz
paltarlarımızdan qorxub
o nemətdən qaçdıq.
Qaçdıq lap evə qədər.
Qəribə görünürdü
yağışdan qaçıb qurtara bilməyənlər...
Pəncərə önündə dayanıb xeyli,
baxdım buludların toqquşmasına.
Dağ başına ildırımın düşməsinə.
Baxdım bağçadakı
Hələ açılmamış
qızılgül qönçəsinə,
Necə də dözürdü
damcıların zərbəsinə.
O gün yağış yağdı
lap səhərə qədər.
Dan söküləndə
elə bil göy üzündən
buludları da sildilər.
Açıldı göyün aynası tamam.

Günəş də doğdu
qıpqırmızı, lalə tək.
Yadıma qızılgülün qönçəsi düşdü,
baxdım,
necə də açılmışdı
yarpaq-yarpaq,
ləçək-ləçək.
Günəşə baxıb
şehli dodaqlarıyla
necə də gülürdü.
Arabir ləçəklərindən
Torpağa ətirli damcılar tökülürdü.
Baxırdım heyran-heyran.
Səma açıq,
üfüq aydın,
torpaq ətir qoxulu.
Elə bil yuyulmuşdu hər yan.
Baxırdım heyran-heyran.
Necə də gözəl idi təbiət.
Babam qəribə demiş:
Yağış nemətdir,
nemət.

*1968*

## QAYA ÜSTÜNDƏ ÇİNAR

Qaya üstündə tək çinar...
Meşədə min-min.
Meşədən keçsəm də
gözlərim qayada qalmış mənim.
Görəsən, orada necə bitmiş o?
Bəlkə bir əkən olub?
Görəsən, nə zamandan bəri
elə vüqarla durub?
Görəsən, neçə nəfəri yoldan edib,



Neçə kitabda adı, nişanı var?
Görəsən, necə qalır tənha?
Axı nə bir həmdəmi,
nə də hayanı var.
Görəsən, meşədə bitsəydi nə olardı?
Adi çinarlardan biri.
Nə əqli heyran edərdi,
nə də nəzəri.
Nağıllardakı kimi
susuz bir səhrada bitəydi bəlkə?
O zaman,
yorğun bir dəvə karvanı,
çinar altında bulaq,
bir də sərinlik – kölgə...
Necə də qəribə olardı.
Yox!
Nəyə lazım bu sadalamalar!
Bütün bu təkrarlardan qaçaraq yeqin
son nöqtəsini fəth etmiş zirvəliyin.
Adicə doğulsa da,
adicə yaşamayıb o.
Çinar adını da
adicə daşımayıb o.
Nə gəlişindən xəbər tutan,
nə də gedişini bilən ola.
Birinin kölgəsinə sığına,
o birinin günəşini əlindən ala.
Yox, belə olmadı o.
Çürüyə-çürüyə yaşamaqçün
həyata gəlmədi o.
Nə zaman ki doğuldu
qayaya vüqar verdi,
zirvəyə əzəmət.
Görünüşü də nemət oldu,
həyatı da nemət.
Ruzgara sinə gərib zaman-zaman
nə əyildi,
nə də qurudu.
Durdu,

vüqarla durdu!
Kim bilir
bir gün vüqarla da sınacaq yəqin.
O zaman buradan keçənlərin
yenə nəzərləri çevrilib
qayaya sarı,
deyəcəklər:
– Bu qaya başında bir çinar vardı,
neçə illər idi vüqarla yaşardı...

*Krım, 1968*

## İMTAHAN

*Oğlum Araza*

Bilirəm nə üçün yata bilmirsən,
Sabah imtahana gedirsən, oğlum.
Min məna yaşadan həyatımızda
Axı nə bilirsən hələ sən, oğlum.

Suyun buzdan sərin, çörəyin isti,
Qəlbindən nə keçib, qismətin olub.
Fəqət düşməmisən isti-soyuğa,
Nə qayğı, nə də ki möhnətin olub.

Bilirsən, qayğına atan qalıbdır,
Anan da başına dolanıb hər gün.
Məktəbə getmisən müəllimlərin
Nələr etməmişdir, oğul, səninçün?

Artıq o illərin arxada qalmış,
Üz-üzə durmusan öz gəncliyinlə.
Məktəb ömrümüzün uşaqlığıdır,
Ordan yüksəlirik biz pillə-pillə.

İndi ali məktəb,
Təzə bir aləm.
Bu təzə həyatın öz qanunu var.



Onun qapısından hey zaman-zaman
Ümidlə girmişdir qızlar, oğlanlar.
Qızılı məhəyə çəkəndə zərgər,
Bilir əyarını, xasiyyətini.
İmtahan olacaq, müəllimlərin
Qızıl tək məhəyə çəkəcək səni.

Şüurün, iradən, fikrin, dözümün,
Çıxacaq aşkara danışdıqca sən.
Müəllimin deyil, oğul, sən özün
Qiymət alacaqsan öz sözlərindən.

Söz var, sən yerində söyləsən onu,
Səni zirvələrə qaldıracaqdır.
Söz də var deməsən yaxşıdır, oğlum,
Yersiz söz söyləmək, axı nahaqdır.

Sabah verəcəyin imtahan nədir,
Fikir imtahanı, söz imtahanı.
Fəqət unutma ki, öndədir hələ
Həyatın, zamanın öz imtahanı.

Bilirəm, dost çoxdur, tanıyan çoxdur,
Büdrəsən, qolundan tutan olacaq.
Fəqət istəyirəm sən bu həyatda
Özünə dayanıb qalxasan ancaq.

Bu ilk imtahandır, bu ilk pillədir,
Qoy möhkəm dayansın ayağın sənin.
Bir gün dara düşsən, çətinə düşsən
Vətən özü olar dayağın sənin.

Yuxusuz gecələr yormasın səni,
Demə ki, günlərim çox çətin keçir.
Həyatın mənası, ömrün mənası
Bu yuxusuz keçən gecələrdədir.

Sabah imtahana gedirsən, oğlum,
Bu həyat yoludur, sənə yaxşı yol.
Atan bu gün vardır, atan sabah yox,
Çalış bu torpağın, elin oğlu ol.

*1971*

## BABAMIN ULDUZLARI

Babam deyərdi ki, göyün üzündə
Hər kəsin özünün bir ulduzu var.
Kiminin ulduzu bəxti tək nursuz,
Kiminin ulduzu günəş tək yanar.
Əlini gözünün üstünə qoyub,
Parlaq ulduzları sayardı bir-bir.
Sonra barmağını tuşlayıb göyə,
Deyərdi: – o ulduz, bala, sənindir.
Bütün ulduzlardan işıqlı, böyük
Sənin ulduzundur, yadında saxla.
Başının üstündə yanacaq sənin,
İstəsən hər axşam özün də yoxla.
Bostanda qalardıq yayda babamla.
Axşamlar hey çubuq çəkərdi qoca.
Mən də uzanardım öz yatağımda,
Baxardım göylərə yuxu tutunca.
Yuxuda görərdim bütün çayları,
Su basıb dupduru, göz yaşı kimi.
Bostanda nə varsa, tağ da, bəhər də
Qalıb su altında çay daşı kimi.
Mənim ulduzum da düşüb sulara.
Onu görən kimi yata bilmirəm.
Mən də dizə qədər girmişəm suya,
Qaçıram ardınca tuta bilmirəm.
Birdən balıq olur, qızıl bir balıq,
Üzür öz qızılı şəfəqlərində.
Bəzən dalğalarda itir bir anlıq,
Qızıl daşlar qalır onun yerində...
Səhər oyanardım dan söküləndə,
Baxardım çaylağa, haman çaylaqdır.
Qızıl şəfəqlər var göyün üzündə.
Mənim ulduzumsa yenə də yoxdur.
Görərdim tağları çevirir günə,
Babam çubuğunu tüstülədərək.
– Bu gün də yuxuya qalmısan yenə,



Gəl, oğul, gün qızır, gəl köməkləşək.
İşlərdik bostanda şər qarışınca,
Komaya dönəndə çöl qaralardı.
Oturub hey çubuq çəkərdi qoca,
Mənim də ulduzum yanar, yanardı...
İndi illər keçib,
        hərdən o günlər
Gəlib gözlərimdə canlanır bir də.
O çaylaq, o koma, o bostan, babam,
Bir də ulduzuna baxıb göylərdə
Sonra da yuxuya gedən bir uşaq...
Deyirəm, o illər keçib getdilər,
Sanki gördüklərim bir nağıl imiş,
Nağıllı dünyaya köçüb getdilər.
Fəqət o günlərdən bu vaxta qalan
Neçə xatirə var, neçə yadigar.
Bir də o ulduzdur, bütün gecəni
Başımın üstündə alışıb yanar...

*1976*

## "ƏSƏBLƏRİNİ QORU"

Bəzən mənə deyirlər
Asta danış, asta din.
Bir əqrəb tək doğrayır
Ömrünü əsəblərin.
Əsəbləşmə hər şeyə
Yaxşı olsun, pis olsun.
Lap uzaqdan ötüb keç,
Nə olursa qoy olsun,
Ancaq o sənsiz olsun.
Ömür nə qədərdir ki,
Uzaqbaşı altmış il.
Laqeyd ol, bu dünyada,
Əsəb hüceyrələri
Bərpa olunan deyil.

Düşünürəm, görəsən,
Belə yaşamaq olar?
Hər şeyə laqeyd olan
Ömrün nə mənası var!
Biri haqqın adına
Bağırıb böhtan deyir,
Laqeyd olub danışma.
Biri gözün önündə
Dura bilmir, büdrəyir,
Sən qolundan yapışma.
Biri nahaq danışır,
Sən dillənmə, qulaq as.
İki nəfər dalaşır,
Qulağına pambıq bas.
Ya da laqeyd ötüb keç,
Dayanma da, durma da.
Heç özün də bilmədən
Şər iş olar ortada.
Ancaq birce şeyə sən
Laqeyd olma, yaxşı bil,
Əsəb hüceyrələri
Bərpa olunan deyil.
Deyirəm, bəziləri
Gör nəyi amal bilir,
Gör nə haqda düşünür,
Gör necə də kiçilir.
Bir insan ki ömründə
Ağlayıb gülməyəcək,
Bir əsəb ki kədərdən,
Qəmdən gərilməyəcək,
Bir insan ki dünyaya
Bu gəlib-getməsindən
Məna aramayacaq,
Bir insan ki xeyirə,
Şərə yaramayacaq,
Bir insan ki həyatda
Daş üstə daş qoymaya,
Məramının yolunda
Səngərə baş qoymaya,
Deyin, nəyə gərəkdir?



Yaşayırmı, ölübmü,
Kimsə bilməyəcəkdir!
Laqeyd ola bilmərik
Heç vaxt bu yer üzündə.
Qeydinə qalmalıyıq
Hələ nəslimizin də.
Torpağa, insanlara
Biz gərək olmalıyıq.
Neçə-neçə nəsilə
Bir örnək olmalıyıq.
Qoy bizi yaddaşından
Silməsin zaman-zaman
Sevdiyimiz bu dünya,
Bü gün biz olanda da,
Sabah olmayanda da.
Necə laqeyd olasan,
Ömrə, günə, həyata
Ümid dolu arzuya?
Laqeyd ola bilmərik,
Əsəb hüceyrələri
Bərpa ola, olmaya...

*1975*

## DAĞ SELİ VƏ DAŞLAR...

Qışın soyuq nəfəsi buludda qara döndü,
Gül-çiçəkdən ayrılıb dağlar çənə büründü.
Yolları, keçidləri örtdü tala-tala qar,
Tamam görünməz oldu dağa qalxan cığırlar.
Şaxta kəsdi torpağı,
Tarlalardan kəsildi insanların ayağı,
Kimsəsiz qaldı çöllər.
Sanki xeyli kiçildi, xeyli daraldı çöllər.
Günlər dəvə karvanı,
Ötdükcə qatar-qatar
Əlində qızıl günəş üfüqdən doğan bahar
Haray çəkdi bir səhər.

Zirvələri bürüdü alov rəngli şəfəqlər.
Odla buz görüşəndə
Zərrələr birləşəndə,
Damcı-damcı töküldü dağların sevinc yaşı.
Qışla yazın savaşı
Buludlarda şimşəyə,
Yerdə irmağa döndü.
Ulduz görmüş ilan tək
Qış dağın zirvəsindən dərələrə süründü.
Dağ seli yarğan boyu axıb haray qopardı,
Qayadan ayrı düşmüş daşları da apardı,
Yamaclarda əks etdi dərələrin fəryadı,
Düzənlikdə qırıldı dağ selinin inadı.
Baş aparan dalğalar töyşüdü yavaş-yavaş.
Ləngər vurub dayandı neçə-neçə nəhəng daş.
Kiçik, yumru daşlarsa baş vuraraq hər yerə,
Dalğalara səs verib haray salıb düzlərə
Yuvarlanıb axırda bataqlığa düşdülər.
Yüksəklikdən ayrılıb palçığa qovuşdular.
Hopub batdıqca gilə,
Elə bil dərk etdilər
O nəhəng daşlar niyə çəkildilər sahilə.
Gözlərinin önündə gəlib dayandı dağlar,
Orda hər bir qayanın, hər daşın öz adı var.
Burdasa hər şey bitib, nə ad qaldı, nə nişan.
(Gör nə zaman ayılır öz kökündən ayrılan.)
Nə yaxşı ki, sahilə yan aldı yoldaşları.
Nəhəng cığır daşları.
Nə yaxşı ki, onlar var.
Əgər daşlar hamısı yuvarlaq olsaydılar
Cəlalı pozulardı yamacın da, düzün də.
Bəlkə nəsli qalmazdı daşların yer üzündə...

*1968*





## ANA DİLİ

Bir gün əsir düşmüş bir qəhrəmanı
Sorğuya, suala çəkəndə cəllad,
"Sizin əlinizdə ölmərəm! – dedi, –
Məni zaman-zaman yaşadar həyat".
Dedilər: – Gözünü oyarıq sənin,
Görə bilməzsən.
Dedi: – Yaşaram!
Dedilər: – Qolunu qırarıq sənin
Silahın, kəsərin düşər əlindən.
Dedi: – Yaşaram!
Dedilər: – Qıçına kündə vurarıq,
Gəzə bilməzsən.
Başında elə bir tonqal qalarıq
Dözə bilməzsən.
Dedi: – Yaşaram!
Dedilər: – Nəyin var apararıq biz,
Bir də keçmişinə dönə bilməzsən.
Dedi: – Yaşaram!
Dedilər: – Dilini qopararıq biz,
Danışa bilməzsən, dinə bilməzsən.
Susdu qəhrəman,
Nə yaşaram dedi, nə ölləm dedi.
Söylədi: – Nə bilir elə, ey cəllad.
Divan sənindir,
Dövran sənindir...

*1970*

## MƏNİ

Əlvan çiçəkləri ətir qoxulu,
Yaşıl çəmənləri səhər yuxulu.
Kimə məhəbbətli, kimə qorxulu.
Ay çöllər, anırsız uzaqdan məni?

Mən ki gəncliyimi sizə vermişəm,
O dağa, dərəyə, düzə vermişəm.
Elə bil mən sizi təzə görmüşəm,
Sizsə görməmisiz nə vaxtdan məni.

Saçları ağarmış bir nəğməkaram,
Neçə sevincim var, nə qədər yaram.
Bir axar su kimi olmuram aram,
Soruşun hər axan bulaqdan məni.

Mən dizi üstündə sürünməmişəm,
Özgə ətəyinə bürünməmişəm.
Şahidim şerdir, bir də ki qələm,
Bir də xəbər alın yaraqdan məni.

Sən bu zəmanənin işinə bax bir,
Dünən ayaq öpən bu gün vəkildir.
Nə isti görübdür, nə soyuq bilir,
İstəyir keçirə sınaqdan məni.

İndi həyatımın payız çağıdır,
Ömrün günlərini ruzgar dağıdır.
Bir fikir qəlbimi sıxır, ağrıdır –
Külək qoparmasın budaqdan məni.

Dünyada bir hörmət qazanmışam mən,
Kaş onu almasın həyat əlimdən.
Bir də unutmasın o el, o vətən,
Gəzib dolandığım o torpaq məni.

*1963*



## KÖRPÜ

Dünyada körpü çoxdur,
Adlısı, adsızı var.
Dəmirdən asma körpü,
Daşdan hörülmə körpü.
Sadəcə taxtadan da
Körpü salmış adamlar.
Sahilləri, dağları
Körpülər birləşdirir,
İnsan yolda qalmasın.
Asfalt köynəkli yollar,
Daşlı, kəsəkli yollar.
Nakam bir ömür kimi
Yarıda qırılmasın.
Körpü əsrlər boyu
Həsrət qalan dağların,
Dərələrin üstündə
Birləşən əlləridir.
Körpü dəli çayların
Qılıncıyla bölünmüş
Bir torpağın qəlbinin
Qovuşan telləridir.
Neçə körpü görmüşəm
Mən də neçə ölkədə.
Ekvatordan uzundur
Keçdiyim körpülərin
Uzunluğu bəlkə də.
Fəqət bir körpü üstə
Dayanmışam mən bu gün,
On addımdır uzunu
Bu dəmirli körpünün.
Nə gələn var, nə gedən,
Üstündə lal baxışlar.
Torpağında göylərin
Göz yaşından naxışlar.
Bir ayağı cənubda,

O biri şimaldadır.
Bu qərib görkəmiylə
O özü də niskilli,
Özü də xəyaldadır.
Yəqin düşünür, "görən
Məni niyə saldılar...
Əgər dəyməyəcəkdi
Bir də insan ayağı.
Niyə mənim sinəmə
Çəkildi həsrət dağı.
Niyə "körpü" sözünün
Minillik şöhrətinə
Belə ləkə vuruldu.
Burda bir divar deyil,
Niyə körpü quruldu..."
Bu körpünün taleyi
Elə bil ki sındırdı
Qolumu, qanadımı.
Mən geriyə qayıtdım
Gəldiyim beş addımı.
Ümid dolu qəlbimi
Yenidən kədər aldı.
O körpünün üstündə
Yolum yarıda qaldı.

*1964*

## QARADAĞ

Zirvəsindən bulud keçər qatarla,
Sal daşlardan qartal uçar vüqarla.
Yarğanlarda tala-tala çən durar,
Silovlarda gün dəyməmiş təzə qar.
Qayaları təkələrin, maralların yatağı,
Ətəyində bağrı yarıq lalələrin ocağı.
Ayağında xan Arazın dalğaları dillənər,



Çaylağında məcnun söyüd, qələmələr yellənər.
Torpağında əsrlərin dağ çəkdiyi şırımlar,
Gah qızarar, gah qaralar, hər şırımda bir çalar.
Bulud gələr, gurşad düşər, sellər, sular çağlayar,
Yeddi rəngli göyqurşağı ona kəmər bağlayar.
Yağış kəsər, bulud keçər,
Qayalardan qartal uçar,
Daşlar qopub tökülərlər gur çaya,
Qaradağsa sakit-sakit durub baxar dünyaya.
Nə zamandır belə durur dar ayaqda, tufanda,
Duruşundan bəllidir ki, dağ dözümü var onda.

*1973*

## GİZLİ-GİZLİ

*Şair Səhəndə*

Vüsal həsrətilə alışdım, yandım
Axdı gözlərimdən sel gizli-gizli.
Sən gördün, gözlərin doldu, qardaşım,
Qoy əğyar görməsin, sil gizli-gizli.

Zərrəyəm, ümmandan xəbər al məni,
O eldən, məkandan xəbər al məni.
Səhənd, Savalandan xəbər al məni,
Pünhan dərdlərimi bil gizli-gizli.

Yaşımın üstünə gəldikcə yaşlar,
Düşür xatirimə dostlar, tanışlar.
Yəqin ki, məni də unutmamışlar
Hərdən yada salır el gizli-gizli.

Sinəmin üstündə qövr edir yara,
Duymamaq bir bəla, duymaq bir bəla.
Mənim həsrətimi desin dostlara
Ürək gizli-gizli, dil gizli-gizli.

İnsan da düşərmiş özündən uzaq,
Mən səndən uzağam, sən məndən uzaq.
Günlərim keçdikcə vətəndən uzaq
Taladı ömrümü il gizli-gizli.

Babamız Qorqudun çaldın sazını,
Söylədin ürəkdə qalan sözünü.
Dedim həmişəlik görüm üzünü,
Demədim görüşə gəl gizli-gizli.

*1975*

## PƏNCƏRƏ ÖNÜNDƏ ÇİNAR

Pəncərəm önündə tək çinar,
Yamyaşıl yarpaqları
Asta-asta pıçıldaşır
Gecəyarı...
Otaq tək,
Mən tək.
Göy üzündə ulduzlar
Çiçək-çiçək...
Yadıma Təbriz düşür,
"Novbahar" mehmanxanası.
Otaq tək,
Mən tək.
Yarpaqları ləçək-ləçək
Bir qələmə boylanardı
Pəncərədən.
Təbriz qızları kimi
Utana-utana,
Kövrək-kövrək...
Səhərə kimi danışardı
Yarpaqlar.
Qulaq asardım
Xəyal aləmində yol gedə-gedə.



Deyərdim:
Cəbhədən qayıdanda
Bura gələcəyəm bir də.
Oturub qulaq asacağam
Neçə gecə,
Qələmənin yarpaq-yarpaq söhbətinə.
Lap ürəyimcə...
Sonra da deyecəyəm
İndi də sən
Qulaq as mənə,
Danışım fədai dostlarımın
Cəbhə hekayətini...
Yadıma gəlir,
O zaman
Xəyaldan ayırdı məni
Çiyni tüfəngli,
Beli qatarlı,
Çarıqlı,
Patavalı,
Haylı-haraylı
Dostların otağa dolması.
Elə bil yarıda qırıldı
Bir ana laylası.
Elə bil şüşələrə toxunub
Töküldü
Yarpaqların o həzin səsi.
Elə bil pəncərəyə həkk olmuşdu.
Qələmənin kədərli kölgəsi.
Son dəfə baxdım
Arxamca əl edən
Yarpaqların titrəməsinə.
Hər şey qəribə göründü mənə...
Çıxdım
Təbrizdə,
"Novbahar" mehmanxanasındakı
O tək otaqdan...
İllər ötdü,

Bir daha qayıda bilmədim...
Qəlbimdə ömrün
Neçə-neçə
Acılı-şirinli
Xatirələri qalır o çağdan...
Birdən naxış salır pəncərəmə
Təbiətin göz yaşı –
Yağış damcılarının düzümü.
Çinarın yarpaqlarından
Zorla çəkirəm gözümü.
Düşünürəm...
İndi Təbrizdə
"Novbahar" mehmanxanasındakı
O tək otağın önündə
Böyüyüb, yaşa dolmuş qələmə
Yoqin hələ də,
Mənim hekayətimi
Yarpaq-yarpaq danışır
Bütün aləmə:
– Biri var idi,
Biri yox idi,
Bir zaman bu tək otaqda
Bir fədai şair qalardı...
Biri yox idi,
Biri var idi,
Bir zaman bu tək otaqda
Bir fədai şairin
Bir dünya arzuları
Çiçəkləyərdi,
Yarpaqlayardı...

*1976*



## MƏNİM ŞEİR KİTABIM

İlk şerimi yazanda
Elə bildim dünyanın
Bəxtiyarı olmuşam.
İlk kitabım çıxanda
Elə bildim özüm də
Təzədən doğulmuşam.
Bir gün də mağazada
Görəndə kitabımı,
Coşub-daşdı sevincim.
İndi o ilk şer də,
İndi o ilk kitab da,
Tarix olmuş mənimçin.
Hərdən xəyal içində
O günlər düşür yada.
Deyirəm, Ərdəbildə,
Kitab mağazasında
Şer kitabım qaldı.
Cəbhə dostlarım kimi
Heç bilmirəm onun da
Taleyi necə oldu.
Şeyx Səfi küçəsində,
Camakı arxasında*
Neçə-neçə kitabla
Qoyulmuşdu yanaşı.
Nə meşindən cildi,
Nə də zərdən naxışı.
Övladına baş çəkən
Narahat atalar tək,
Gəlib baxırdım gündə.
Günəşdən cadar-cadar,
Susuz dodaqlar kimi
Bozarmış cildində
İki söz yazılmışdı:

---

**Camak* – Kitab mağazasında, içərisinə kitab düzülən şüşə çərçivə.

"Şeirlər", bir də adım.
Ancaq sətirlərinə
Hopmuşdu ürək yanğım,
Arzum, harayım, odum...
Ayrılıq yaman olur,
Bir gün ayrıldıq biz də.
Son görüş zamanında
Donmuşduq ikimiz də.
Mən getdim... getməliydim...
Fəqət o qaldı yenə
Camakı arxasında.
Adım şölə çəkərək
Yanırdı yaxasında.
Sədinin "Gülüstan"ı,
Hafizin "Divan"ı yla.
Orda qaldı yan-yana.
Məni əbədiyyətə
Qovuşduracağına
İnamım olmasa da,
Ümidim ona qaldı.
O vətən torpağında
Məndən nişana qaldı...
Bunu bilirəm ancaq,
Haman əl boyda kitab
Camakının ardında
Həmişə qalmayacaq.
Ya qorxulu düşmən tək
Polislər elan edib
Xətərli olduğunu,
Qala qabağındakı
Dardan asacaq onu,
Ya da ki, Ərdəbilin
Ucqar küçələrində
Hər gün qonaq olacaq
Bir dostumun evində,
Müəllifin yerində.
Şeyx Səfi küçəsində,



Kitab mağazasında
Qaldı şer kitabım.
Mənim fikir dünyamda
O ilkin inqilabım.
O kitabda hər misra,
Hər söz ürək qanımdı.
Düşmənlərə göz dağı,
Dostlara nişanımdı...

*1976*

## DÜNYADA BİR ŞƏHƏR VAR...

Dünyada bir şəhər var,
Mənimçin yer üzündə
Şəhərlərin qəşəngi.
Ağ badam gülləridir
Bağlarının çələngi.
Kölgəli küçələrdən,
Arxlardan sular axar.
Çaxçaxlı qapılardan
Sürməli qızlar baxar.
Suvaqlı evlərində
Hər sözü, hər söhbəti
Hikmət dolu qocalar.
Başı üstə Səhəndin
Ağ çalmalı zirvəsi
Vüqar ilə ucalar...
Bir zaman o şəhərdə
Ömür sürdük, gün gördük
Dostlar ilə bir yerdə.
İndi neçə illərdir
Düşməz ora güzarım.
Fəqət, yenə o yerdə
Yaşar ürək dostlarım.
Hamısı da ixtiyar.

Dünənin çılğınları
Gör necə qocaldılar...
Yaşar bir də ümidim,
Məhəbbətim, ilqarım,
Alovlu şerlərim,
Qanadlı duyğularım...
İndi neçə illərdir,
Gözümün önündədir
O küçələr, meydanlar.
Örtülü bazardakı
Cərgə-cərgə dükanlar.
Bir də ki, o şəhərin
Dönə-dönə gəzdiyim,
Neçə dəfə azdığım,
Hər dalanı, döngəsi.
Yığın-yığın
Acılı-şirinli xatirəsi...
Heç nəyi unutmadım,
Hələ yaddaşımdadır.
Saçlarım ağarsa da,
O gənclik illərinin
Sevdası başımdadır...

*1976*

## ŞƏKLİNƏ BAXIRAM

Şəklin durur önümdə...
Şüşənin arxasından
Sakit-sakit baxırsan.
Bu sənmisən doğrudan?
Yox, yox, bu sən deyilsən!
Danışsana, dinsənə,
Bir gülüb sevinsənə!
Niyə donub qalmısan?
Yox, inana bilmirəm



Sən belə hərəkətsiz,
Belə dinməz olmusan.
Sinəni qabartmayır.
Nədən vətən havalı
Qəlbinin döyüntüsü?
Dalğasız dəniz kimi
Necə dayaz görünür
Gözlərinin güzgüsü.
Dodaqların incini
Gizlədən sədəf kimi
Gör necə də lal durur.
Yox, sən deyilsən belə,
Önümdə xəyal durur...
Nəfəsin alışmırsa
Vətən məhəbbətindən,
Dodağın titrəmirsə
Hicranın siqlətindən,
Onda bu sən deyilsən...
*Hanı, hanı o rəssam?!*
Niyə ona demədin,
Mən ömrümdə bir gün də
Belə lal olmamışam.
Niyə ona demədin,
Mən qartal doğulmuşam,
Qıy vurmaya bilmərəm.
Dilsiz göyərçin olub
Bu qəfəsə girmərəm.
Hanı, hanı o rəssam?
Niyə demədin ona:
– Sinəmdə vulkan yatır.
Səsim günəşə çatır.
Bir gün şer deməsəm,
Ağlamasam, gülməsəm,
Bil məni qəhər boğar.
Fikrimin ümmanında
Məni dalğalar boğar,
Hətta ləpələr boğar...

Önümdə şəklin durur,
Nə danışır, nə dinir.
Bu dilsiz əksin sənin
Gələcək illərindir.
Özün danış, özün din.
Danış ki, otağımız
Sükutda boğulmasın.
Danış, oxu, şer de,
Ömrümün bircə günü
Qoy şersiz olmasın,
Bir də sənsiz olmasın...

*1976*

## ŞEYX SƏFİ KÜÇƏSİ

Ərdəbildə bir küçə var,
Şeyx Səfi küçəsi.
Şəhər bina olandan,
dəyişib dönə-dönə
xiyabanların,
məhəllələrin neçəsi.
Fəqət neçə əsrdir
bu küçə qalır
öz adı, nişanı ilə.
Qala qabağını birləşdirir,
Alaqapı meydanı ilə.
Nə dövlət qərar çıxarıb,
nə də Şeyx Səfi saldırıb öz adına.
İndi bu küçənin tarixi
gəlmir kimsənin yadına.
Hamı "Şeyx Səfi küçəsi" deyir,
cavanlar vüqarla,
qocalar bellərini əyib yeriyir.
Bir zaman tozlu-torpaqlı,
sonralar daş köynəkli küçədən.



Neçə küçəyə bənzər,
neçəsinə bənzəməz
onun ömür yolu.
İllər görüb kədər dolu,
günlər görüb sevinc dolu.
Qızılbaş igidləri
şeypur sədaları altında
bu küçədən keçib.
Gəlinlərin hənalı əllərindən
döyüşçülər şərbət içib.
Neçə çapar gedib
neçə məmləkətə hər gün.
Neçə çadır qurulub
neçə hökmdarın
xəracını gətirmiş
elçilər üçün.
Neçə ana gəlib
oğlunu orduya vermək üçün.
Neçə mürid gəlib,
neçə müdərris
Şeyxi görmək üçün.
Bu küçənin başından
sonra illər keçib.
Sevinc dolu günləri
xatirəyə çevrilib
tarixə köçüb.
Kədərini yaşayıb bu küçə
təzə əsrin, zamanın.
Körpüsünə çevrilib
Qala qabağındakı dar ağacları ilə
zindanın.
Sonra da neçə gecə
Şeyx Səfi küçəsindən
qara maşınlar gedib
Ərdəbil – Tehran yolu,
Tehran – London yolu.
Nadir incilərlə dolu...

Dünyanın neçə-neçə muzeyini bəzəyib
bir sarayın qabları.
Oğlunu itirmiş anaya bənzəyir
kitab dolabları.
İndi xuddambaşı da qalıb yana-yana,
cavab verə bilmir
səyyahların suallarına.
Fəqət nə etsin xuddambaşı,
nə qədər özünü zorlasa da,
yenə olacsız qalıb
ağacını qaldıraraq arabir,
asta-asta deyir:
– Neçə əlyazması var idi,
bu dolabda bir zaman,
xətti Mirzə Əlidən yadigar idi,
şəkilləri Behzaddan.
İndi yoxdur...
O rəfdə neçə kasa vardı,
Çin şahzadəsindən yadigardı.
Yerin-göyün əsrarını
əks edərdi bir qurtum suda.
Nə Cəmin camı,
nə də İskəndərin aynası
ola bilməzdi bu hikmətdə.
İndi yoxdur o da...
Sonra da dəyişir söhbətini
Xuddambaşı bilə-bilə.
Qonaqları ötürür
qızıl şirazəsi soyulmuş qapıdan
Hörmətlə...

Bir zaman biz keçdik bu küçədən
qarışıq cərgələrlə
qocalı, cavanlı.
hamımız bir əqidəli,
bir inamlı.
Getdik Alaqapı meydanına, –



babaların xütbə oxuduğu yerdə
vətənə sədaqətimizi,
babalara hörmətimizi,
kimliyimizi,
dəyanətimizi
yad edək bir də.
Ana laylası kimi şirin,
vətən göyləri kimi dərin,
Xətainin şer yazdığı dildə.
Getdik,
dövrəmizdə əlisilahlı polislər...
Bilmirdik bizi xətərdən qoruyurdular,
yoxsa xətəri bizdən.
Neçə nəfər xitabət kürsüsünə qalxdı
cərgəmizdən.
Meydan doldu ağzına qədər.
Hələ şəbüstan yerinə,
dükan damına çıxmışdı
çadralı, çadrasız
qızlar, gəlinlər...
Polislər söykənib tüfənginə,
bizə "moğol qalığı" deyən "alimlər"
qısılıb eynəyinə
qulaq asırdılar.
Nə bunun yadına tüfəng düşürdü,
Nə o birinin kişiliyi çatırdı danışa.
Qorxurdu yalanı baş tutmaya
o zaman biri qulağından yapışa
deyə: – Cənab,
bu vüsətdə,
bu lətafətdə,
bu əzəmətdə
qalıq olar.
Qorxurdu cavab tapmaya
özü o dünyalıq ola...

Yenə də zaman dolandı,
yenə də əvəz oldu fəsillərin neçəsi.

Yenidən zindan yolu oldu
*Şeyx Səfi küçəsi.*
Natiqlər getdi bu küçədən
dili bağlı.
Fədailər getdi bu küçədən
qolu bağlı.
Alimlər, şairlər getdi bu küçədən,
qara zindana.
Arxasınca baxdı "Şeyx Səfi"
yana-yana.

Baxdı, danışa bilmədi...
"Nədir bunların günahı?" –
Soruşa bilmədi...
Qaldı Şeyx Səfi küçəsi,
keçmişinin şöhrəti,
dünəninin əzəməti,
bu gününün möhnətilə...
... – Kədərini çinarlar danışır indi,
*yarpaq-yarpaq.*
Qəmini nəql edir adamlara
iki tərəfində axan irmaq.
Yenə də qocalar ötür
bu küçədən,
yenə cavanlar keçib gedir.
Ancaq "Şeyx Səfi" də,
insanlar da intizar dolu
bir süküt içindədir...
Susur,
bir zaman "Darülirşad"a,
sonra Alaqapı xütbələrinə
körpü olan Şeyx Səfi küçəsi.
Susub gözləyir,
nə zaman çevriləcək
tarixin səhifəsi...

*1971*



**ŞƏMSUVARLI ƏBİ**

**I**

"İgid öləndə adı qalar",
"Qaya uçanda toz qopar".
Nə gözəl deyib babalar.
Fəqət,
bilmirəm səninki niyə belə oldu,
öldün, nə toz qopdu,
nə də nəmin-nişanın qaldı.
Nə qədər diriydin
adın dillərdə gəzirdi,
Şəmsuvarlı* Əbi.
Öldün, unuduldun,
adsız ölənlər kimi.
Qəbrinə başdaşı qoyub
üstünə adını da yazmadılar.
Axı sən nə edəsən ki,
arxalandığın adamlar yarıtmazdılar..
Gəlir xatirimə
ilk dəfə səni gördüyüm gün.
Boz atın var idi,
dəvə yunundan çuxan.
Deyirdilər: "Dövlətdən qaçaqsan..."
Ancaq,
nə yol kəsmişdin,
nə də karvan soymuşdun.
Söz götürən deyildin,
ağayla baş-başa qoymuşdun...
Topal Əhmədin,
Çuxasız Qədirin üstdə,
deyirdilər
çomaq çəkmisən ağanın üstə.
O da dözməyib təhqirə,

---
*Şəmsuvar – Ərdəbilin yaxınlığında kənd adı.

komana od vurub
özünü də kənddən qovmuş.
Hələ ürəyi soyumayıb
üstünə ad da qoymuş:
"Qaçaq Əbi".
Elə o zamandan sən də
gəzmisən oba-oba,
kənd-kənd
dövlətdən qaçaq kimi...

## II

Sonra da səngərdə gördüm səni
təlatümlü bir gündə.
Bir daş dalında uzanmışdın,
tüfəngin də dinirdi,
özün də.
– Ey, yaramaz!
Çıx səngərdən...
Səninləyəm, ey, tıntın Kərəm!
Axı ağanın yerinə
sən niyə ölümə gedirsən.
Çıx səngərdən, qayıt kəndə.
Rəiyyət babasan,
nə mülkün, nə də anbarın var.
Axı səngərdə sənin nə azarın var.
Qayıt kəndə,
Hamıya xəbər ver ki,
Azadlıqçın döyüşür Şəmsuvarlı Əbi.
Qoy ağa özü gəlsin meydanıma,
danışaq qabaq-qabağa,
lülə-lüləyə.
Danışaq səngər-səngərə,
güllə-gülləyə,
Yolunu gözləyirəm,
gəlməsə buradan gedən deyiləm.
Bir kuzə suyum var,



bir dəstərxan çörəyim,
bir dağarcıq gülləm.
Ölənədək bu daşın arxasındayam,
gedən deyiləm.
Deyin ağaya gəlsin,
əgər döyüşməyə qeyrəti,
ölməyə həvəsi var.
Gəlsin,
dağarcıqda onun da qisməti,
gülləsi var...

## III

Bir gün Alaqapıdan
zindan qabağına qədər,
səf çəkib düzülmüşdü polislər.
Hamısı da yaraqlı idi.
Səni həbsə aparırdılar,
qolların bağlı idi.
Ancaq,
yenə boz atın üstündə
vüqarlı oturmuşdun,
elə əvvəlki kimi.
Hamı pıçıldayırdı,
Şəmsuvarlı Əbidir,
Şəmsuvarlı Əbi...

## IV

Aylar ötdü,
İllər dolandı...
Sənin də ömrünün günləri
vaxtsız talandı...
İndi, adsız qəbirlər arasında
qəbrini axtarıram,
tapa bilmirəm.
Bəlkə bu nişansız qəbirlərin

hamısı sənindir belə?
Yox, inana bilmirəm.
Axı demişdilər:
"...heykəlini qoyacağıq,
boz atın,
dağarcıq dolu güllən,
bir də tüfənginlə..."
Bəs niyə unutdular!
Nə adın, nə də nişanın var...
Nə qədər diriydin,
adın dillərdə gəzirdi.
Öldün,
bir yadına salan da olmadı səni
indiyə kimi.
Yazıq Şəmsuvarlı Əbi,
Yazıq Şəmsuvarlı Əbi.

*1965*





## *YAĞIŞ YAĞAR,YER DOYMAZ...*

Sən narın yağış kimi
Elə hopmusan qəlbimə
Sakit-sakit,
aram-aram.
Yağış yağar yer doymaz,
Mən də səndən doymaram.
Gözüm gözündən doymaz,
Qulağım səsindən,
Sinəm nəfəsindən.
Deyirlər, ən ülvi sevgi
Səssiz, sözsüz məhəbbətdir.
Axı dilə-ağıza salmaz
Sevən sevəni.
Mənə də sənin eşqin kifayətdir.
Nəyə lazım hamı bilə
Sevirəm səni.
İstəmirəm,
Şıdırğı yağış kimi
Selə, suya dönəsən.
Ya da şimşək olub
Tez yanıb, tez sönəsən.
Mən də
Nə yağışına islana bilim.
Nə də oduna yana bilim.
Neyləyirik nağıl olub
Dillərə düşən şöhrəti?
Nə edirik dağ çayına dönən
Məhəbbəti?
Yamacda hay qopara,
Səhrada nə səsi, nə də izi qala.
Ürəyə hopmaya,
Hər yanda sözü qala.
Sən elə narın yağış ol, əzizim,
Yağ sakit-sakit,
Aram-aram.
Yağış yağar yer doymaz,
Mən də səndən doymaram...

*1969*

## MƏHƏBBƏTLƏ QAYIT GƏL

Sən gedəli neçə vaxtdır,
Saysam əgər
Zaman çatmaz, il çatmaz.
Sən gedəndə çoxu dedi:
"Getdi, daha qayıtmaz..."
İnanmadım,
İnansaydım
Həsrətinə, hicranına dözməzdim.
Zaman-zaman,
Məkan-məkan
Soraqlaşıb gəzməzdim.
Sən gedəli neçə vaxtdır
Həsrətindir, məhəbbətin
Bir də mən.
Gözləyirik,
Sən nə zaman dönərsən.
Sən dönəndə həsrət gedər,
İntizarı, hicranı da aparar.
Mən qalaram,
Sən qalarsan,
Bir də məhəbbət qalar.
Sən qayıt gəl,
Gedən getsin.
İstəmirəm minnət edim,
Yol kəsim.
Sən qayıt gəl,
Təki bizi məhəbbət tərk etməsin.
İnanıram gələcəksən bir səhər...
İlk eşqinlə,
İlk sevginlə qayıt sən.
Məhəbbətsiz dönüb gəlsən,
Nə sən varsan,
Nə də mən...

*1969*



## NƏ YAXŞI Kİ, BAHAR VAR...

Bağda sarı yarpaqları
Harayasa daşıyır bir qoca
kiçik əl arabasında.
Bir kədər duyuram
yarpaqların bağı
beləcə tərk etməsində.
Bir zaman vardı,
Bu yarpaqlar yaşardı
çinarın budaqlarında.
Səsi də var idi, nəğməsi də.
Çadır-çadır kölgəsi də.
İndisə,
bir arabaya yığıblar qalaq-qalaq,
Harasaya atılacaq...
Bu da bir həyatdır,
yarpaq həyatı...
Bu da bir ömürdür,
yarpaq ömrü...
Gedənlər qayıtmır bir də geri.
Gəldi...
Yaşadı...
Getdi...
Demək hər şey bitdi.
Düşünürəm,
nə yaxşı ki, bağ var, çinar var.
Nə yaxşı ki,
təbiətdə bahar var...

*1969*

## SƏMƏRQƏNDDƏ BİR QIZ GÖRDÜM

Səmərqənddə bir qız gördüm, adı Mərhəmət,
Qaşı qara, gözü qara, özü də duzlu.
Dedim, əgər Hafiz səni görsəydi, afət,
Səmərqəndi bircə xala bağışlamazdı.

Gözlərinin atəşində yananda yəqin,
Yanağının şəbnəmində sönərdi odu.
Saçlarının qoxusunu alanda sənin
Meyxanəsiz, peymanəsiz o məst olardı.

Mərhəmətin mərhəmətlə güldü gözləri.
Dedi: – Qonaq, bu sözlərin, kaş, düz olaydı.
Əsrimizdə şairlərin yüzündən biri
Məhəbbətdə, səxavətdə Hafiz olaydı.

*Səmərqənd, 1968*

## SƏN, EY SARİBAN...

Vətən torpağında lalə dərənlər,
Sanın lalə üstdə qara xal məni.
Qızıl qönçələrə heyran olanlar
Bilin, onlar edib belə lal məni.

Deyin, kim eşqində kamına çatdı?
Kim hicran yükünü çiynindən atdı?
Vüsal üfüqlərdə göründü, batdı,
Çəkdi arxasınca o xəyal məni.

Bir quzey qarıdır saçım, saqqalım,
Sıxmır ürəyimi, fəqət, bu halım.
Arxamda ümidim, arzum, iqbalım,
Yüz il də yaşadar bu calal məni.
Fəqət həsrət odum dilim-dilimdir,
Yanıb şölə çəkən öz niskilimdir.
Vətənin vüsalı son mənzilimdir,
Nə vaxtdır görməmiş o mahal məni.

Sən, ey bu yerlərdən ötən sariban,
Belə sakit ötmə, dayan bircə an.
Hicrandan vüsala qədəm qoyarkən
Yolunun üstündə körpü sal məni...

*1965*



## GƏRAYLI

Yaxşı deyib aşıq Cuma:
"Dost bir olar, ya da iki",
Aşıq, mən də bu dünyada
Dost gəzirəm sənin təki.

Dost istərəm arif ola,
Qəlbi güldən zərif ola.
O, dərdimdə vaqif ola
Sirr olmaya qəlbindəki.

Qınamayın məni nahaq,
Söyləmişlər məndən qabaq,
Çətin işdir dost saxlamaq,
Mən o dostu tapım təki!

Yüz illərdir yanıb Kərəm,
Unutmamış onu aləm.
Dost içində dost gəzirəm
Belə ola əsli, kökü.

Hər baxanda sağ-soluma,
Düşür yada aşıq Cuma.
Hər adamdan dostluq umma,
"Dost bir olar, ya da iki".

*1969*

## YAMAN YERDƏ...

Yaman yerdə qoyub getdin,
Qaldım yaxıla-yaxıla.
Bu hicranın əzabları
Sığmaz ağıla, ağıla,

Həsrətinlə ayaq tutdum,
Hara gəldi getdim, getdim.
Yaşa doldum, boya yetdim,
Qaldım yıxıla-yıxıla.

Məhəbbətdə oldum naşı,
Ürəyimin yandı başı.
Gözlərimin dondu yaşı,
Qaldım boğula-boğula.

Sənsiz günüm talan oldu,
Yandım, Kərəm yalan oldu.
Kərpic-kərpic viran oldu
Ömrüm dağıla-dağıla.

Mən ki səni əzizlərdim,
Gül becərdim, tikan dərdim.
Həsrətindən sonsuz dərdim
Döndü nağıla-nağıla.

*1969*





## DƏNİZ OLMAQ İSTƏYİRƏM...

Məndən soruşsalar,
"Nə olmaq istəyirsən?"
Deyərəm: dəniz,
Səxavətdə,
dəniz olmaq istəyirəm,
Təmənnasız, minnətsiz
Hamıya pay verə bilim.
Vüsətdə,
dəniz olmaq istəyirəm,
arzumun sahillərini görə bilim.
Xasiyyətdə,
dəniz olmaq istəyirəm
dalğalı, fırtınalı, coşğun dəniz.
Saçlarını qaya daşlarına sərən
Məcnun dəniz.
Təbiətdə,
dəniz olmaq istəyirəm
ləpələri günəşin tellərindən
çələng hörən,
dibinin qumları görünən,
həlim, mehriban dəniz.
Maddə də,
cəzrə də tablaşan dəniz.
Məhəbbətdə,
dəniz olmaq istəyirəm
göy gözlü,
səma dərinlikli,
Özü sahilli
nəğməsi sahilsiz.
Dəniz olmaq istəyirəm,
dəniz...
dəniz...

*1966*

## XƏZƏR KÖKSÜMDƏDİR

Xəzər köksümdədir,
fırtınası, tufanıyla.
Xəzər köksümdədir
neçə əfsanəsi,
nağılı, dastanıyla.
Hər dalğası elə bil ağ mayadır,
karvandan üzülüb,
ümmandan üzülüb,
sahilə gəlir.
Axı, ovsarını qıranlar
Həmişə belə gəlir...
Xəzər köksümdədir,
qızılı qumu,
yalçın qayasıyla.
Gündüz od ələyən günəşi,
gecələr ayparasıyla.
Xəzər köksümdədir,
sığınıb sinəmə
əzizlərimdən ən əzizi kimi.
Gətirmişəm onu şəhərə
ötən günlərimdən qalmış
güzgü kimi.
Sizi də gətirmişəm
ey sahil qumu üstündən ayrıldığım
dostlar, tanışlar.
Axı, Xəzər olmasa,
siz olmasanız
sinəm boş qalar.
Xəzər köksümdədir
mavi gözlü,
gülər üzlü,
duzlu Xəzər.
Belə də qalacaq
gələn il,
sahildəki görüşümüzə qədər.
İndi yadınıza sahil düşsə!
Xəzər düşsə, məni anın.
İndi yadınıza dənizdən doğan
səhər düşsə, məni anın.

*1971*



## DƏNİZ, HEMİNQUEY VƏ MƏN

Önümdə
Dünyanın qaragözlü pərisi,
Qara dəniz.
Başımın üstündə
Ağ çalmalı,
Sıldırım qayalı dağ
Səssiz-səmirsiz.
Bir qaya parçası üstündə
Oturmuşam tək.
Ayaqlarımı yuyar sular
Yenə dalğa-dalğa,
Ləpə-ləpə nəğmə deyərək,
Mamırlı daşların üstündən
Sabun köpüyü kimi sürüşür,
Yenidən tökülür dənizə.
Haradansa yadıma Heminquey düşür.
Dönüb bir zirvəyə baxıram,
Bir də oturduğum qayaya.
Uzaqda balıqçı qayıqları,
Qağayılar şığıyır suya...
Günəş közərə-közərə
Yarıb dənizi qalxır.
O da ilk dəfə zirvəyə baxır,
Mən də baxıram.
Gör haradan harayadır fərqimiz:
O dağ başında,
Mən qaya daşında.
Ayaqlarım suda,
Yanımda balıqlar oynayır.
Əl atsam
Papağını götürərəm
Başından dalğanın.
Baxıram,
Bu yaxınlıq heyran edir məni...
Bəs nədən
O, dağ başından
daha yaxşı duyur
Dənizin romantikasını,
Dənizin həqiqətini.

Məni dəniz heyran edib,
O, "Qoca və dəniz"iylə hamını.
Axı, duyğuya nə yaxın, nə uzaq?
Hər şey yaxın olar
Əgər ürəkdən vurulsaq.

*1968*

## QARA DƏNİZ

Qara dəniz, Qara dəniz,
Sahilində uzanmışam,
Elə bil ki, qürbət eldən
Uçub gəlmiş qərib quşam.
Sağım dəniz, solum qaya,
Torpaq üstə dirsəklənib
Mən baxıram
Dalğalarda üzən aya...
Xəyal məni hara çəkir,
Hara, dəniz?
Sevgilimə oxşayırsan,
Qara saçlı, qarabəniz.
Qara dəniz, Qara dəniz,
Dalğaların sinəm üstdən
Zolaq-zolaq yol açdıqca,
Ləpələrin pıçıltısı
Qulağımda dolaşdıqca,
Cənub qızı düşür yada.
Düşünürəm, bəlkə bu an
Onun qulac saçlarıdır
Sinəm üstdə dalğalanan.
Axı sən də sevgilim tək
Həm duzlusan, həm də qara.
Qara dəniz.
Deyirlər ki, qoca Hafiz
Qara xalçın bir dildara
İki şəhər bağışladı...
Bir şairin hökmünə bax
Hardan çatır hara, dəniz.
Qara dəniz, Qara dəniz,
Sən də bizim yer üzünün



Yanağında qara xalsan,
Nə olar ki,
Sahilinə qonaq gəlmiş
Bu şairdən bəxşiş alsan.
Nə kəndim var, nə şəhərim,
Nə də eldə bir hünərim,
Hafiz kimi ənam verəm
Bircə xala iki şəhər.
Bir ürəkdir, bir də şer
Bu dünyada varım mənim.
Ürəyimi aldı məndən
Qara gözlü, qara saçlı
O qara dildarım mənim.
Bəxşiş dedim...
Böyüyü var, kiçiyi var.
Hər kəs baxıb miknətinə
Öz varını bağışlayar.
– Sənə şer bağışlaram,
Bu da kasıb bir şairin
Bu dünyada miknətidir.
Şer qəlbin atəşidir,
Şer ömrün nemətidir...

*1960*

## BU AXŞAM

Bu axşam üzü qırçın-qırçın,
Qumaş kimidir Xəzər.
Çəkilib sahillərin qınına,
On dörd gecəlik ay işığında
Bənzəyir min bir gecə nağılına.
Həqiqəti bir aləmdir,
Əfsanəsi bir aləm dənizin.
İstəyirəm buaxşamkı nağılını
Mən deyəm dənizin.
Bir zaman nə Xəzər var idi,
Nə də onun qumlu sahili belə.
Dalğaların yerində
Dəvə karvanı gedərdi.
Mənzildən-mənzilə.

Bu düzdə tikan da vardı,
Çiçək də, çəmən də.
Bir bahar günü
Göylər leysan tökəndə,
Əvvəlcə çiçəklər yuyundu,
Kəpənəklər yuyundu suda.
Sonra qumlu düzlər içdi selləri
cadar dodaqlarıyla.
Sanki buludun qəzəbi tutdu
Torpağa.
Sel selə qovuşdu,
İrmaq irmağa.
Sular aşdı-daşdı,
Hər şey bir-birinə qarışdı.
Buludun göz yaşı,
Çiçəklərin ətri,
Kəpənəklərin rəngi
Zər dənizinə döndü...
Zaman-zaman
Neçə adda yaşayan
Bu ümman
İndi Xəzər dənizinə döndü.
Aydın gecələrdə
Dalğalar rahatlanır,
Ləpələr dayanır,
Çıxır suyun üzünə
Zər qanadlı kəpənəklər.
Neçə rəngə çalır
Dənizin dibindəki çiçəklər.
Əfsanələr aləminə qovuşur Xəzər...
Neçə nağılı var –
Fırtınalı,
Tufanlı,
Qəzəbli dənizin.
Bu da bir nağıldır,
Üzü qırçın-qırçın
Qumaşa bənzəyən
İnsan qəlbli dənizin...
Fəqət bir həqiqət var,
Yüz əfsanəyə dəyər.
Buluddan doğulsa da Xəzər
Bu torpağa bağlıdır.



Ümmandan ayrı düşəli,
Sığındı Abşeronun sinəsinə.
Biz də vurğunuq Xəzərin
Nağıllı, nağılsız gecəsinə...

## DƏNİZLƏ PAYIZDA GÖRÜŞDÜK

Dünən görüşünə getdim Xəzərin.
Düşünürdüm yol boyu, –
Atılacağam qucağına
Uzun illərin ayrısı tək.
Yəqin o da açıb qollarını
Qucaqlayacaq boynumu,
Necə də sevinəcək...
Sevinəcək,
Bu payız günündə
Onu xatırlayıb
Gəlmişəm yenə.
Getdim,
İnsanların izi çoxdan silinmiş
Sahil qumlarına
Təzə izlər sala-sala.
Yaman həyəcanlı idim,
Nəfəsim tutulurdu az qala...
Dayandım ləpədöyəndə,
Dayandım xeyli.
Dəniz bir az qəzəbli göründü mənə,
Bir az da gileyli.
Dayandım onunla üz-üzə,
Ancaq üzümə baxmadı.
Bahardakı kimi sevinə-sevinə
Qarşıma çıxmadı.
Əyilib öpdüm dodaqlarından,
Bir parça duz idi,
Dinmədi Xəzər.
Əlimi çəkdim köpüklü saçlarına,
Bumbuz idi,
İsinmədi Xəzər.
Baxdım sahil boyu,
Bir nəfər görüm soruşam:
Nədən gileylənib dəniz?

Xətrinə kim dəyib görən?
Sualsız da bildim
Xəzərin inciməsini
Sahilin kimsəsizliyindən.
Oturdum dalğaların sahilə atdığı
Bir kötük üstündə.
Oturdum qüruba kimi.
Açılmadı qaşqabağı dənizin,
Soyumadı qəzəbi...
Ayrıldıq,
Əlimdə dalğaların soyuğu,
Dodağımda duzu qaldı.
Yol boyu düşündüm,
Yəqin mənə deməli
Nə qədər sözü qaldı...
İnadından dönmədi, bilirəm.
Nə eybi var,
Bir də gələrəm,
İki də gələrəm...
Barışarıq,
Danışarıq.
İnanar, nankor deyil insanlar,
Dərk edən də var,
Naşı da.
Deyərəm: – Xəzərim mənim,
İki gözüm mənim.
Axı, yer üzü həmişə bahar olmur,
Dünyanın payızı da var,
Hətta qışı da.

*1972*

## DƏNİZƏ YAĞIŞ YAĞDI

Dünən şıdırğı yağış yağdı,
Sahildəki adamların
Hərəsi qaçdı bir yana.
Qabar-qabar oldu
Dənizin sinəsi,
Qaldı yana-yana...
Buludların isti göz yaşındanmı,
Yoxsa qəlbinin təlaşındanmı



Tutuldu, bulandı dəniz?
Qaraldı, bozardı,
Fəqət dayandı dəniz.
Qabar-qabar yandı dəniz...
Təmkinini itirmədi ancaq.
Çəkildi buludların karvanı,
Çəkildi üfüqə sarı.
Şəfəqlər töküldü sulara,
Qızıl, sarı...
Yenə gəldi insanlar,
İkibir, üçbir.
Yenə açdı qollarını
Dəniz sahil boyu.
Axı, dəniz mehribandır,
Dəniz təmkinlidir.

*1972*

## DƏNİZƏ GÖZ YAŞI DEMƏYİN...

Dənizə göz yaşı deməyin,
Deməyin: “Göylərin göz yaşıdı dəniz”.
Dənizə üzük qaşı deməyin.
Deməyin “Dünyanın üzüyünün
Qaşıdı dəniz...”
Deməyin, duzludur
Donmaz dəniz,
Deməyin bilə-bilə.
Bəs nədən göz yaşı donur
Gilə-gilə!
Deməyin, yanan görməyiblər dənizi hələ.
Ancaq göz yaşı elə yanır
Nə közə çevrilir,
Nə də külə...
Dəniz yanardı,
Bir qətrə göz yaşı olsaydı.
Dəniz donardı,
Bir qətrə üzük qaşı olsaydı.
Dənizə göz yaşı deməyin,
Amandı, yana bilər,
Dona bilər...

Dünya dənizsiz qalar onda.
İnsanlar dənizsiz qalar onda...
Bütün gözəlliyini itirər
Yer üzü.
Dənizə göz yaşı deməyin,
Nə edirik donan dənizi,
Yanan dənizi.
Nə yaxşı ki, dəniz var dünyamızda,
Təlatümlü, çağlayan dəniz.
Nə yaxşı ki, beynimizdə,
Şüurumuzda dəniz var –
Heç zaman ovunmayan dəniz.

*1975*

## DƏNİZ ƏSƏBİDİR...

Bu axşam nə ay var,
Nə ulduz var dənizdə.
Qapqara qatran tökülmüşdür
Sanki dənizin yerinə.
Nə də işıq salır
Xəzərin qumlu sahillərinə
Çıraqların düzümü.
Tək qalıb dəniz,
Tək-tənha...
Bu axşam tükənib
Dənizin dözümü.
Elə darıxır ki,
Dindirsən ağlayacaq ha!..
Heç vaxt belə görməmişdim
Dənizi tək-tənha...
Tora düşmüş kimi
Yatağında çapalayır,
Ancaq səssiz-səmirsiz.
Heç inanmazdım,
Fırtınasız, dalğasız da
Qəzəbli olar dəniz.

*1975*



## İLDIRIM VƏ DƏNİZ

Dünən bir tiyə ildırım
Düşdü Xəzərə,
Çalxandı dəniz.
Üfüqdə qara buludlar bağırdı,
Qorxudan yarıldı qaranlığın bağrı.
Dedim, doğradı dalğaları yəqin,
Təbiətin bu odlu kəsəri.
Nigarançılıq içində açdım səhəri...
Səhər üfüqlər qızarmışdı,
Nə buludlu, nə dumanlı idi.
Ancaq Xəzər
Bir qədər əsəbi,
Bir qədər həyəcanlı idi.
Söndürsə də qəzəbiylə
İldırımın alovunu,
Axşam şahə qalxan dalğaların
Hələ yığmamışdı cilovunu.
Elə bil yanırdı
İçin-için hələ də.
Meydan oxuyurdu Xəzər
Üfüqə də, sahilə də...

*1975*

## ÜÇÜNCÜ İSKƏNDƏR

Ərdəbildə bir İsgəndər vardı.
Küçə-küçə gəzib duz satardı.
Eh, nə vaxtdan tanıyıram onu,
Ancaq görməmişəm neçə ildir.
Ölmüşmü?
Sağmı?
Bəlli deyil.
Hər dəfə onu düşünəndə deyirəm,
atalar gözəl deyib:
"Dünya yaxşı adamlardan xali deyil".
İstəsəydi mirzə olardı
lap sələmçibaşına,
şəhərin baş küçəsində
hücrədə otarardı.
Daha düşməzdi küçələrin qarına,
yağışına...
Düşür yadıma,
qışda çayxanada,
yayda örtülübazarın kərpic səkisində
söhbət etdiyimiz günlər.
Necə də şirin danışardı
kiminin "duzçu",
kiminin "babı" adlandırdığı
İskəndər.
Görəsən sağdırmı?
Sağdırsa əgər,
yenə də çiynində duz şələsi,
əlində həşyəsi yazılı mis piyaləsi,
şəhərin əyri, ensiz küçələrilə
addımlayır ağır-ağır,
duz paylayır.
Bəlkə ölüb?
Əgər ölübsə
Görən hansı qəbiristanda basdırıblar
onu



Axı, şəhərdə hamı bilirdi
İskəndərin babı olduğunu.
Diriliyində dişləri batmayanlar
Yəqin ölüsündən çəkiblər hesabını.
Mollalar qəbiristana qoymayıblar
babını.
Bəlkə bağ meşədə,
kiçik həyətindəki
tək çinar altında yatır indi?
Görəsən şəhərin dalda küçələrində
çaxçaxlı qapıları döyüb,
başı çadralı,
əlləri hənalı
qaraqaş, qaragöz gəlinlərə
kim duz satır indi?
Bəlkə də sahibsiz qalıb
torbası, camı?
Bəlkə də İskəndərin ölüm xəbərini
şəhərdə eşitməyib hamı?
Bəlkə də neçə gəlin, neçə ana
hələ də gözləyir onun yolunu?
Taxçadakı kasaya qoyublar
nisyə aldıqları duzun pulunu?
Gözləyirlər gələcək yenə.
Yəqin inanmırlar
Duzsatan İskəndərin ölməsinə.
Doğrusu, mən özüm də inanmıram –
Ölə İskəndər.
Hələ yadımdadır ilk görüşümüz.
Örtülübazarda,
səkidə oturmuşduq ikimiz.
Önümüzdə iki stəkan çay vardı,
yanımızda bir torba duz.
O belə başladı söhbətini,
bir az zarafat, bir az ciddi:
"Dünyada üç İskəndər var:
biri mənəm.

Biri kefli İskəndər,
o biri Zülqərneyn.
Başqasını tanıyırsınız, deyin?
İskəndər çoxdu bilirəm.
Ancaq tarixdə qalanı üçdür.
Yəqin bu sözlərim
sənə birtəhər gəlir.
Onda mən heç...
İkisini tanıyırsan yəqin,
Axı tarixdə adı var Zülqərneynin.
O biri, dünyaya ayıq gəlib,
keflənib dünyanın qəmindən.
Müsəlman doğulsam da,
görürsən indi "kafir" olmuşam mən.
Belə də gedəcəyəm həyatdan –
əliboş,
könlü xoş.
Nə pul yığmışam, yük olub
çiyinlərimi əysin,
nə borcum qalacaq bir kəsə.
Buyursun, haqq-hesab mələkəsi gəlsin.
Nə cənnət həvəsindəyəm,
nə də cəhənnəmdən qorxum var.
Nə ehsan istəyirəm,
nə rəhmət oxusunlar..
Keçən il belə dedim molla Ələkbərə.
Acığı tutdu yaman,
dedi: – Əl çək bu babılığından,
Qayıt müsəlman ol,
Dua edərik,
tövbəni qəbul edər Yaradan.
Dedim
nə sizin kimi xadim ola billəm,
nə də heç nəyi qanmayan müsəlman.
Mənalı-mənalı baxdı
gözlərimin dərinliyinə,
susdu bir qədər.



Dedi
nə qazanarsan
bu duz şələsinin hamısını satsan
əgər?
Dedim.
birgünlük çörək pulu aparıram evə
hər axşam.
Hələ yadıma gəlmir
ikigünlük xərci bir gündə qazanam.
Sevincdən qaçdı dodaqları,
tələsik dedi:
ya Məcitcamedə,
ya Cüməməsciddə,
yeddi rükət namaz qıl gündə,
ailənin xərci məndə...
Doğrusu qaraldı qanım,
Dedim yaşımın bu vaxtında
deyirsən təzədən aldanım!
Hardan alırsan sən öz xərcini?
Kimin hesabına
saxlamaq istəyirsən məni?
Buna razı olarmı ağan?
Gördü bir xeyir aparmayacaq
bu danışıqdan,
dəyişdi üzünün mənası.
Dedi sən asi olmusan, asi!
Axirətə bir şeyin qalmamış,
Get duzunu sat,
çox bilirsən az danış.
Ancaq mən danışaram hər gün yenə.
Eşidir, məhəl qoymur,
Hətta acıqlanır da xəbərçilərinə:
"İşiniz olmasın.
Satdığı duzun acısı çıxıb dilinə..."
Danışıram,
nə sadəcə inaddır bu,
nə də şöhrət arzusu.

Axı, həqiqəti deyənin olmur qorxusu.
Nədən qorxacağam,
Həllac Mənsur kimi
şəhər meydanında dara çəkilməkdənmi?
Yoxsa Nəsimi kimi
dərimin soyulmasından?
Hər ikisinə razıyam, inan.
Ancaq etməzlər,
qorxurlar, əqidəm aşkara çıxa,
beş tanıyanım
o zaman yüz ola.
Min-min müsəlman dönüb
dinsiz ola.
Mənə nə var ki,
onsuz da babıdır adım.
Nə dinim var, nə etiqadım.
Heç nəyə inanmıram desəm,
düz olmaz.
İnanıram,
bu duzdur,
el dəyirmanında
gecələr səhərə kimi əzilən zəhmətimi,
qapı-qapı sürünən
yorğun ayaqlarımın qüdrətini
satmasam,
ac qalaram axşam.
İnanıram,
ölmək üçün doğulmuşam,
Ancaq məhv olmayacağam.
Çünki məhv olmur yaradan,
Haradasa, nədəsə yaşayır yenə.
Mən də zərrə-zərrə əzilib
qarışıram duz dənələrinə.
İnanıram,
insandır ən böyük yaradan,
Hər şeyə qadir.
Əlindən yaxşı da,



pis də gəlir.
Axı, mən də insanam,
demək,
ikilidir xasiyyətimin cövhəri.
Yaxşı olmaq üçün
məhv etməliyəm bir yarımı.
Pis də ola bilərəm
yaxşımı məhv etsəm əgər.
Mənə belə gəlir,
bir bütöv
iki yarıya dəyər.
Nə olsan, tam ol, –
yaxşı, ya da pis.
İkili olsanız
Hər şeyi itirərsiniz.
Zərgər ola bilərdim,
olmadım.
Niyə?
Xalqın qızılını,
özümün vicdanımı
zərrə-zərrə oğurlayıb
doldurmaq istəmirəm mücrüyə.
Duzdan çıxan çörəyim
ağzımda şəkər dadır.
Sən özün də bilirsən
adamlar bir-birini necə də aldadır.
Məni hamı tanıyır Ərdəbildə,
uşaqdan böyüyə qədər.
Kimi "Babı İskəndər" deyir,
kimi "Duzlu İskəndər".
Qoy kim necə istəyir desin.
Toxunmaq istəmirəm qəlbinə
heç kəsin.
Fəqət bir nəfər deyə bilməz
toyuğuna kiş demişəm.
Ancaq hamı bilir,
ömrüm boyu
bir qarışqa kimi işləmişəm".

Neçə il görüşdük.
Neçə il danışdıq beləcə.
Bəzən mübahisə edərdim onunla
Öz düşüncəm, öz biliyimcə.
O kamal dövründə idi,
Mən cavandım.
Elə bilirdim həyat
gördüyüm, bildiyim bu aləmdir.
Duzçu İskəndər
Həyatdan əfsanələr nəql edir...
Belə sanırdım o zaman:
ən böyük hikmət
dünyanın kürə olmasıdır.
Bir gecə-gündüzdə
yerin bir dəfə fırlanmasıdır.
Bunu da bilirdim,
Demək, hər şey aydın idi mənimçin.
İndi oturub düşünürəm
hərdən için-için.
Gör nələr varmış o İskəndərin
duzlu sözlərində.
Zarafat da etsə,
yerində demiş, yerində.
"Üçüncü İskəndər" olardı,
arxasında duranı,
qolundan qaldıranı
olsaydı.
Fikirləri çin-çin
bir kitab içinə yığılsaydı.
Kitablar ölkə-ölkə,
el-el dağılsaydı.
İskəndər olardı,
"Babı" deyə
ağzından vurmasaydılar əgər.
Fikirlərini lənət qılıncıyla
doğrayıb qırmasaydılar əgər.



Neçə ildir görməmişəm
duzsatan İskəndəri.
Hərdən düşür yadıma
qayğıdan, zəhmətdən
qırış-qırış olmuş sifəti,
bir də sözlərinin hikməti.
Deyirəm:
Xalqın dərdinə bax,
fikirlərində hikmət axını,
arxasında duz şələsi,
küçələri dolanır
bir əsri heyran etməyə qadir olan
onun filosof oğlu,
filosof balası.
Düşür yadıma,
deyirəm, nə olaydı
o zaman kinoya çəkəydilər
duzsatan İskəndəri.
Dalının şələsi,
əlinin camıyla.
Özü danışaydı hamıyla...
Eşidəydilər onu,
Üzünü tutub salona
Deyərdi: Görün nəyə qadir ikən
Nə günə qoymuşlar
bir millətin oğlunu.
Fəqət, nə kinoya düşdü,
nə də kitabda qaldı adı.
İndi mənim kimi
neçə nəfər xatırlayır:
"Ərdəbildə duz satan
Bir İskəndər vardı..."

*1973*

## HƏSƏNİN ÖLÜMÜ

Bir səhər,
kəndə yayıldı acı bir xəbər:
"Həsəni öldürdü Cabbar..."
Əvvəlcə inanmadılar,
"Həsən dilsiz-ağızsız,
rəiyyətin biri,
ağzı təzə çatıb çörəyə...
Cabbarın qohumu, qardaşı,
torpağı, öküzləri.
Hamı yalvarır ona işləməyə...
Axı Həsənin Cabbarla nə işi var..."
Odur ki, inanmadılar.
Ancaq xəbər yerli-yerində
Həqiqət idi.
Çox da ki, Cabbar hampa,
Həsən rəiyyət idi.
İş belə gəlib,
yanaşıdır əkin yerləri.
Dünən Cabbarın nökərləri
mərzi adlayıb,
cüt salırlar Həsənin yerinə.
O qışqırıb hədələyir,
baxmırlar.
Yalvarır,
qulaq asmırlar yenə.
yazıq Həsən,
başılovlu,
əlləri göydə.
qaçır kəndə sarı.
O, bulaq başında tapır Cabbarı.
Yalvarır:
– Qoyma, nökərlərin mərzi aşdılar.
əkdilər mənim də yerimi!
Cabbar əyri-əyri baxıb ona,
fısıldayır ilan kimi:



– Mən demişəm!
Qoy əksinlər!
Axı, nə köməyin var,
nə də cütün.
Gözünü dağlayım
sənin kimi rəiyyətin...
Xırmanda gələrsən
deyərəm bir şey verərlər sənə...
Həsən yalvarır yenə:
– Bilirsən, körpə uşaqlarım var,
rəva bilmə acından ölələr.
Boğazımdan kəsib toxum almışam.
birtəhər,
uşaqların qanadı qandan çıxsın deyə
özümü oda, közə vururam.
Bir də yerim ola-ola
niyə sənin qapına gəlim çörəyə?
Cabbara yaman toxundu bu sözlər:
– Buna bax,
Mənə çörəyə gəlməyi alçaqlıq bilir.
Axmaq!..
Elə oradaca vurub öldürür Həsəni...
Qadınlar ağladı bu xəbərdən
kişilər qəzəbləndi.
Fəqət,
canının qorxusundan
kimsə nə danışdı,
nə də dindi.
Torpaq üstə ölən Həsəni,
aparıb basdırdılar torpağa...
İki gün
kənddə görünmədi Cabbar ağa.
Sonra hər şey düşdü öz qaydasına təzədən.
Elə bil yox imiş bu dünyada Həsən...
Kimsə demədi Cabbara:
– Sən də insansan,
Həsən də insan idi.

O, bəlkə də səndən yararlı
səndən mehriban idi.
Ancaq sən öldürdün onu.
Yaşamaqçın doğulanın
Həyat haqqını əlindən aldın.
Niyə o öldü?!
Niyə sən qaldın?!
Bu haqqı kim vermiş sənə:
"Yaşama!" deyəsən Həsənə?!
Ey, Cabbar!
Həsən ölərkən
baxdınmı gözlərinə?
Günəşin bir zərrəsinə
necə enirdi qara bulud.
Dodaqları necə titrədi...
Hələ bəstələnməmiş
nəğməni
necə də boğdu sükut.
Qolları düşdü yanına...
Kim bilir nə qədər torpaq
şumsuz,
toxumsuz
qaldı.
Sinəsi qalxıb-endi
dəmirçi körüyü kimi...
Qalxdı...
Endi...
Daha qalxmadı bir də...
Ocaqdakı gözlərin üstünə
kül endi pərdə-pərdə...
söndü ocaq...
Soyudu Həsənin qəlbi...
Daha neçə uşaq ata məhəbbəti,
neçə nəvə
baba nəvazişi görməyəcək.
Həsən öldü...
Dünyaya yüz Həsən gəlsə də



daha o gəlməyəcək...
Öldü Həsənlə birgə
Həsənlə dünyaya gəlmiş
nə qədər nemət.
Fəqət,
Cabbara demədilər:
"Bu qədər cinayətə
sənin nə haqqın var!!!"
Ancaq
ən acı həqiqət budur,
Həsən öldü,
qaldı Cabbar.
Qaldı bir də
insan ölümü haqqında
yığın-yığın suallar...

*1967*

## "ŞAHİN VƏ KORAMAL"

Yer üzərində bir ada var,
Xəritədə, kitabda
adı qeyd olunmamış bir ada.
O, indi məlum olsa da
nə Magellan kəşf edib onu,
nə də Kolumb.
Ancaq neçə əsr əvvəl
burada hansı hökmdarsa olub,
əmr edib,
bir qala tikilsin
sıldırımların dənizə qovuşduğu yerdə.
Nə "Qız qalası",
nə "Məkr",
nə də "Məhəbbət"...
Fəqət,
kiçik otaqlar,

barmaqlı pəncərələr,
Bir də,
qalanın üstündə bir meydan.
Sonra da yelkənli qayıqlar
zaman-zaman
neçə keşikçi,
neçə dustaq daşımış bura.
Ağır qıfıllar vurulmuş
kiçik qapılara...
O vaxtdan insan səsi,
insan nəfəsi.
Bir də axşam
göydə ulduzlar yananda
titrək-titrək alışan
şamların şöləsi
ucaldı qaladan.
Ağır-ağır ötdü zaman,
səhər günəş doğdu,
axşam batdı...
Axşam ulduzlar doğanda
yatan dustaqları
səhər keşikçilərinin
addım səsləri oyatdı.
Beləcə yeknəsəq keçdi aylar...
Bir yaz günü
qala meydanında
yanında silahlı keşikçi
bir məhbus günə verirdi özünü.
Yenə göyün əyrisilə birləşən dəniz
tənbəl-tənbəl yırğalanır,
yenə günəşin şəfəqləri
ləpələr üstündə yanır,
yenə dalğalar aramsız
yalayırdı qalanın təməl daşını.
Məhbus birdən qaldırıb başını
baxır səmaya,
tala-tala buludlara,



Bir də əlisilahlı keşikçiyə.
Məhbusun bu qəribə baxışından
Gözətçi diksinir elə bil:
– Niyə belə baxırsan, niyə?!
– Görmürsən,
(Göyləri göstərir ona)
çayda üzən buz parçası tək,
Necə talalaşıb buludlar?
– Nə olsun?!
– Bahardır, ay qardaş, bahar.
– Nə olsun!
– İndi kənddə çəmənlər göyərib,
gömgöydür
lap bu dəniz kimi.
Gündüzlər qar əriyib
gilə-gilə,
damcı-damcı.
Axşamlar qayalardan buz sallanır
sərnizəniz kimi.
– Nə olsun?
– Uşaqlar irmaqdan, gölməçədən
atlana-atlana
otarmağa aparır qoyunları.
Baharda kənddə olmusanmı barı?
– Yox.
– İndi yaylaqda alaçalpov,
aranda yağış yağır.
Qızlar quzeylərdən novruzgülü,
güneydən tərə yığır...
Çoban qaya üstündə oturub
lap mənim kimi, belə.
Neçə-neçə nəğmə deyir
kənd gözəllərinə.
Qarğı tütəyin diliylə
Bilirsən, necə çalır?

– Bayatısı dağlara səs salır...
İndi cavanlar
boyunduruqdan aşırıb xışı
üç ay qışı
tövlədə yeyib, yatan öküzləri
xamdan çıxarırlar xırman yerində.
– Nə olsun?!
– Bircə vəsiyyətim var,
ömründə bircə gün olsa da
get kəndə.
Gözlərinlə gör
bahar günəş altda necə buxarlanır
ceyranın gözü kimi qapqara,
qızılgül ətirli,
neçə nemətli
torpaq.
– Eh, nə olsun..
Bundan mənə nə olacaq!
– Mən kənddə doğulmuşam.
Kənddə keçib
ömrümün acılı, şirinli günləri.
Torpaq yedirdib,
torpaq böyütmüş məni.
Atam da, babam da kənddə yaşadı,
kənddə öldü.
Oğlum da, qızım da kənddədirlər indi.
Görəsən nə edirlər mənsiz.
Nə gözəl günlər idi,
Hər bahar cütə gedirdik
Oğlumla ikimiz.
O yer sürər,
Mən toxum səpərdim.
O suvarar,
mən arx çəkərdim.
Sonra da bir bulaq başında
süfrə açıb,



nəyimiz vardısa
ağız ləzzətiylə yeyərdik.
Axşam evə dönəndə
gah qəmli,
gah da sevinc dolu
nəğmə deyərdik...
Eh, nə gözəl günlər idi...
O zaman
oğlumun on yaşı vardı,
qızımın səkkiz.
Görəsən nə edirlər indi.
Onlar mənsiz...
Məhbus fikrə getdi...
Birdən qalxdı ayağa,
gözlərində alışan qığılcım
sərnizədə əks etdi.
Sonra da toqquşdu
dəmirçi ocağı tək alovlu,
bir də buz kimi donmuş baxışlar.
məhbus dedi:
– Deyirsən, orda nə var?
Həyat, bir də azadlıq!
Bilirsən azadlıq nədir?!
– Bilirəm.
– Yox, bilmirsən!
Bilsəydin gözətçi olmazdın.
Bilsəydin bu qala divarları arasında
bircə gün qalmazdın.
Yox, bilmirsən!
Bilmirsən, yazıq.
Axı biz insanıq!
Sən bilmirsən bunu,
insanın azadlıq üçün doğulduğunu.
Bilsəydin...
Deyən məhbus
Birdən qollarını geniş açdı,
qalanın başından

şahin kimi uçdu.
Uçdu kəndin baharına...
Çobanın mahnılarına...
Ətir qoxulu torpağa...
Uçdu həyata,
insanlara,
azadlığa...
Gözətçi çiyinlərini çəkdi təəccüblə...
Sonra elə bil yuxudan oyandı,
bir addım atıb
ancaq yenə dayandı.
Baxdı,
hər şey əvvəlki kimiydi yenə...
Dəniz üfüqlə birləşib,
Günəşin şəfəqləri ləpələrə düşüb,
dalğalar qalanın təməl daşını döyürdü...
Fəqət o görmədi,
dənizdə bir nöqtə var.
Orada sular halqa-halqa böyüyürdü...
Sonra da üzürdü ləpələrin çiynində
sahilə sarı...
Gözətçi görmədi
bir məhbusun
həyat,
torpaq,
azadlıq arzuları
necə də can atır
sahilə sarı...

*1968*

## TACİR VƏ MƏCNUN

Qədim Ərəbistan,
Qumlu səhradan
Tozlana-tozlana gələn karivan



Bir dağ ətəyində açır yükünü.
Bulağın yanında o bütün günü
Dincələcək yəqin qaş qaralınca.
Sonra da yenidən düşəcək yola.
Bulağın üstündə bir cüt söyüd var,
Burda mənzil edir hər gün karvanlar.
Xalçanın üstündə oturmuş tacir,
Beynindən qəribə fikirlər keçir:
"On gün yol gəlmişik, bir həftə də var,
Bazar, bazar olsa yəqin bu mallar
Beş günün içində satılar hökmən.
Beş gün də qalaram mal almağa mən.
Sonra da yenidən düşərik yola..."
Bu vaxt tacir görür dağ cığırıyla
Düz bulağa sarı gəlir bir nəfər,
Saçları dağınıq, özü mükəddər.
Gəlir, yanında da bir bala ceyran,
Gəlib su içirlər onlar bulaqdan.
Qayıdanda onu səsləyir tacir:
– Ey allah bəndəsi, de, adın nədir?
Kimsən, nəkarəsən, hara gedirsən?
Gəl otur söhbət et, darıxıram mən.
Bəlkə də yolumuz bir oldu elə,
Səni apararam onda özümlə.

M ə c n u n

Adımı soruşdun?
Qeysdir adım.
Mənim su içməkdi fəqət muradım.
Onunçun da enib gəldim bulağa.
Səninlə yolumuz bir deyil, ağa.
Tamam başqa yolun yolçusuyam mən,
Mənə yoldaş olsan ziyan edərsən.

T a c i r

Bəlkə bir səyyadsan?
Abidsən yəqin,
Abidə oxşayır elə görkəmin.
Sən gəl o ceyranı bağışla mənə,
Üç qızıl verərəm onun yerinə.
Təam hazırlayar qulamlar ondan,
Özün də tacirə qonaq olarsan.

M ə c n u n

Üç qızıl verərsən dedin ceyrana?
Əsl tacirmişsən, inandım buna.
Səndə insaf hanı, mürüvvət hanı,
Üç soyuq qızıla verim canlını?

T a c i r

Soyuq qızıla yox, sikkəyə, pula.

M ə c n u n

Yaxşı ki, tacirsən sən bu ağılla.
Qızıl ki pul oldu, əslindən çıxdı,
O indi qızıl yox, bir oyuncaqdı.
O gah təam olar, gah mətah olar,
Bir kisədən çıxıb birinə dolar...
(Bir şey dərk etmədi bu sözdən tacir.)

T a c i r

De görək bəs sənin tələbin nədir?
Bəlkə də şal verim, ya qumaş verim?
Ya qul bağışlayım, qarabaş verim?
Ərəbsən, yerlisən, bizsə yol ötən,
Bilmirəm sən necə rəva bilirsən,
Qonağın ac gəlib, ac getsin burdan?
Bil ki razı qalmaz bundan Yaradan.



M ə c n u n

Acsınız? Belə de! Gözləyin əlan
Mən yemək gətirim sizə obadan.
Ancaq, əziz qonaq, bunu yaxşı bil
Bu ceyranı satmaq heç mümkün deyil.
Axı, necə satım bir yaranmışı?
Bundan Yaradanın gələrmi xoşu?
Onu da bizim tək yaratdı Tanrı,
Onun əlindədir öz ixtiyarı.
Nə olsun o zəif, sən qüvvətlisən.
Gücün çatanları məhv edəndə sən –
Onda canavarla səndə nə fərq var?
Bir gün də o tutub səni parçalar.

T a c i r

Onu təam üçün yaratmış Allah,
Burda nə zərər var, nə də ki, günah.

M ə c n u n

Elə vəhşilər də bu yolla gedir!
Güclü gücsüzləri məhv etməlidir.

T a c i r

Nəyinə gərəkdir onda bu heyvan,
Salıb öz arxana dolandırırsan?

M ə c n u n

Mən onu tutmadım, o özü gəldi,
O məni özünə bir arxa bildi.
Bir quş bir budağa sığındığı tək
O mənə sığınıb, qoruyum gərək.

T a c i r

Bilirsən, böyüsə gedəcək bir gün.

M ə c n u n

Təəccüblü deyil bu hal mənimçün,
Ya gedər, ya bir gün qocalıb ölər.

T a c i r

Acığın gəlməsin, yaxşı deyibəlr
Hərəmiz bir cürə dəliyik, düzü.

M ə c n u n

Hamıya yaraşmaz məcnunluq sözü.
Siz bir tacirsiniz, dövlət hərisi,
Min dinar səcdəyə gətirər sizi.
Cünunluq aləmi özgə aləmdir.

T a c i r

Mənim müsahibim tanıdım kimdir.

M ə c n u n

Çəkinməyin, deyin, Məcnunam, bəli,
Adı dildən-dilə gəzən bir dəli.
Yox, o mən deyiləm özgəyəm tamam,
Mən eşqin yeganə havadarıyam.
Bir rəvayət deyim sizə, ey qonaq.
Bizdən neçə-neçə əsrlər qabaq
Qədim Yunanıstan torpaqlarından.
Dost imiş məhəbbət cünunluq ilə,
Deyirlər onların mehribanlığı
O vaxt dastan olub düşmüşdü dilə.
Sözü bir, sirri bir bu iki yoldaş
Bir yerdə gəzirmiş kəndi, şəhəri.
Hicrandan, möhnətdən, kədərdən uzaq



Gəlib ötər imiş ömrün günləri.
Bir gün də səfərə çıxırlar onlar,
Yol uzaq, getdikcə uzanır söhbət.
Cünunluq köpürüb daşır sel kimi,
Onu təsdiq etmir yenə məhəbbət.
Cünunluq köpürüb daşır sel kimi,
Məhəbbət çox sakit tutur özünü.
Cünunluq hirsini soyuda bilmir,
Əl atıb çıxarır onun gözünü.
Məhəbbət kor olub qalır səhrada,
Dostusa sarsılır öz əməlindən.
Haçandan-haçana gəlir özünə,
O, kor məhəbbətin tutub əlindən,
Gedirlər... indisə kədərli məhzun.
Tanınır hər yanda bu iki nəfər.
Odur el içində o vaxtdan bəri
"Məhəbbətin gözü kordur" deyirlər.
Cünunluq vəfasız çıxmır dostuna,
Ürəkdən-ürəyə daşıyır onu.
Ağasına sadiq əzabkeş kimi
Onu dolandırır ömrü uzunu...
Çox məcnunla olub, eşqin yolunda,
Çox aşiqlər gəlib, getmiş cahana.
İndi məhəbbətin mənəm həyanı,
İndi məcnun etmiş məni zəmanə..."
Döyüb gözlərini dayanır tacir,
Onun gördükləri yuxudur, nədir?
Bu haman Məcnunmu Leyliyə vurğun?
Bu haman gəncmidir həsrətdən cünun?
Bu haman aşiqmi həyata küskün?
Bu haman Qeysmi, demiş mənimçin –
Ən müqəddəs Kəbə Leylidir, Leyli?
Əgər bu o isə, hanı o dəli?..

Heyrətlə dayanıb baxanda tacir,
Məcnun da başını bulayıb gedir.
Bilir ki, bu kişi dərk etməz onu,
O, Leyli, bu, sərvət divanəsidir.

*1974*

## AUERBAXIN MEYXANƏSİNDƏ GÖRÜŞ

*Leypsiqdə yağışlı axşam*

Leypsiq şəhərində bir meydança var,
Qədim bələdiyyə meydançasıdır,
Elə bil o kiçik tağlı dükanlar,
Əmir bazarının bir parçasıdır.*

Burda az görünür adamlar indi,
Şöhrəti tarixə zəbt olmuş ancaq.
Qonşu küçələrsə işıqlı, enli,
Həyatda, zamanda təzada bir bax.

Böyük mehmanxana,
Təkəm otaqda.
Nə bir tanış vardır deyəm, danışam.
Daha yorub məni yazıb-pozmaq da,
Qəribə haldayam, düzü, bu axşam.
Elə bil kim isə tutub əlimdən,
Çəkib dar otaqdan çıxarır məni.
Kiminsə, nəyinsə arxasınca mən,
Keçirəm səssizcə neçə küçəni...
Narın yağış yağır yenə bu axşam.
Damcılar böyüyür, artır anbaan.
Mən də göylər kimi elə dolmuşam,
Çətir də, papaq də çıxıb yadımdan.
Gedirəm... bomboşdur hər yan gözümdə,
Bilmirəm bu yağan yağışmı, qarmı.
Heç deyə bilmərəm bu an özüm də,
Öz qəti arzumu, son qərarımı.
O qədim meydana çatdığım zaman

*Əmir bazarı* – Təbrizdə üstüörtülü bazar.



Gecəyarısını vurur saatlar.
Dururam bir anlıq.
Axı, uzaqdan
Məni çağırdılar.
Bəlkə gələn var?
Sonra da yaxından gəlir o səda,
Duyuram çiynimə toxundu bir əl.
Bu gecə, kimsəsiz bir meydançada,
Bir mənəm, bir də ki, o mərmər heykəl.
Bəlkə o heykəldir səsləyən məni?
Heykəl danışarmı?
Onda bu kimdir?
Astaca çiynimə qoyub əlini,
Görürəm meydana bir qoca enir.
Baxıb tanıyıram.

M ə n

Ustad, mən səni
Veymarda Şillerlə qoşa görmüşəm.

G e t e

Əzizim, bilirsən, Faustçun məni,
Bura gətirdilər.
Çoxdan gəlmişəm...
Təəccüb eyləmə,
Mənə de görüm
Səni bu meydana gətirdilərmi?

M ə n

Yox, məni buraya... doğrusu... özüm

G e t e

Bəli, aydın oldu.
Sən gələn kimi
Elə bu səhər,

Mənə Mefistofel vermişdi xəbər.
Dedi, gələcəksən.
Dedim: – Dələduz,
Mən səndən də yaxşı bilirəm onsuz,
O məni görməmiş getməz şəhərdən.
Axı, ömrüm boyu Şərqi sevdim mən.
Hafizi, Xəyyamı, Sədini sevdim,
Fərhadın dağ yaran eşqini sevdim.
Günəşdən yeddi rəng ayrılır hər an,
Beş günəş doğubdur Şeyx Nizamidən.
Eşqin dünyasına qalxdıqca mən də,
Bir hikmət şam kimi yandı sinəmdə.
Dedim: – Nə tərsa var, nə də müsəlman,
Bütün təriqətdən yüksəkdir insan.
Yaratdım insanın məhəbbətilə,
Yaşadım mən onun hürriyyətilə...

M ə n

Elədir, fikrinə baş əyirik biz,
Sənin söz dünyandan öyrənirik biz.
Səni zaman doğdu, zaman yaratdı,
Fikrin zəmanədə tufan yaratdı.
Hikmət dünyamıza Faust tanışdır,
"Şeytan"ın heç yerdən qovulmamışdır.
Mefistofel, yəni cəsarət, hünər.
Onsuz keçinməmiş bircə gün bəşər.
Şərq də öz oğlu tək tanıyır səni,
Odur bu yerlərə gələn hər qonaq
Veymarda, Leypsiqdə arayır səni.

G e t e

Bunu Mefistofel bilsə də ancaq
Səni bu yağışda çıxarıb yola,
Gör necə islanıb üstün, başın da.
Bizim bu yerlərin gur yağışında
Daş-divar soyuqdan donur az qala.
Elə mən özüm də donuram, düzü
Bir Xəyyam norması isidər bizi*



Meydanın başında bir meyxanə var,
Örtmüşdür üstünü çəpəki tağlar.
Yolu daş döşənmiş, pillə-pillədir.
Pillələr özgə bir dünyaya enir.
Qapının ağzında bir dəstə adam**
Qarışıq səslərdən hiss olur, tamam –
Əsəblər dartılmış kaman kimidir.
Gözlər od püskürən vulkan kimidir.
İndicə bir tufan qopacaq həmən...
Tərəddüd edirəm,
Bu meyxanədən
İmtina eyləsək nə yaxşı olar.

M ə n

Ustad, bir baxınız, keçdi buludlar,
Ayna tək açıldı səmanın üzü.
Gəl, bir yerdə gəzək şəhərinizi.
Axı, ilk dəfədir Leypsiqdəyəm mən.

Onun göz oxşayan gözəlliyindən
Hələ bir şey görüb öyrənməmişəm.
Axı, bilirsiniz, Şərqdən gəlmişəm.
Şərq özgə aləmdir, Qərb özgə aləm.

Gete fikrə getdi...

G e t e

Bilirəm, qonaq,
Səni bu yerlərə gətirən maraq
Məni də bir zaman Şərqə çəkərdi...
Deyirsən, bu Leypsiq gözəl şəhərdir?
Hələ nabələdsən bu şəhərdə sən,

**Xəyyam norması* – bir şüşə şərab deməkdir.
**Auerbaxın meyxanəsinin girəcəyində qoyulmuş heykəllərə işarədir.

Sabah işıq vaxtı gəzib görərsən.
Sən ki yaxşı vaxtda gəlmisən, qonaq,
Bir zaman burada qan uddu torpaq.
Sevib vəsf etdiyim bu Almaniyada,
Nələr yaratmadı bir yığın dəni?!
Zərdüşt baba demiş,
Qoca dünyada
Əhriman boğurdu Əhrimüzdəni...
Burda, bu Leypsiqdə hələ bir zaman
Məhkəmə qurdular qanun adından.*

O gün də burdaydım, bu meydanda mən.
Əfsus ki düşmüşdü qələm əlimdən.
Dilim də olmadı çıxam danışam,
Yumruğum altında əsə tribuna.
Axı ömrüm boyu düşmən olmuşam
İnsanın insana haqsızlığına.
Faşistlər dünyanı salanda oda,
Mən beləcə qaldım bax bu meydanda.
Sanma ki, sənətə qoyuldu qiymət,
Məni düşürməyə etmədi cürət...

M ə n

Bilirəm, çox sənət ocağı söndü,
Çox dahi heykəli torpağa döndü.
O zaman dünyanın yaman çağıydı,
Almaniya bir ölüm, qan çanağıydı.

G e t e

Gəlir xatirimə, bir yaz səhəri
Leypsiqdən qaçanda faşist əsgəri,
Gəldi bu meydana başqa bir əsgər,
Əlində dağlarda bitən çiçəklər...

*Leypsiq şəhərində Dimitrovun məhkəməsinə işarədir (*müəllif*).



İndi yaxşı vaxtda gəlmisən, qonaq,
Bu qədim şəhərin hər daşına bax.
Mən də çox istərəm səninlə qoşa,
Gəzim doğma yurdu lap başdan-başa.
Fəqət, bu axşam,
Faustla yenə də qərarlaşmışam
Burada görüşək.
Gələcək yəqin.
Sən bu meyxanədə ötən illərin
Bircə gecəsini olsan bizimlə,
Görərsən hər şeyi onda gözünlə.
Gəl keçək...
Gedirik, qapıda elan:
"Meyxanə bağlıdır".
"Ey ayıq insan,
Daha gecikmisən, qayıt qapıdan.
Evə dönmək üçün gec deyil hələ,
Ya da get məbədə, ibadət eylə..."
Gete gülümsəyir...

G e t e

Ey meyxanəçi!
Hamıdan müqəddəs, mehriban bacı,
Gəl aç qapıları, qayıtmayaq boş.
Axı, nə ayığıq, nə də ki, sərxoş.
Nə evimiz vardır, nə yol gözləyən.
Məbədə getməyi rəva görmə sən.

A u e r b a x ı n   m e y x a n ə s i n d ə

Keçərik içəri,
nə aləmdir bu?
Doldurub havanı şərab qoxusu.
Elə bil meyxanə özü sərxoşdur,
Səndəllər də daşdır, mizlər də daşdır.
Daşdır kuzələr də, piyalələr də,
Neçə qəlb döyünür piyalələrdə...
Şərabda elə bil əks olur aləm,
Özüm də bilmirəm hara gəlmişəm.

Xəyyamın sevdiyi o həyatmı bu?
Şərqdən Qərbə köçmüş xərabatmı bu?
O piri-muğanmı oturmuş gendə,
Bir cüt mavi gözlü dərinliyində
Qərq olub danışıb-dinmədən belə?
Bəlkə o Faustdur,
Mefistofeldə
Leypsiqə gəlmişdir elə haman gün?
Yeni fəlsəfələr kəşf etmək üçün?
Yox, Şeyx Sənana oxşarı vardır,
O xurmayı saçlı qızda Xumardır.
Gör necə saxlayıb ədasını da,
Sənan çıxarmışdır ridasını da,
Nə əmmamə qalmış, nə təhtülhənək.
Eşqin qarşısında o baş əyərək
Zahirən, daxilən dəyişmiş tamam.
Dinin zülmətindən qaçan bu adam
Vüqarla gəzdirir tərsa xaçını,
Boynundan asmışdır dar ağacını.

G e t e

Bizə şərab gətir, möhtərəm xanım,
Şərabın oduna alışıb yanım.
Doldur kuzələri,
        bir insafa gəl.
Dostum Şərqdən gəlib eşit, ey gözəl.
Yox, hardan biləsən sən o diyarda,
Saqilər dolanar meyxanələrdə.
Qızılgül ətrilə yuyular sürah,
İçən savab edər, içməyən günah.
Sanma meyxanədə məst olur hamı,
Orda kimisinə həyat ilhamı,
Axı, kimisinə yük olur şərab.
Bu küpdən o küpə tökülür şərab,
Biz ola bilmərik onlara şərik,
Biz ki al şərabı qəlbə içirik...
Dönüb hamı baxır Göteyə sarı.



B i r i n c i  s ə s

Qoca Fausta var bunun oxşarı.

İ k i n c i  s ə s

Yəqin yanındakı Mefistofeldir.

Ü ç ü n c ü  s ə s

Burdan getdikləri gör neçə ildir...
Susur bir andaca qarışıq səslər,
Susur çalğıçılar, dayanır rəqslər.
Hamı heyrət edir.
Qızlar bu ara
Etiraz edirlər:
"Çal , ey avara!
Tez ol, valsı başla qızışsın meydan!
Bizə nə çıxacaq qoca Faustdan?
Mefistofeli də tanımırıq biz!
Yüz il yaşamışıq Mefistofelsiz.
Görmək istəmirik üzünü belə!
Ötən əsrlərin fəlsəfəsilə
Yaşaya bilmərik bilirsiz, cənab!
Yaşasın azadlıq!
Yaşasın şərab!"
Qapının ağzında durub bayaqdan
Ətrafı seyr edir lovğa bir cavan.

M e f i s t o f e l

Qızlar, gözəl qızlar, səhv edirsiniz,
Bir anınız keçməz Mefistofelsiz.
Bir də deyin görək Faust nə zaman,
Getmiş Auerbaxın meyxanəsindən?
Şeytan da burdadır, hikmət də burda,
Zülmət də burdadır, cənnət də burda.
Dünya yaranandan bu günə qədər,
Qayğısız olmamış heç zaman bəşər...

Gete köks ötürüb.

G e t e

Faust, yazıq Faust,
Səbrə bax səndə
Uşağa dönmüsən bunun əlində.
O öz aləmindən qoparır səni,
Haraya istəyir aparır səni...
(Bu vaxt Faust gəlir xəyal içində Gete ilə görüşür.)

F a u s t

Burdasan sən də?
Nə yaman korlanıb yaddaşım, düzü,
Bir saat əvvəldə dediyim sözü
Tamam unuduram bir saat sonra.
Məni Mefistofel gətirdi bura.
Gəlin çıxıb gedək çölə, çəmənə,
Düzü, bu meyxanə dar gəlir mənə.

M ə n

Bəlkə yorğunsunuz, oturun, cənab,
Sizə kömək edər bir qədəh şərab.
Bir də musiqini dinləyin bir az.
Şərab olan yerdə, axı, şər olmaz.

F a u s t

Nə gözəl dediniz, a şərqli qonaq,
Bu bir həqiqətdir dərindən duysaq.
Elə bil yerdən qopardın məni,
Öz hikmət dünyama apardın məni.
Əslində şərabdan doğmamışdır şər.
Nadandır mey içib şər törədənlər.



Şərqin fəlsəfəsi ucadır, uca.
Ona baş əymişəm ömrüm boyunca.

M ə n

Biz də xeyli vaxtdır dinləyib səni,
Həyat, xilqət haqda fikirlərini
Öyrənə-öyrənə görürük bəzən
Bizim Fəzlüllahla eyniləşirsən.
"Mən bir allahammı?"
Sorduğun zaman
"Bəli, sən allahsan, ey qadir insan"
Deyərək Nəsimi səs verir sənə.
Həqiqət yol tapır şübhələrinə...
Faust fikrə gedir...

F a u s t

Bir hikmətə bax,
Mənim fikirlərim məndən çox qabaq
Gəlmiş bu dünyaya.
Mən isə hələ
Boş-boş öyünürəm hikmətlərimlə.

M ə n

Yox, cənab, bu böyük təfəkkürlə siz,
Elə bizimçin də qiymətlisiniz.
Məğriblə məşriqin yovuşmasına,
Fikir dünyamızın qovuşmasına,
Böyük təfəkkürlər yol açmış ancaq.
Bu belə olmuşdur, belə olacaq.

G e t e

Hər zaman, hər yerdə görürəm, qoca,
Hikmət axtarırsan ömrün boyunca.
Bu tərəddüd, şübhə yorduqca səni,
Girdablar içində gördükcə səni

Mən əzab çəkirəm.
Axı, bir zaman
Dedim ki, fikrinin işıqlarından
Gözümüz, qəlbimiz nurlandı bəlkə.
İndi xəyallarla pəncələşdikcə...
(Faust burda onun sözünü kəsdi.)

F a u s t

İnan, bu tərəddüd səndə əbəsdir.
Sən bütün bəşərçin yaratdın məni,
Əbədi olaraq yaratdın məni.
Əgər "Faust"unu yazmasaydın sən,
Sən Gete olsan da mən olmazdım mən.

G e t e

Əbədi gəlirik biz bu dünyaya
Bizə elə gəlir, ölürük guya.
Xəyyam söyləmiş ki, bu cansız kuzə
Şərabla ruh verir, can verir bizə.
Bir vaxt saqi idi meyxanəmizdə
Yenə də qayıtmış məclisimizə.
Şairin sözündə hikmətə bax sən,
Deyir ki, heç zaman ölməyəcəksən.
Dünən insan idin, sabahsa çiçək,
Adınla görkəmin dəyişir demək.
Bu mey ki, rəngi də, dadı da gözəl,
Kim bilir neçə gün, neçə il əzəl
Torpağın ətriydi, günəşin nuru.
İnsanın əliylə dönüb mey oldu.

F a u s t

Dərk etsək əgər,
Bu şəfəq rənginə çalan zərrələr
Yenidən qayıdıb dönür əslinə.



Günəşin nuruna, torpaq ətrinə.

G ö t e

Elədir, düzdür..
Bu bizim həyatla vəhdətimizdir.

F a u s t

Biz hər şeydə varıq,
            ya daş, ya çiçək.
Hər şeydən bizdə də zərrə var demək.
Biz həmi bir küllük, həmi min zərrə,
Həm ayrı-ayrıyıq, həm də bir yerdə.

G e t e

Arayıb, axtarıb, öyrənə bilsən,
Sən bəlkə də mənsən, Faust deyilsən.
Bir zaman zərrə tək ayrılıb məndən,
İndi bu görkəmdə sən olmusan sən.

M ə n

Ustad, bilirsənmi Şərqdə bir zaman,
Özünü dərk etmək istəyən babam,
Nə qədər anlayış, hikmət yaratdı.

G e t e

Yəqin ki, axırda bir yerə çatdı,
Özünü, dünyanı dərk eləyərək
Söylədi, yaşayıb ölmürük demək,
Dəyişə-dəyişə yaşayırıq biz.
Nə isə... Bəs hanı kuzələrimiz?
Nə qədəh veriblər, nə də ki, kuzə,
Demək meyxanəçi dağ çəkib bizə.
Bir qurtum içmədik,
            belə iş olar?

Mən öz otağımdan çıxanda, dostlar,
Dedim təbiətin gedim qoynuna.
Görüm nə gətirir xilqəti cana?
Təbiət yerinə indi meyxanə,
Bir də sizi gördüm,
Razıyam buna.
Bu söz-söhbətimiz qurtarmır hələ...
Sanki fürsət düşdü Mefistofelə
Qocanı bir anda götürüb getdi.
Götenin alnını qırışlar örtdü.
Gözləri yol çəkdi elə bil birdən.
Çıxdıq meyxanədən...

Artıq səhərdi,
Günəşli, buludsuz bir yaz səhəri.
Şəfəqlər içində Leypsiq şəhəri
Necə gözəl idi, necə füsunkar.
Adamla doluydu gen xiyabanlar.
Bahar havasıyla qabardı sinəm.
(Meyxanə bir aləm, şəhər bir aləm...)
Qoşulub o səhər izdihama mən,
Yenə də Götenin keçdim önündən.
Yenə həmən tağlar, həmən meydança,
Yenə əzəmətlə durmuşdu qoca...

*Leypsiq-Bakı*
*1969, may.*



# MƏNİM CƏBHƏ DOSTLARIM

*Nigaranlıq*

Zaman o zaman deyil,
Məkan o məkan deyil,
Fəqət yaddaşımızdan
O illərin, yerlərin izi pozulan deyil.
Tarixə çevrilsə də ömrün, günün hər anı,
Xatirələr bağlayır ötən günə insanı.
Xatirəyə çevrilir sevincimiz, qəmimiz,
Xatirəylə döyünür zaman-zaman qəlbimiz.
Xatirə var odundan od tutursan yanırsan,
Xatirə var ananda sanki qanadlanırsan...
Bu bayram günlərində
Ötən qanlı günləri gətirdikcə yada mən,
Bir ömrün kədər dolu, sevinc dolu günləri
Gəlib keçir gözümdən.
Neçə insan qayıdır yaddaşımda həyata,
O kədərli günləri iftixarla yenidən
Yaşayıram mən hətta.
...Gör neçə ildən sonra
Öz cəbhə dostlarımla otururuq üz-üzə.
Deyirəm: – Ay uşaqlar, qoy mən danışım sizə,
Fikir verin hər sözə,
Yaddaşın dolayında itib, qalan olmasın.
Axı, bunlar tarixdir,
Gərək yalan olmasın...

Qırx birinci il idi,
Ərdəbildəydik onda.
Yadınıza düşürmü?
Hə, cavan oğlan idik,
Min-min insanlar kimi
Biz də sabahımızdan yaman nigaran idik.
Qərbdə dumanlı göylər
Topların atəşindən yanırdı tala–tala.

Gəlirdi Şərqə tərəf bu od, alov, bu bəla.
Qocalar söyləmişkən.
Elə bil yer üzündə Nuhun tufanı idi.
Faşist sözü o zaman ölüm idi, qan idi.
Hamı nigaran idi...
Yox, yox, hamı deyildi,
Kim deyir ki, sevinib şadlananlar yox idi?
Fəqət öz niskilini ürəyində saxlayan
Sevinəndən çox idi.
Dinə bilmirdi hamı,
Susurdu, gözləyirdi.
Dinib danışanları xəfiyyə izləyirdi.
Çaharrahda, Rastada*
yığılanlar var idi,
Onlar məddahlar idi.
Görürdün ki, ortada
Uca səslə bir nəfər
Baba dərvişlər kimi:
– Belə verirlər xəbər...
Deyəndə neçə söz də artırırdı özündən.
Yalandan danışdığı bəllənirdi üzündən...

### *Xəbərlər mərkəzi çayxana*

Axşam Çeşməbaşında
Böyük bir çayxanada yığılırdı ağalar.
Daxil olmaq azaddır,
Əgər artıq pulun var.
Bir şahılıq miyana **
Burda birсə qırana.
Doğrusu, bir pul deyil ağa üçün bir qıran.
Ancaq məndən soruşsan,
Deyərəm ki, o zaman
Bir qıran, bir bəzzazın birgünlük məxarici.

*Ərdəbildə bazar və məhəllə adlarıdır.
**Kiçik stəkanda çay.



Bir qırana iki gün fəhlə işlədər hacı.
Ancaq bu çayxanada
Bir stəkan çayın da dəyəri bir qırana.
Nə olsun ki, axşam gəl,
Görəcəksən dolubdur ağzınadək çayxana...
Gəlir cavan əfsərlər,
Gəlir tacir, sələmçi.
Gəlir, siyasət ilə heç vaxt maraqlanmayan
Qırmızısaqqal hacı...
Axı, hamı istəyir
"Berlin xəbərləri"ni gəlib özü eşitsin.
Diktorun söylədyi hər bir sözü, eşitsin.
Elə bilmə ki, onlar dünyanın taleyindən,
İnsanın həyatından,
Vətəndən nigarandır.
Birisi anbarından,
Biri dükanlarından...
Bir sözlə, burda hər kəs özündən nigarandır.
Bir xəbərlə dəyişir
Dəyər, məzənnə, bazar...
Hər gün birсə xəbərdən milyon qazanan da var,
Müflis olanlar da var...
Gecə sərxoş çıxırlar çayxanadan əfsərlər,
Onları məst eləyir uydurulmuş hər xəbər.
Dünən ingilislərə nökərçilik edənlər,
Xidmət üçün ağadan rütbə, ənam güdənlər,
İndi ata-babadan elə bil alman olub.
Dönüklərə nə var ki,
Kim ulaq olsa, onlar əvvəldən palan olub...
Beləcə günlər ötür,
Beləcə günlər itir,
Gəlir qırx birin yayı.
Məddahlar, xəbərçilər daha görünmür gözə,
Dünən danışmayanlar indi başlayır sözə.
O məşhur çayxana da düşür adi halına,
Son qoyulur onun da dünənki cəlalına...

### *Ziddi-faşist cəmiəti*

Baş küçədə – Çaharrahda,
Tablo asdı bir gün səhər
Faşistləri sevməyənlər.
İri xətlə yazılmışdı:
"Ziddi-faşist cəmiyyəti".
Elə o gün küçə-küçə, meydan-meydan
Gəzdi onun söz-söhbəti:
"Gəlin, vətəndaşlar, gəlin, a dostlar,
Şairin sizlərə xoş xəbəri var..."
Haray çəkən bir şairin
Səsi düşdü mahal-mahal:
Gəldi kəndli, gəldi hampa,
Gəldi əsnaf, gəldi baqqal.
Müəllimlər, tələbələr axıb gəldi,
Şər xeyirlə savaşanda,
Aydınlığa səs verməyə
El zülmətdən çıxıb gəldi.
Azadlığın gücünə bax,
Damla əgər azad olsa,
Axıb-axıb selə dönər.
İnsan əgər azad olsa,
Dağ oynadan filə dönər.
Azadlığa çıxanda el,
Qandallara, zindanlara sığışmayır.
Azadlığa çıxanda dil,
Susmaq bilmir,
Səsi, sözü meydanlara sığışmayır.
"Gözlə" deyən, "dinmə" deyən zəmanənin
Razılığın soruşmayır.

Üç gündür ki,
Carçı düşüb xəbər verir,
Piləçaydan Nirə qədər*

*Qəsəbə və mahal adlarıdır.



Xalxaldan da Muğanadək.
Mitinq vardır Ərdəbildə
El-obanın camaatı gəlsin gərək.
Qayadan bir damcı düşür,
Bir də düşür, irmaq olur.
İrmaq axır sel yaranır.
İnsanlar da yığılanda
Tayfa olur, el yaranır.
Bu obadan biri çıxır,
O komadan biri çıxır,
Biri enib dağdan gəlir,
Biri çıxıb bağdan gəlir.
Cığırlarda görüşürlər,
El yolunda birləşirlər,
Dərdləşirlər, dilləşirlər:
– Xeyir ola?
– Deyirlər ki, mitinq vardır Ərdəbildə.
– Savalandan gəlirəm mən,
Nə xəbərdir görən belə?
– Nitq olacaq bizim dildə,
Eşidərsən, öyrənərsən.
– Ayrı dili bilmirəm mən,
Özgə dildə danışsalar heç getmərəm.
Mən elatam,
Başqa dildə danışmayıb babam, atam.
Bir rəvayət deyim sənə,
Bəlkə elə eşitmisən:
... Bir gün dağdan enib gəlir bir şahsevən,
Axşam üstü o çatanda obasına,
Görür ki, bir əmmaməli
Çıxıbdır ot tayasına
Haray çəkir.
Xəbər alır, deyirlər ki:
"Bu molladır, azan verir".
Baxıb-baxıb soruşur o:
"Bəs nə deyir?"
"Biz nə bilək!

Görməyirsən özgə dildə danışır o"
Qəzəblənir kişi yaman,
Deyir: – Salın tez tayadan,
Başa salın, anlasın o,
Özgə dildə
Qoyun gedib özgə yerdə banlasın o...

### *Mitinq*

Çaharrahda, mitinq verir
"Ziddi-faşist" cəmiyyəti.
Axıb gəlir şəhər əhli,
Kəndistanın rəiyyəti.
Dalğalanır insan seli
Məzluminin dükanının qabağında.
Kimi ayaq üstə durub,
Kimisi də oturubdur,
Bağlaması qucağında.
Ay Məzlumi, gözün aydın,
Aç dükanın qapısını.
Bir bu qədər müştəriylə
Sən bir gündə qazanardın
Lap dünyanın yarısını.
Birdəfəlik tullayardın
Məzlumluğun daşını sən
Aç qapını, aç, Məzlumi,
Niyə durub düşünürsən.
Aç qapını bir görsünlər,
Nəyin vardı, nə satırsan.
Mən bilirəm bu alverlə
Öz-özünü aldadırsan.
Aç qapını, xurcununu, çomağını
Yağsın bura rəiyyət dostlar.
Qoy hər şeyi söz etməsin nadürüstlər.
Cərgə-cərgə, sıra-sıra
Səf çəkərək dayanaq biz.



İrad tuta bilməsin qoy düşmənimiz
Günortadır,
Müəzzinlər minarəyə qalxan vaxtı.
Dükandarlar qapıya tor taxan vaxtı.
Cəmiyyətin arasından
Lap maşının damı üstə
Qalxdı biri.
Sakitliyə dəvət etdi gələnləri.
Bircə anlıq susdu hamı.
Bir uğultu keçdi sonra
Sanki insan dənizindən
– Bu danışan kimdmr görən?
– O Qüdsdur.
Ərdəbilin ən hörmətli müəllimi.
Bu mahalda natiq yoxdur ounu kimi.
Sonra sanki daş atdılar birdən gölə,
Sədd çəkdilər coşan selə.
Üzdə maraq, közdə maraq
Hamı susdu.
– Ağayi Qüds danışacaq...
Bizim ya şəhərdə, ya da ki kənddə
Evimiz, komamız, ocağımız var.
Bizim bu ölkədə, bu məmləkətdə
Özümüzə görə bir haqqımız var.
Evimiz od tutub yanarsa bir gün
Hay-haray salarıq qonşular gəlsin.
Qonşunun koması odlansa bir gün
Biz də köməyinə gedərik yəqin.
Fərz edək bir kənddir bu yer kürəmiz,
Ölkələr qonşudur biri-birilə
Min illər bir yerdə yaşamışıq biz,
Hələ yaşayacaq nəslimiz belə.

İndi qonşumuzun evi odlanır,
Heç insafmıdır ki, dayanaq gendə?
Alovlar, tüstülər ərşə dayanır,
İnsanlar yanırlar odlar içində.

Demirəm vuruşaq biz əldə silah,
Belə bir fikirə düşməsin heç kəs.
Fəqət səsimizi gəlin ucaldaq,
Dünyanın səsinə qoşulsun bu səs.
Bu odu, yanğını, müharibəni
Yaradan adamlar quldurdan pisdir.
Onların başçısı dənidir, dəni,
Onlar insan deyil, onlar faşistdir.

Yalan söyləyirlər o kəslər, yalan,
Deyirlər faşistlər adi insandır!
Yalan söyləyirlər faşistlər, yalan,
Müsəlman, yəni ki, misli-almandır!

Günahdır Hitlerə Mir Heydər demək!
Kim dedi, o sözü heç inandımı?
Qoy çıxsın ortaya, danışsın görək
O özü doğrudan müsəlmandırmı?!

Bir vaxt Vilhelmi Şərqə gətirib,
Adının önünə "Hacı" qoşdular.
Fəqət çox çəkmədi başa düşdülər
Qoyun dərisinə canavar girib...

(Natiqin sözləri kəsilir hər an,
Adamlar əl çalıb gülüşürdülər.
Onlar ki, baxırdı dalda-bucaqdan
Bir az da, bir az da büzüşürdülər).

Qardaşlar, faşistlər çatıb Volqaya,
Stalinqradda döyüşlər qedir.
Meydan oxusa da Hitler dünyaya,
Bu haylar, haraylar bir bəhanədir.

Haqqın tərəfində dayanırıq biz,
Qoşulsun səsimiz haqqın səsinə.
Çünki lap ürəkdən inanırıq biz



O Qızıl Ordunun qələbəsinə...
Natiq susdu...
Alqış səsi ucaldıqca dörd bir yandan,
Əks-səda gəldi ona,
Bağmeşədən, Üçdükandan.
Dalğa-dalğa, halqa-halqa getdi o səs,
Mahal-maşal, şəhər-şəhər
O sədaya səs verdilər.
Faşistləri sevməyənlər,
Müharibə sevməyənlər...

### *Ümidlə iradə birləşəndə...*

Yığılıb bir otağa redaksiya heyəti,
Görün nədən başlandı onların ilk söhbəti:
"Kağızımız varmı?
– Yox.
– Mətbəəmiz?
– O da yox.
– Hürufçin?
– Yoxdur o da.
– Pul necə?
– Bəs nəyimiz var onda?
– Qulaq asın mən deyim onları birbəbir,
Vərəqə çap etməyə iradəmiz varmı, var.
Sözümüz çatar, çatar.
Rəssam necə – Ələkbər:
Mühərrir kim – Əxlaqi.
Müsəhhih – Danişbecu.
Kitablar çap etməyə kifayətdir bu ordu..."
İradənin önündə yox oldu maneələr.
Bir fəhlə yumruğu hazırladı Ələkbər.
Onun zərbəsi altda parça-parça qırıldı
Faşistlərin nişanı.
Bu oldu vərəqənin həmişəlik ünvanı.
Baş məqalə, felyeton, şer, bir də xəbərlər
Hazır oldu o səhər.

Cövdət mətbəəsində çap oldu vərəqlər.
"Ziddi-faşist vərəqi" Azərbaycan dilində,
Bu bir qığılcım idi,
Ağsaçlı Ərdəbilin
Minillik niskilində.
Hamı qəzet görəcək,
Xəbərləri biləcək
Doğma ana dilində.
Oxuyacaq qocalar,
Oxuyacaq cavanlar,
Oxuyacaqdır bunu
Ömründə əllərinə
Ruznamə almayanlar.
Namindən Nirə kimi,
Xalxaldan Muğanadək
Oba-oba, elbəel
"Ziddi-faşist" gəzəcək.

### *Qəzet satan Zeyni*

Səhər günəş doğan zaman
Gəldi Zeyni:
– Verin, verin vərəqəni.
Müştərilər gözləyirlər, axı, məni.
Rəislərə "müjdə" verim,
Hacılara müftə verim.
Tacirlərə bir qırana satım gərək.
Tez olun ki, karvansara açılmamış
Hücrələrə çatım gərək.
Prədməlik, Təzəmeydan,
Şeyxqabağı, Körpübaşı,
Unçu meydan, Misgər bazar,
Gör nə qədər müştəri var.
Min nüsxə ver, ancaq çatar.
Küçələri, meydanları
Zeyni bir-bir saya-saya,
Nəzər salır vərəqədə ünvanlara.



Əzbərləyir,
Hansı sözü harda deyim,
Kimə deyim.
Zilmi deyim, bəmmi deyim.
Elə deyim hamı bilsin,
Dostlar gülsün,
Düşmən ölsün...

Təzə açır qapıları dükandarlar,
Qaş-göz ilə, oğrun-oğrun danışırlar:
– Ağa, təzə nə xəbər var?
Ağa çiynin çəkib durur.
Deməк təzə bir söz yoxdur.
– Məşdi, sizdə nə xəbər var?
Tər hənalı saqqalına
Çəkir – Məşdi sağ əlini.
Demək qorxur Məşdi hələ,
"Bu işlərə qoşma məni,
Saqqalımı verrəm ələ".
Qınamıram mən onları,
Məmurlardan qorxanı var,
Xəbərçidən çəkinən var.
Düşünür ki, bir söz deyər,
"Elə olmaz, belə olar..."
Siyahıya düşər adı.
"Bəlkə elə düz deyirlər,
Bu faşistlər yaxındadır..."
"Bəlkə elə düz deyirlər,
Bu gün-sabah
Göründülər birdən-birə.
Bir söz üstə keçər girə...
Qəlbindəki qəlbindədir,
Nə işi var ortalığa düşsün nahaq".
El sözüdür,
"Ağrımayan başımıza
Nədən ötrü saqqız salaq".
Elə bu vaxt

Qoltuğunda "Ziddi-faşist" vərəqəsi,
"Hicaz" üstə zilə qalxıb nazik səsi
Zeyni gəlir...
Rastabazar cingildəyir:
– Qulaq asın, ay ağalar!
Məndə təzə xəbərlər var!
Bizim dildə ruznamə,
Qoy sevinsin dostlarımız,
Düşmənlərsə batsın qəmə.
Alın, alın!
Görün faşist orduları nə haldadır,
Əhvalları soğan dadır!
Alın, alın!
Kasıblara on şahıya,
Dövlətlilər pulsuz alsın,
Alın, alın!
Kimisinə bir göz dağı,
Kimisinə müjdə olsun...
Baqqallara, bəzzazlara
"Ziddi-faşist" vərəqəsi
Zeyni sata-sata gəlir.
Zeyni dönüb oda gəlir.
Karvansara qabağında
Durur bir an:
– Ay ağalar, ay hacılar,
Məndə təzə xəbərlər var.
Alın, alın bu vərəqi,
Görün necə şerlər var:
"Öz aramızdır, ay hacı,
Çox pis olub halın sənin,
Bu Hitlerin yolunda lap
Getdi tamam malın sənin..."
"Alın, alın!
Hitler indi öz başının hayındadır.
Səngərlərdə donub qalmış
Ordusunun vayındadır..."
Zeyni girir hücrələrə:



"Buyur, hacı, buyur, ağa...
Ağa alır vərəqəni
Cürət etmir bir söz desin
Zeyni kimi bir "qonağa".
Zeyni gəzir bazar-bazar,
Zeyni gəzir meydan-meydan,
Gür səsilə dolur hər yan:
– "Mir Heydər"in çatdı sonu,
Gözləməyin daha onu...
Zeyni hardan gəlib keçir,
Ağ vərəqlər görünürlər
Hücrələrdə, dükanlarda.
İstəyərək alan da var,
İstəməyib alanlar da.

### *Üç il cəbhədə*

Üç il döyüş getdi, bizim şəhərdə,
Bazarda, evlərdə, məhəllələrdə.
Fikirlər, məsləklər vuruşdu burda.
Cəbhələr üz-üzə durmuşdu burda.
Səngərsiz, tüfəngsiz, topsuz cəbhələr,
Zaman-zaman gələn sonsuz cəbhələr.
Bir yanda insanlıq, əmin-amanlıq,
Bir yanda minillik bir hökmranlıq –
Puldan, ağalıqdan, mülkdən ayrılır.
Rişəsindən qopur, kökdən ayrılır.
Odur ki, toplayıb son qüvvəsini,
Tərk etmək istəmir öz cəbhəsini.
Axı, inam duyur özündə onlar,
Min cilidə girir bir gündə onlar.
Gah mülayim olur, lap ipək kimi,
Gah da qəzəblənir bir pələng kimi.
Bir gün mömin olur, bir günsə asi,
Üç il belə getdi bizim şəhərdə
Əqidə davası, məram davası...
Gizlində, aşkarda pıçıldaşırlar,

Deyəndə: "Ay hacı, gözləməniz var?"
Deyirdi: "Var, oğul, heç tələsməyin,
Cücəni payızda sayarsız yəqin".
Fəqət günlər keçdi, zaman dəyişdi,
Şəhərin havası yaman dəyişdi.
Daha görünmədi meydanda onlar,
Daha orda-burda yığılmadılar.
Hacının elə bil beli əyildi,
Səhər evdən çıxıb hücrəyə gəldi,
Axşam da eləcə qayıtdı geri.
Az qaldı saqqalı süpürsün yeri.
Çoxusu dəyişdi libasını da,
Buxara börkünü, əbasını da.
Guya keçmişindən ayrıldı tamam,
Guya təzələndi dünənki adam.
Aşkarda döyüşə bilməyən hacı,
Şayiə yaymaqda gördü əlacı.
Hər səhər şəhəri gəzdi bir xəbər:
"Geri çəkilməklə guya faşistlər
Siyasət yürüdür, hərbi siyasət..."
Neçə gün tamam
Bazarda, dükanda gəzdi bu söhbət.
Elə ki, bir yana çıxmadı yalan,
Xəbər yayıldı ki: "Xəlici-Farsdan
Sualtı qayıqlar çıxıb sahilə,
Almanlar cənubu keçirib ələ..."
Beləcə yalana yalan qoşuldu,
Bəzən bu sözlərə inanan oldu.
Dedilər: "Kim bilir, düz olar birdən,
Niyə öz boyuma kəfən biçim mən.
Nə "hə" deyim, nə "yox", gizləyim hələ,
Birdən elə oldu, olmadı belə..."
Gecə yarasalar keçdi hücuma,
Bir gün xəbər gəldi, bir dəstə adam
Neçə dostumuzu döyübdür axşam.
Bir gün neçəsinə böhtan atdılar,
Polislər küçədə, evdə tutdular.



Zeynini saldılar hədə-qorxuya,
Məktub göndərdilər: "Bu yoldan, guya,
Dönməsə yolunu gözləyir ölüm.
Bir gün doğranacaq o dilim-dilim."
Son həddə çatmışdı düşmənin kini,
Bu hədə-qorxunu duyurdu Zeyni.
Bilirdi üzünə gülən hacılar,
Onun ölümünə çıxarıb qərar.
Hər şeyi, hər şeyi Zeyni bilirdi,
Açıb hücrələri bir-bir girirdi.
Yenə hacılara şer oxuyurdu,
Yenə tacirləri lağa qoyurdu...
Hər gün bir xəbərlə gəlirdi Zeyni,
Cəbhədən zəfərlə gəlirdi Zeyni.
– Faşist orduları düşüb qaçağa
Sərhəddən qovuldu, – o verdi xəbər.
Dedi: "Gözün aydın, ağa, ay ağa,
Polşa azad oldu" – o verdi xəbər.
Bir gün də əlində qırmızı xətlə
9 May yazılmış vərəqə gəldi.
Bütün Ərdəbilə bir məhəbbətlə
Qələbə gününü o xəbər verdi.

Deməyin cəbhədə olmayıb Zeyni,
Yoxdur siyahıda belə bir əsgər!
Yox, bir gün döyüşdən qalmayıb Zeyni,
Stalinqraddan Berlinə qədər
Vuruşa-vuruşa gedibdir o da.
Neçə yol ölüm də çıxıb önünə,
Zeyni sarsılmayıb vuruşmalarda,
Üzüağ gəlibdir zəfər gününə.
"Ziddi-faşist Zeyni"
Hələ bu adı
Dostlar Reyxstaqın daşında yazıb.
Kim deyir ki, Zeyni əsgər olmadı
Qələbə günündə Vətən torpağı
Onu siyahının başında yazıb...

### *Otuz ildən sonra*

Otuz bahar gəldi keçdi,
Otuz dəfə güllər açdı
Mərmilərlə yaralanmış ana torpaq.
Otuz dəfə 9 Mayı
Salamladı Qızıl bayraq.
Otuz yaşlı igid olub
Bayram günü doğulanlar.
Otuz ildir sinəsində
Qələbənin nişanını
Gəzdirirlər qəhrəmanlar.
Otuz ildir mən də sizin
Adınızı öz qəlbimdə gəzdiriəm.
Nə çəkdiniz, nə etdiniz,
Siz də necə igiddiniz
Mən bilirəm.
Əxlaqını kim tanıyır mənim qədər?
O yazdığı məqalələr
Bir zamanlar daşdan keçdi.
Dəryaz oldu, kəsdi-biçdi
Yolumuzda qanqalları.
Qəribə bir xilqət idi,
Həm çəlimsiz, həm də gödək.
İstedadı nemət idi,
Fikri aydın üfüqlər tək.
Hər sözünə hədəf olan
Siqlətinə tablaşmazdı.
Üç il tamam dincəlmədən
Gecə-gündüz yazdı, yazdı.
9 Mayda əllərini dayaq verib
O, belini düzəldəndə
Elə bildim uca dağdı.
Qələbəylə qayıtmış bir əsgər kimi
Alnıaçıq, üzüağdı.
Mən yazmasam, kim yazacaq
Mənim cəbhə dostlarımın



Hünərini, himmətini?
Şer edib, dastan edib
Kim salacaq dildən-dilə
Döyüşünü, cürətini?..
Bütün gecə sübhə kimi
Özü boyda bir təkəri
Fırladardı Danişbecu.
Yorulanda, bir az ciddi
Deyərdi ki:
Bu təkərin çatmır gücü.
Görün necə cırıldayır.
Yrəyimə od salacaq onun səsi.
Belə getsə səhərədək
Çap olunmaz "Ziddi-faşist" vərəqəsi.
Bir piyalə çay veriniz içək barı.
Qüvvət yığıb biz hücuma keçək barı.
Şəkərçörək, qurabiyə,
Paxlava da lazım deyil.
Qoy qurtaraq bu işləri,
Bax o günə saxlayın siz
Noğulları, nabatları,
Püstələri, kişmişləri.
Onda hər şey yeyəcəyik,
Bu günləri yada salıb
Lətifətək danışardı.
Güləcəyik, güləcəyik...
Çox məzəli oğlan idi,
Sevincini, kədərini
Lətifətək danışardı.
Zənn etməiyn taleyilə barışardı.
Dərdlərini nəql edərdi,
Sakit-sakit, elə-belə.
Diqqət edən görərdi ki,
Qəzəbi də, nifrəti də
Dodağının gülüşünə
Qarışıbdır gilə-gilə...
Üç il pulsuz işlədik biz.

Deyirdi ki, qəm etməyin
Aylığınız banka gedir.
Pul adamı tənbəl edir.
Pulum olsa işləmərəm,
Neçə-neçə illərimin əvəzinə
Çilovpozda oturaram
Hey yeyərəm, hey yeyərəm...
Mənə aylıq yazsaz əgər,
Yazın onu Kamranxanın ayağına.*

Pullarımı yığıb qoysun sandığına,
İstəsəm də o verməsin.
Elə yerdə gizlətsin ki,
Qoy özü də heç bilməsin.
İndi mənim gözlərimdə
Bir məcməyi boyda olur onşahılıq,
Qorxuram ki, ciblərimə yerləşməsin.
Sonra yenə fırladardı
O, təkəri ağır-ağır,
Görərdin ki, çap etdiyi
Vərəqləri sayır, yığır.
O fırlatdı təkərini o qədər ki,
İstədiyi zaman gəldi.
Dövri-zaman təzələndi.
9 Mayda, zəfər günü
Cəbhələrdən, döyüşlərdən
Gələn odlu xəbər susdu.
O gün təkər fırlanmadı,
Təkər durdu, təkər susdu...

Ərdəbildə üç il tamam,
Səhər, axşam
Bir otaqda yığışanlar
Elə bil ki, o gün səhər
Yorğunluğu dərk etdilər.

*Kamranxan Ərdəbildə ən xəsis adam idi.



Qucaqlaşıb öpüşdülər,
O otağı tərk etdilər...
O gün səhər,
Ərdəbildə küçələrə
Çıxmış idi bütün şəhər.
Çaharrahda mitinq oldu,
Meydan doldu.
Yenə Qudsun eşidildi ötkəm səsi:
– Bu gün başa çatdı, dostlar,
Aydınlığın zülmət üstə qələbəsi.
Toplar susdu, tanklar durdu,
Berlinədək gedib çıxdı Qızıl Ordu.
Zaman özü hökm verdi,
Kim haqlıdır, kim haqsızdır.
Milyon desəm yenə azdır,
Analar var sinəsində oğul dağı,
Gəlinlər var boğazında
Düyünlənib hıçqırığı.
Osvensimdə, Buhhenvaldda
Milyon-milyon insan oğlu külə döndü.
O sobalar daha söndü.
Fəqət hələ sönməmişdir
Ürəklərin yanan dağı.
Ataların ayrılığı,
Oğulların ayrılığı.
Zaman-zaman ayrılanlar tapışanda,
Ayrılanlar qovuşanda,
Vüsal olar, bayram olar.
Kimisinə hicran yenə hicran olar.
Yol gözləyən könüllərdə
Nigaranlıq ümman olar.
Fəqət aylar, illər keçər
Göz bağlayar ölənlərin, itənlərin
Ağrısı da, yarası da.
Oğulların hesabına boş görünməz
Ataların sırası da.
Ağır günlər kimisinə tarix olar
Kimisinə nağıl olar.
Ancaq yenə o günləri
Xatırlamaq ağır olar...

Otuz bahar gəlib keçdi,
Ərdəbildə bu sözləri
Eşitdiyim gündən bəri.
Xatırladım o günləri.
Otuz ildə ürəyimdə saxladığım,
Otuz ildə dönə-dönə yoxladığım
Dostlarımı xatırladım.
Yada düşdü 42-dən 45-dək
Keçdikləri döyüş yolu.
Əzab dolu. sevinc dolu, xətər dolu.
İndi onun bir adı var:
ZƏFƏR YOLU!
Bax, bu yolu ilkin keçən
Xilaskar bir ordu oldu.
Asiyanın, Avropanın xilaskarı.
Tək olmadı bu dünyada
Bu dünyanın xilaskarı.
O, ellərdən qüvvət aldı,
Ellər ona hayan oldu.
O, sellərdən sürət aldı,
Sahilsiz bir ümman oldu.
Almaniyanın özündə də
Bizim Sovet Ordusuna
Səs verənlər az olmadı.
O gün dili kəlam tutan,
Əli silah, qələm tutan
*Harda ona qoşulmadı?*
Mənim cəbhə yoldaşlarım,
İndi sizi xatırladım.
Azadlıqçın coşub-daşan
Eşqinizi xatırladım.
Xatırladım.
Axı, bu gün
Yer üzünün
Əmin-amanlıq bayramıdır.
Azadlığı sevənlərçin
Bu azadlıq bayramıdır,
Bu azadlıq bayramıdır...

*1975*



## POLYAK QIZI SƏLMİ

*(Müqəddimə əvəzi)*

Bu il Avropaya nə tez yağıb qar?
Bu il Avropaya ağır gəlib qış.
Qardan divar çəkib elə bil yollar,
Kəndlər, biçənəklər qar altda qalmış.

Mən də qışda çıxdım bu il səfərə,
Demədim: – Gözləyim.
Uzaq yoldur bu.
İlk dəfə gördüyüm qürbət bir yerə
Gedirəm... bəlkə də ağır oldu bu...

Dedilər: – Düşərsən dümana, çənə,
Axı, bu, Polşaya ilk gedişindir.
Almaniya olsaydı bilərdin yenə
Yollar hardan gəlib hayana gedir...

İndi gecəyarı, yol buz,
maşında
Bütün bu söhbətlər düşür yadıma.
Yəqin deyəcəklər kamil yaşında
Ehtiyatsız olub...
*Bilmirlər amma...*

Bilmirlər bu adi bir səfər deyil,
Deyəm ki, qar, soyuq... daha nə bilim...
Doğrusu, bu mənə əskiklikdi, bil;
Sağikən cərgədə boş qalsın yerim.

## QƏHVƏXANADA

Gəlmişəm Polşaya,
Nigaranlıq da,
Tərəddüd, sual da arxada qalmış.
Fikrimdə bir şey var: bu dumanlıqda

Görəsən bizimlə nə edəcək qış?
Ağappaq geyinib elə bil aləm,
Maşın sürüşdükcə buz üstə bəzən –
Deyirəm, mən gedib çıxa bilmirəm...
Sonra utanıram tərəddüdümdən...
Birdən ləngər vurub dayanır maşın,
Məni dövrələyir qara fikirlər.
"Keçdik pəncəsinə deyəsən qışın..."
"Yəqin ki, yolumu gözləyəcəklər..."

"Yəqin ki..." şoferə dönüb baxıram,
Şofer gülümsəyir:
– Buyurun, qonaq.
Pis olmaz burada qalsaq bu axşam,
Yoxsa səfərimiz çətin olacaq.
Bu, yolda yeganə qəhvəxanadır.
Yollar buz bağlayıb, sanki aynadır.
Bir də qatılaşır duman anbaan.
Burda qalmağımız yaxşıdır yəqin
Tələsib gecəni yolda qalmaqdan...

Keçirik içəri,
geniş, işıqlı,
Tavanı, divarı ağ, yaraşıqlı
Bir qəhvəxanadır...
Mizlər, səndəllər...
Bir yanda oturub beş-altı nəfər.
Bir mizin ardına keçirik biz də.
Elə yorulmuşuq,
hər ikimiz də –
Dinib danışdıran olmasa əgər
Yatarıq beləcə səhərə qədər...
Fəqət bir şey içib qızışmalıyıq,
Sonra da sübhədək danışmalıyıq.
Bakallar, fincanlar artdıqca mizdə,
Deyəsən qızışır bədənimiz də...
Şofer xumarlanır.
Qoy yatsın bir az.
Axı, o yatmasa yol getmək olmaz...



### *Tanışlıq*

İndi tək qalmışam,
Xidmətçi qızdan
Qəhvə istəyirəm yenə bir fincan.
Qəhvəni gətirir yaşlı bir qadın.
Cənub göyləri tək dupduru, aydın
Mavi gözlərində bir mehribanlıq.
Baxır təbəssümlə mənə bir anlıq.
Mən də ixtiyarsız gülürəm,
fəqət
Anlaya bilmirəm nədir bu ülfət.
Deyəsən gözümdə görünən sual
Qadının qəlbində əks olur dərhal:
– Bayaqdan görürəm, ay Şərqli qonaq,
Ya çay içirsiniz, ya qəhvə ancaq.
Axı, şərqlilərdə başqa adət var,
Süfrədə neməti çox xoşlayarlar.
Dedim ki: – Elədir, hörmətli xanım,
Ancaq yol üstdəyəm...
– Bilirəm, – dedi –
Dumanda yol getmək, axı, çətindir.
Bir də ki, səhərə çox qalır hələ.
Məni bağışlayın, bəlkə sizinlə
Belə danışmağım yersiz görünür.
Deyirsən, bu sorğu, bu sual nədir.
Dayana bilmədim sizi görəndə,
Axtarsan bir qədər şərqliyəm mən də.
Təəccüb etməyin şərqliyəm, ağa.
Mənsə ixtiyarsız qalxdım ayağa,
Bu "şərqli qadın"ın önündə bir an
Donub heykəl kimi dayandım, inan.
İstədim deyəm ki, düzü, ay xanım,
Şərqli olmağına necə inanım.
Baxdım saçlarına, dümağ – qar kimi,
Mavi gözləri də bulaqlar kimi
Elə bil indicə çağlayacaqdı.

Əlləri göy xətli bir ağ varaqdı.
Alnında illərin qırışı çin-çin,
Üzündə təbəssüm, bir də ki təmkin...
Elə ilk baxışda bu aydın idi –
Tamam avropalı bir qadın idi...
Mən donub qalmışdım,
o dindi yenə: –
– Bilirəm nə üçün baxırsız mənə:
"Şərqli olmağına necə inanım..."
Dedim ki, əfv edin mümkünsə, xanım,
Buyurub əyləşin, bir qəhvə için.
Şərab gətirsinlər bəlkə sizinçin?
– Əlbəttə qəhvədən yaxşıdır şərab.
Ey, Maya, şərab ver,
Doğrusu, cənab,
Mən yox, siz qonaqsız bu axşam mənə.
Bu qəhvəxananın müdirəsinə.
– Mən qəhvə içirəm şərab yerinə.
– Yəqin müsəlmansan, günahdır sənə?
Sevirəm iradə sahibini mən.
Rəhmətlik ərim də müsəlman idi,
O da içməmişdi heç sizin kimi.
Elə ki mənimlə Polşaya köçdü
Yazıq dərd əlindən içdi, nə içdi...
Deyirdi, ay Səlmi, sənin üçün mən
Keçdim hər şeyimdən...
– Adınız Səlmidir?
– İkinci adım.
Mən bunu ərimdən yadigar aldım.
Bu söhbət uzundur, sən danış, qonaq,
Elə istəyirəm Şərqdən danışaq.
Bəlkə bircə qədəh şərab içəydin?
Bilirəm səninçin günahdır şərab.
Səlminin xətrinə bu axşam, cənab,
Savabdan, günahdan bəlkə keçəydin.
Baxdım gözlərinə,
mavi gözlərin
Gördüm ümmanında bir kədər də var.
Sahilə atmamış onu dalğalar.
Bir doğma, müqəddəs, bir əziz kədər,
Təbəssüm donunda tərtəmiz kədər.



Dedim ki, Səlmi,
Mən nə müsəlmanam müsəlman kimi,
Nə də ki kafir.
İçsəm, ya içməsəm, hamısı birdir.
Səlmi gülümsədi:
– Bu əla oldu.
İçmək istəyirəm bu gün, doğrusu,
Mən sizi görəndə dərdim oyandı,
İçimdə elə bil bir ocaq yandı,
Yandı, o yandırdı dərindən məni.
Dedim ki, bu şərab dərdimdən məni
Ayırdı bəlkə də bir saat inan.
Mən susub dinlərəm, sən danışarsan
Vurğunu olduğum mehriban Şərqdən.
Sevgisi, hörməti bir ümman Şərqdən.
İyirmi ildir ki, görməmişəm mən,
İyirmi ildir ki, düşmür dilimdən...

### *Söz sözü gətirər*

Danışdım...
əlini qoyub üzünə
Körpə uşaq kimi baxırdı mənə.
Baxırdı, elə bil bu dəqiqə mən
Nağıl danışıram Məlikməmməddən...
O bir qədəh içdi,
İçdi yenə də.
Bu hal təsir etdi, düzü, mənə də
Dedim: – Bir arzum var,
mümkünsə, əgər –
Deyin, nədən sizə Səlmi deyirlər?
Səlmi danışmadı, susdu bircə an...
Nə isə axtardı öz yaddaşından...
Qəmdən kefləneni ayıldır şərab,
O həm sevinc verir, həm də iztirab.
Səlmi də sahildən qopmuşdu artıq,
Nə tamam kefliydi, nə də ki, ayıq.
Dedi ki, Səlmini soruşdun məndən?
Səlmi ölən zaman doğulmuşam mən.
Səlmi Ümmanımın sevgilisiydi,

Sevgi qayıqları daşlara dəydi,
O öldü... ölmədi Səlmi mənəm, mən.
Nə məni Səlmidən, nə onu məndən
Kim ayıra bilər? Bu ki, mahaldır!
Bu ad Ümmanımdan yadigar qaldı...
Bir qədəh də içdi... üzündə həycan
Baxdı gözlərimə o heyran-heyran.
– Ümmanın ölməsi düz üç il olar.
Qəlbimdə üçillik qəm var, ağrı var.
Onu şərqdə tapdım, qərbdə itirdim.
Taleyim beləymiş, daha nə bilim...
Mənə şərab tökün, ağayi Azər,
Ümmanım öləndən indiyə qədər
Şərab içməmişəm, inanın mənə,
Özümün yerimə, onun yerinə
Şərab içməliyəm, şərab səninlə,
Bu axşam nə yaxşı sən gəldin belə,
Həm sevinc gətirdin, həm kədər mənə.
İndi bu badələr nə edər mənə...
O alıb qədəhi şəraba baxdı,
Elə bil onunla danışacaqdı.
İçmədi qaytarıb qoydu yerinə.
– Dedin ki, Səlmidən danışım sənə?
Danışım, içməyə vaxtımız olar...

### *Qaçqınlar*

Yəqin ki, tarixdən xəbəriniz var,
Almanlar Polşaya hücum edəndə
Qaçqın dəstəsinə qoşulub mən də
Çıxdım Varşavadan.
Axı, ilk hücum
Atasız, anasız qoymuşdu məni.
Şərqlilər demişkən dərbədər oldum,
Neçə kənddən keçdik, şəhərdən keçdik,
Hörmət elədilər hər yerdən keçdik...
Bir axşam töyşüyüb dayandı qatar,



Düşdü vaqonlardan bütün qaçqınlar.
Soruşdum, haradır?
Dedilər: – Bakı.
İnanın o qədər yorulmuşdum ki,
– Daha mən burada qalıram – dedim, –
Yolların əlindən lap cana gəldim.
Güldü bu sözümdən qızlar, oğlanlar:
– Yəqin bu şəhərdə qohumunuz var?
– Yox, canım, buruqlar gəlir xoşuna.
– Bəlkə neft sevdası vurub başına.
– Dənizə bağlanıb, bilirəm bunu,
Delfin tək çimərək günlər uzunu.
– Məni də özünlə saxla, əzizim...
Hərə bir söz dedi.
Daha nə bilim...
Dedilər, güldülər... gülürdüm mən də...
Yaxşı söyləyiblər, toy-bayram olur
Dərdi də, qəmi də ellə çəkəndə.
Deyirəm dünyada nə qədər sirr var,
Hələ açmamışdır onu insanlar,
Bəlkə dərk eləmək hələ mahaldı.
Mənə söz atanlar Bakıda qaldı,
Bizisə bir dəstə ayırıb sola,
Dedilər ki, sabah düşürsüz yola...

Sonradan öyrəndim Bakıda qalan,
Mənim tanıdığım neçə qız, oğlan
Mühəndis olmuşdur...
Sevindim, düzü.
O gün ki, eşitdim bu xoş xəbəri,
Yazdım ki, dostlarım, bir görün sizi
Necə də böyütdü o neft şəhəri...
Tufan doğma yurddan qopardı bizi,
Məhv edə bilmədi.
                    Bu səadətdir.
Bakıya bağlayan taleyinizi,
Dağa dağ söykənsə böyük nemətdir...
Beləcə yazışdıq biz xeyli zaman.
Elə ki, sülh gəldi dünya üzünə,
Bir gün məktub aldım mən Varşavadan

Bildim Bakıdakı dostlarım yenə
Vətənə qayıtmış.
Sanki təzədən.
Hicrandan hicrana düşdüm bir də mən...

### *Astara-Təbri yolunda*

Dedim bir dəstəmiz sağa ayrılıb
Bakıda qaldı.
Bilmirəm nə üçün biz sola düşdük.
Elə ki gün batdı, göylər qaraldı,
Yenə vaqonlarda biz yola düşdük.
Getdik bütün gecə...
Dəmir təkərlər
Yeknəsəq mahnılar oxudu yenə.
Getdik, gözlərimdən asıldı kədər
Yuxu yerinə...
Niyə ayırdılar görəsən bizi?
Niyə biz qalmadıq Bakıda, niyə?!
Görəsən vaqonlar bu dəstəmizi
Çəkib aparırlar hansı ölkəyə!
Sual suallara hey calandıqca,
Vaqonlar yol boyu yırğalandıqca,
Gözümü yummadım səhərə qədər.
Birdən nəğməsini kəsdi təkərlər...
Yenə yığışdırdıq şeylərimizi,
Yenə maşınlara qoydular bizi,
Yadımda qalıb ki, körpüdən keçdik,
Dedilər İrana gəlib yetişdik...
İran – xatirimə nağıllar düşdü,
Qəlbimdə kədərlə sevinc görüşdü.
Qəmləndim, dərbədər düşmüşəm deyə.
Sevindim, gəlmişəm mən bu ölkəyə.
Mənə belə gəldi elə bu gündən
"Min bir gecə"dəki qəhrəmanlar tək
Sirli bir aləmə uçacağam mən...
Gəlir xatirimə bir səhər bizə
Üç məmur qoşdular, gedək Təbrizə.
Astara, Ərdəbil, sonra da Təbriz...



Neçə kənddən keçdik hörmət etdilər,
Qaş qara, göz qara, kirpiklər qara,
Bir cüt zəncir kimi hörüklər qara
Qızlar him-cim ilə söhbət etdilər...
Bir dağ aşırımında tufana düşdük, –
Yerdən də, göydən də ələnirdi qar.
Elə bil sahilsiz ümmana düşdük, –
Durdu maşınlar...
Endik maşınlardan,
hara gedək biz?
Hardadır Ərdəbil, hardadır Təbriz?
İlk dəfə ağladım xısın-xısın mən,
İstədim intiqam alım özümdən.
Ağlıma qəribə fikirlər gəldi,
Anam Varşavada bombadan öldü,
Mən qaldım, bu qalmaq kimə gərəkdi!
Əcəl gör haradan haraya çəkdi!
Qərib bir ölkədə, bir dağ başında,
Ölüb qalacağam.
Doğrusu özümə nifrət eylədim,
Niyə qaçqın olub buraya gəldim?!
Ağılsız bir uşaq deyim özümə?!
Mən kimə lazımam indi? Heç kimə!
Vətənimdə qalıb ölsəydim belə,
Cəbhədə ölərdim, ölməzdim belə,
Bu zaman zəng səsi gəldi uzaqdan,
Məmurlar qışqırdı: – Karvandır, karvan!
Sevindik, çatanda dəvə qatarı,
Tüstüsüz, matorsuz şərq maşınları.
Ömrümdə ilk dəfə dəvəyə mindim,
Sanki lövbər vuran gəmiyə mindim.
Qorxurdum, başını çevirib dala
Köpüklü ağzıyla tutacaq məni.
Bir göz qırpımında atacaq yola,
Ya da əjdaha tək udacaq məni.
Nə isə... Çox getdik biz ağır-ağır.
Bəlkə də yol mənə uzaq göründü.
Gəlib çayxanaya yetişdik axır,
Sevindim: bir işıq – ocaq göründü...

### *Çayxanada*

Çayxana dediyim böyük bir bina
Sütunlu tağları durub baş-başa.
Çətində bir ordu sığınar ona,
Zamanla, ruzgarla çıxıb vuruşa.
Bircə iş düşməmiş daş divarlara,
Usta necə hörüb elə var, qalır.
Şah Abbas tikdirən bu karvansara
Nəsildən-nəsilə yadigar qalır.
Neçə karvan salıb yola xətərsiz,
Qurd kimi dişini ağardanda qış.
Pənah gətirmişik indi ona biz,
Nə yaxşı dünyada bu bina varmış.
Keçirik içəri, qoca sahibkar
Bizi qarşılayır bir gülər üzlə.
– Buyurun, xanımlar, gəlin, ağalar,
Məni şad etdiniz gəlişinizlə...
Qoca hörmət ilə düşdü qabağa,
Getdik, döşəmədə al-əlvan xalı,
Bizi görən kimi qalxdı ayağa
Buxarı başında oturanların
Neçə ağsaqqalı, qarasaqqalı...
Təəccüb eylədim, qaçqın qızlara
Nədir hörmət belə, ehtiram belə?
Faşistlər Polşanı çəkirlər dara,
Bəlkə bu cənablar bilməyir hələ.
Qoca döşək saldı, mütəkkə qoydu.
Kiçik stəkanda çay gətirdilər.
Bir oğlan uşağı qocadan sordu:
– Xanımlar, əgər...
Qoca tez uşağın sözünü kəsdi:
– Oğlum, yemək gətir, sual əbəsdir.
Qalsın qulağında,
Bir də heç zaman
"Yeyirsən" sözünü sorma qonaqdan.
Səlmi gözlərini qaldırıb bir an



Xəyal aləmindən geriyə döndü.
– Tamam unutmuşam, axı, doğrudan
Siz də yol gəlmisiz, acçınız indi.
Bir şey yeyəydiniz... səhərə çox var.
Mən təşəkkür etdim: – Danışın, Səlmi,
– Onda şərab için, şərab ki, olar...
O içdi... Manyanı çağırdı yenə,
Məni danlamayın cənabi Azər.
Bu axşam içərəm, zəhər versələr.
Nə isə, Hafizə, Xəyyama rəhmət.
Harada qırıldı bizim hekayət?
Hə, düşdü yadıma, qəlbimdə maraq
Oturduğum yerdən hey boylanaraq
Ətrafa baxırdım, gənci, qocalı
Səhəri gözləyir hamı nigaran.
Neçəsi dövrəyə alıb manqalı,
Kimi çubuq çəkir, kimi də qəlyan.
İlk dəfə gördüyüm bu aləmdə mən
Elə bilirdim ki, əfsunlanmışam.
Kiçik bir nöqtə də qaçmır gözümdən,
Hər şey qəribəydi mənə o axşam.
Nə isə, gecədən səhərə çıxdıq,
Düzüldü qatara yenə də karvan.
Keçdik sıldırımlı, qarlı yollardan,
Gəlib min zəhmətlə şəhərə çıxdıq...
Təbrizə yetişdik, o ilk görüşdə
Miskin bir qocanı andırdı mənə.
Elə bil belini əymişdi qış da,
Boz çuxa geymişdi sanki əyninə.
Gözəllik ikidir, yaxşı məsəldir.
Biri batindədir, o biri üzdə.
Mən sonra bildim ki, necə gözəldir
Bu "*miskin*" görünən qoca Təbriz də...
Elə Səlminin də hekayətini
Təbrizdə eşitdim, Təbrizdə bildim.
O şəhər necə də dəyişdi məni,
Qaçqın tək getmişdim, xanım tək gəldim...

### *Həqiqətlər nağılı*

Ümmandan öyrənmişəm
Nağıl danışan zaman,
Əvvəlcə başlayardı
Biri var, biri yoxdan,
Deyərdim: aydın danış,
Ya yox söylə, ya da var!
Deyərdi varla, yoxun
Vəhdətindən yaranıb
Şərqdə bütün nağıllar...
Nağıl yaranan zaman
Həqiqətin donunu
Oğurlamışdır yalan.
Birində yox ədalət,
Məşriqdən məğribədək
Ancaq hökmü rəvanmış.
Birində var sədaqət,
Qırx arşınlıq quyuda
Ömürlük qandallanmış.
Məhəbbət də var imiş,
Səadət də, hicran da.
Vüsalın yolu bağlı,
Açar Gilan yolunda.
Dəvələr qatar-qatar,
Hicran mənzilə çatar.
Vüsal yox.
Sarban dincəlib yatar,
Xəyal yox...
Kərəm varmış dünyada,
Bir də Əsli həsrəti.
Nağıl olmuş onların
Sevgisi, məhəbbəti.
Ancaq qara keşişdə
Yoxmuş insaf, mürüvvət.
"Yox" bir tilsimə döndü
Varlığın yaxasında.
Kərəm yandı nəhayət.
Görürsən Ümman mənə
Nələr öyrədib, nələr.



Nağılların qoynunda
Nağıl olmuş sirlər...
Kərəm yanır nəhayət,
Fəqət, mənim söhbətim
Səlmidən hekayətim
Bir el nağılı deyil.
Sirlər dünyasının
Qapısı bağlı deyil.
Bir vaxt var idi Səlmi,
İndi yox.
Bir gün yenə var olar,
Dastanlarda doğular.
Kitablarda doğular...

### *Təbrizdə*

Təbrizə gəldiyim bir ay olardı,
Artıq mənzilim də, işim də vardı.
Qoca qarı idi ev sahibəsi.
O tək yaşayırdı, oğlu, nəvəsi
Başqa şəhərdəydi.
Dövləti, varı –
Oğlunun yanına getmirdi qarı.
Deyirdi: Bu baba ocağımızda
Gərək işıqlansın çırağımız da.
Əndərun, birunlu həyəti vardı.
Bir qoca bağbanı,
Bir də qulluqçusu orda yaşardı.
Adı... deyəsən ki... hə, Bətul xala.
Mənə ad qoymuşdu o, "qərib bala".
Sonralar öyrənib, bildim, sən demə
Ürəyi yanırmış qəribliyimə.
Onunçun evində mənə yer verib
Hər gün süfrə dolu nemətlər verib.
Ortada nə para, nə haqq, nə hesab.
Qəribə əl tutmaq səvabmış, səvab.
Düz bir il onunla qalası oldum,
Elə bil doğmaca balası oldum.
Elə öyrənmişdim qarıya mən də,
Ümmanın evinə köçüb gedəndə
Mənə belə gəldi

Anamdan ayrılıb gedirəm, inan.
Ah, o da bir dövran, bir günlər idi.
Çıxmaz ölənədək çıxmaz yadımdan...

### *Səlminin hekayəti*

Biri varmış, biri yox,
Biri acmış, biri tox,
Qəribə ruzgar imiş,
İki qardaş var imiş
Bir-birinə mehriban.
Birlikdə uzun zaman
Yer əkər, biçin biçər,
Yaşarmışlar birtəhər...
Böyüyün adı Həsən,
Kiçiyinki Məhəmməd.
Bir gün xırman üstündə
Belə edirlər söhbət.
Birinin oğlu olsa
Əgər birinin qızı,
Asimanda birləşsin
Onların bəxt ulduzu.
Həsən köçür dünyadan,
Oğlu doğulan zaman
Məhəmməd olur ona
Atadan da mehriban.
Oğlanın adı Ümman,
Qızının adısa Səlmi.
Bir yerdə böyüyürlər
Məktəb yaşına kimi.
Həsənin sözlərini
Xatırlayır Məhəmməd.
"Oğlumu məktəbə qoy,
Savad alsın həl-həlbət..."
Ümman Təbrizə gedir,
Səlmisə kənddə qalır.
Ancaq bəlli olmayır
Oğlan qürbətə düşür,
Ya qız qürbətdə qalır...
Ayrılığın yolunu
Əgər ümid qırmasa,



Vüsalın arxasında
İnam, dözüm durmasa,
Hicran əyər dağı da,
Yandırar torpağı da...
Ümman Təbrizə getdi,
Səlmi dözdü hicrana.
Səlmidən ayrılalı
Ümman düşdü ümmana,
Xəyal kəməndə döndü,
Xəyalın qanadında
Yenidən kəndə döndü.
Uşaqlıq günlərinin
Aləminə qarışdı.
Bir gün Səlmidən küsdü,
Bir gün yenə barışdı.
Fəqət ağıllı Səlmi,
Ümmana bağlı Səlmi
Ona göndərdi xəbər:
- Məni əgər sevirsən
Həkimlik oxu, Ümman,
Həsrətə də dözərəm.
Hicrana da dözərəm,
Mən yolunu gözlərəm.
Uşaqlıq etmə nahaq,
Məni səndən ayırsa
Tək ölüm ayıracaq...
Səlminin sözü qanun.
Ümman getdi qürbətə.
Lap uzaq məmləkətə.
Oxusun,
Həkim olsun...
Günlərin bir günündə
Vəfat edir Məhəmməd.
Səadət göz açmamış
Hücum çəkir fəlakət.
Qalır Səlmi, anası.
Bir də qürbət ölkədə
Əminin nişanəsi.
Ancaq Səlmi kəsməyir
Məktubunun ardını.

Ürəyində gizlədir,
Bu kədərini, ağrını.
Deyir, Ümman eşitsə
Birdən tələsib gələr.
Dərsini kəsib gələr...
Gündən-günə Səlmi də
Boy atır, gözəlləşir.
Cavanların içində
Adı dillərə düşür,
"Səlmi bulağa getdi..."
Biçin biçən oğlanlar,
Ot çalan pəhləvanlar
Hamı bulağa gəlir.
"Səlmi yaylağa getdi..."
Atların dırnağında
Qığılcımlar alışır,
Elə bil ki, cıdırda
Qəhrəmanlar yarışır.
Hamı yaylağa gəlir.
Səlminin şöhrətini
Xana verirlər xəbər.
– Bu qıza yer üzündə
Tapılmaz tay, bərabər.
Bircə gün gecikse xan
Əli çıxar şikardan.
Biri deyir: – Qaçırdaq,
Gecənin bir yarısı.
O biri tədbir tökür:
– Xanın elçisi getsə,
Qızı yalvarıb verər
Məhəmmədin qarısı.
Ancaq zalım xanın da
Həsənlə Məhəmmədin
Əhdindən xəbəri var.
Atalar ölübsə də
Ümman sağdır, düşünür –
Bunun da xətəri var...
Hər gün bir söz deyirlər
Xan-dinib danışmayır.
Bu xətərli sövdaya



Ürəkdən yapışmayır.
Bir gün bulaq başında
Səlmiyə rast gəlir xan.
Səlminin gözəlliyi
Onu endirir atdan.
Xan qıza salam verir,
Çox mehriban danışır.
Ümmanı da soruşur...
Sonra minib atını
Kəndə sarı uçur o.
Sanki onu yandıran
Bir atəşdən qaçır o.
Görənlər heyran qalır,
Səlmi durub, xan qaçır.
Cəllad şikardan qaçır.
Yox, qaça bilməyir xan
Gözəllik afətindən.
Qəlbində baş qaldıran
Dilsiz məhəbbətindən...
Xan yatmaır gecələr.
Diksinir hər xəbərdən.
Öz-özünə deyir ki,
Ymman dönər səfərdən...
Daha dözə bilmir xan,
Qıza məktub yazdırır
O, Ümmanın adından...

"İndi necə yazım sənə dərdimi,
Günah tək məndədir, tək məndə, Səlmi.
Mən hardan bileydim belə olacaq
Bu qürbət ölkəyə gələndə, Səlmi.

Kaş xanın yanında qalaydım nökər,
Kənddə yaşayardıq bəlkə birtəhər.
Səndən ayrılalı düşdüm dərbədər,
Məni qəbul etməz vətən də, Səlmi.
Mən sənə hər şeyi danışmalıyam,
Taleyim bəd gəlib, barışmalıyam.
Ancaq mən özümlə vuruşmalıyam
Özümü salmışam kəməndə, Səlmi.

Daha mən nə üçün səni aldadım,
Burda evlənmişəm, evim, arvadım.
Deməli ömürlük bu yerdə qaldım,
Bil, gələn deyiləm mən kəndə, Səlmi..."

Səlmi alır məktubu,
Deyir Ümmandan deyil!
Ümman belə yazarmı?
Məhəbbət atəşinə
Yanan belə yazarmı?
Yox, yox inanmıram mən.
Bu sözlər necə çıxar
Ümmanımın dilindən...
Yalan bəzən doğrunun
Örtüyünə bürünür,
Yalanın qabağında
Doğru aciz görünür.
İnam bir yana çəkir,
Şübhə çəkir bir yana.
Ancaq mümkün deyildi
Xan yazdıran məktuba
Sevən bir qız inana.
Axı, xan hardan bilsin
Məhəbbət dünyasının
Ayrı bir aləmi var.
Hicranın da sevinci,
Vüsalın da qəmi var.
Məhəbbətdən uzaqdır
Şübhədə boğulanlar...
Xan istərdi Səlmini
Ata şübhə oduna,
Sonra bu köməksizin
Guya çatıb dadına,
Uzada öz əlini.
Sessizcə ram eyləyə
Bir kəndin gözəlini...
Səlmi rədd edir xanı.
Xan qorxur üzə çıxsın
Məktubunun yalanı.
Fərraşlara əmr edir



Oğurlayırlar qızı.
Səlmini alıb gedir
Xan özü...
Səlminin gözü bağlı.
Səlminin ağzı bağlı.
Səlmi atın tərkində,
Nə danışır, nə dinir.
Kim bilir ki, bu anda
Xan nə haqda düşünür...
Səlmi nəyi düşünür...
Yol uzaq, gecə qara,
Görəsən bu zalım xan
Onu aparır hara?
At, təpədən sallanıb
Enir köpüklü çaya.
Səlmi də qulaq asır
Çaydan gələn haraya,
Onun son ümidinə
Haray verən haraya...
Su kəhərin dizində,
Gedir at.
Üzənginin gözündə,
Gedir at.
Səlmi qısılır xana
Bu anda.
Çöpə pənah gətirir,
İnsanlar boğulanda.
Xan deyir: – Qorxma, Səlmi,
Mən malımı, mülkümü
Axıdaram bu çaya,
Ancaq səni vermərəm.
At gedir qədəm-qədəm...
Su qalxır qarış-qarış,
Xanın dizinə çatmış,
Qızın dizinə çatmış.
Sanki artır qorxudan
Səlminin həyəcanı.
Köksünə sıxır xanı.
Xan məst olur elə bil
Qızın bu ülfətindən.

Səlmisə taleyinin
Sonuncu fürsətindən,
Elə bil qüvvət alır.
Qucaqlayıb xanı da
Özüylə suya salır.
Dalğalar hay qoparır,
Çay öz qurbanlarını
Qucaqlayıb aparır...
Dalğaların səsində,
İntiqam var, qəzəb var.
Sıyrılmış qılınc kimi,
Parçalamaq istəyir
Zalım xanı dalğalar.
Dalğaların səsində,
Bir inilti yalvarış.
Səlminin örpəyindən
Dalğalar çalma qoymuş...
İki aləm əks olur
Dalğaların hayında,
Məsum bir quzu ilə
Bir canavar boğulur,
Qızılözən çayında...

### *İlk tanışlıq*

Şəfqət bacısıyam xəstəxanada,
Günləri, ayları sayırdım bir-bir.
Bəzən dözməyirdim bircə ana da,
İntizar olanda an da ləngiyir.

O zaman cəbhədən gələn hər xəbər,
Qəmimin üstünə qəm qalayırdı.
Mənə ürək verən, təskin verənlər
Elə bil qəlbimi parçalayırdı.

Dərd çəkmə deyəndə, doğrusu, hər kəs,
Baxırdım üzünə eləcə mat-mat.
Dil də bilmirdim ki, bir soruşam bəs
Necə dərd çəkməyim? Sən mənə anlat...



O vətən, bu qürbət, bu mən, bu hicran,
Hardan hara atdı rüzigar məni!
Kədərsiz yaşaya bilsəm bircə an,
Bunu dərk edənlər qınayar məni.

Yaman kövrək idi o zaman qəlbim.
Bətul xalaya da demişdim bunu.
Soyuq baxsa idi üzümə hər kim
Bəlkə dindirməzdim illər uzunu.

Bir həkim var idi, cavan bir həkim,
Bahar buluduydu qaşı-qabağı.
Dərdini, qəmini bilməzdi heç kim,
Yenə oturmuşduq bir axşam çağı
Lap belə, sizinlə oturduğum tək.
Dedi ki, "Ürəyim darıxır yaman,
Bilmirəm nağıldır, ya da ki, gerçək,
Bir hekayət desəm qulaq asarsan?"
Danışdı Səlminin hekayətini,
Sanma mənim kimi nəql eləyirdi.
O nakam gözəlin fəlakətini
Danışa-danışa o inləyirdi.

Bir Şərq əfsanəsi, yoxsa həqiqət,
Bilmədim hansını dinləyirəm mən.
Lal-dinməz oturdum bir xeyli müddət,
Sanki ixtiyarım getdi əlimdən...

Bir kəlmə danışa bilmədim, düzü,
Bilmədim nə zaman getmişdir həkim.
Sanki hər kəlməni, sanki hər sözü,
Təkrar edə-edə əzbərləyirdim.

O gecə sübhədək hey yuxu gördüm,
Gördüm ki, Səlminin üzü-gözü qan,
Necə də dəhşətli, qorxunc bir ölüm –
Xanı asmışdılar ayaqlarından.
Səhər xəstələndim... Qızdırmam artır,
"Səlmi... Səlmi..." deyə sayıqlayıram.
Yazıq Bətul xala yamanca qorxur,
Həkimin dalınca göndərir adam.

Düz bir həftə yatdım,
o cavan həkim
Gəldi dəydi mənə hər səhər, axşam.
Elə ki, ayılıb özümə gəldim,
Dedi ki: – Yanında çox günahkaram.

Hey "Səlmi" deyərək sayıqlayırdın
Mənim dərdlərimə sən ağlayırdın.
Dedim: – Sən Ümmansan məgər, ay həkim?
Dedi: – Yoxdur ondan xəbərim mənim.
Ancaq Səlmi olmaq istəsən əgər
Ümman hüzruna baş əyib gələr.
Mən başa düşmədim bu işarəni,
O, Səlmi olmağa çağırır məni...

Mənə Səlmi dedi o gündən hamı,
Sanki zövq alırdı bu addan həkim.
Elə ki evləndik, mən toy axşamı
Bildim ki, Ümmanmış həkimim mənim...

### *Bir anlıq sükut*

Səlmi susdu, elə bil bir heykələ döndü o,
Yanan bir ocaq idi, yavaş-yavaş söndü o.
Xatirələr dünyası onu apardı yenə,
Cavanlıq günlərinə...
Səlmi susdu, mən susdum,
gözlərin aynasında
Sükut buza çevrilib naxış saldı bir anda.
Kim dinib, kim qıracaq görən ümman sükutu?
Xatirələrlə dolu bu mehriban sükutu?!
Şərab süzdüm, al şərab günəşin telləridi,
Sükut buzu əridi, sükut özü əridi.
Qaldırdım piyaləni: – Bir qurtum şərab için,
Xəyallar dünyasından bizim aləmə köçün...
Səlmi güldü: – Təbrizdən bir dünya xatirəm var,
Nə deməklə qurtarar, nə yazmaqla qurtarar.
45-ci il idi, xatirimə gəlir ki...
Məni də o günlərə alıb apardı Səlmi...





Ona danış dedim, o da danışdı,
Fəqət demədim ki, bu xatirələr
Mənə tanışdır.
Keçdi gözlərimdən doğma səhnələr,
Təbriz, Urmiyə, Ərdəbil, Əhər...
Qaraqaş, qaragöz o gülər oğlan
Yəqin Ümman imiş...
Düz deyirsiniz –
Bir gün bayram kimi geyindi Təbriz.
Bir ildə bir əsrin işini gördük,
Bir il ürək dolu sevindik, güldük.
Bir ildə dərk etdik özümüzü də.
Dünyaya car çəkdik sözümüzü də.
Qəribə dediniz, Səlmican, bunu,
– Bizim o ilin,
Nə əvvəli vardı, nə də ki, sonu.
Bizim ömrümüzdə o nemət idi.
Röyaya bənzəyən həqiqət idi.
Bir il çox gec gəldi, çox tez qurtardı,
İllərin, günlərin göyçəyi idi,
Elə bil bir bahar çiçəyi idi,
Küləklər, çovğunlar aldı apardı...
Yenə də cəbhəyə getdik birbaşa,
Getdik vuruşa.
Sonra da hərəmiz bir elə düşdük.
Gör harda ayrılıb harda görüşdük?
Baxdım Səlmiyə mən, susurdu Səlmi,
Susurdu niskilli bir adam kimi.
Dedi: – Heç yadımdan çıxmaz o gecə
Mən necə ayrıldım Təbrizdən, necə.
Kiçik bir maşında Ümman, bir də mən
Çıxdıq Təbrizdən.
O şəhər gözümdə bir cahan idi.
Bu maşın cahandan ayırdı məni.
Ulduzu sayrışan kəhkəşan idi,.
Maşın kəhkəşandan ayırdı məni.

O mənim doğmamdı, əzizim idi,
O mənim Varşavam, Təbrizim idi,
Ayrıldıq, qəlbimdə niskili qaldı,
İlk andan fərağa dözə bilmədim.
Maşın necə getdi, düzü, bilmədim.
Başım çiynim üstə bükülü qaldı.
Baxdım, kəhkəşan da söndü elə bil,
Baxdım, o ulduza döndü elə bil.
Yumdum gözlərimi, nurlu ulduzu
Əriyib, əriyib sönən görməyim
Yumdum gözlərimi, doğma Təbrizi
Zülmət bir pərdəyə dönən görməyim...
Nə vaxt ki, göylərin açılar üzü,
Nə vaxt ki, ulduzlar alışıb-yanar,
Gözüm çox axtarar o tək ulduzu.
Qəlbimdə qəribə hisslər oyanar.
O susdu, gözləri yol çəkdi yenə,
Başımı əyərək öpdüm əlindən.
– Heyranam qəlbinin böyüklüyünə,
Neçə həqiqəti eşitdim səndən.
Ümmanın məhəbbət, döyüş dastanı,
Yox, bir el həsrəti yatır sinəndə.
Sən təkcə sevmədin Azərbaycanı,
Elə bil Şərq özü əks olub səndə.

### *Epiloq əvəzi*

Oxucum, beləcə bitdi bu dastan,
Bir gün yolun düşsə, Polşada olsan,
Səlmini, Ümmanı görmək istəsən
Onda Varşavaya uzanıb gedən
Yolun kənarında bir qəsəbə var.
Orda dayansanız bir saat, inan –
Səlmi özü sizi axtarıb tapar.
Ancaq soruşmayın hardadır Ümman.
Bir cığır ayrılır təpəyə sarı,



Gedin o cığırla, gedin bir qədər.
Üstü xaç nişanlı qəbir daşları
Hər şeyi, hər şeyi sizə nəql edər.
Orda bir qəbir var, qara mərmərdən,
Üstündə nə ay var, nə də ki, xaç var.
Həkkak bircə cümlə yazıbdır zərdən:
"Səlmidən Ümmana qalsın yadigar".
Dörd ləpir var orda, kobud və incə,
İki dəstə çiçək saralıb-solub.
Oxucum, Səlmiylə mən görüşəndə
Ləpir iki idi, indi dörd olub...

*1971-1972*

## MÜNDƏRİCAT


Otaylı-butaylı şeirimizin ağsaqqalı ....4

**Ömür kitabı**

Dodaqları qurumuş ....6

Addımlar ....6

Xəzər, ay Xəzər ....7

Karvan ....8

Ərdəbil ....9

Şeyx Səfi məqbərəsi ....10

İnqilab şairiyəm ....12

Niyar karvanı ....13

Gəlin, dostlar, gəlin ....14

Səttarxan ....16

Vətən məhəbbəti ....20

Təbrizin baharı ....22

Yaltadan məktub ....24

Yadıma düşdü ....26

Oğlum Etibara ....27

Qələm yoldaşım ....30

35 yaşım ....33

İsti köynək ....35

Əsil şair ....37

Nəğmə ....38

Neçə bahar yola salmışam ....39

Payızdır, əzizim ....40

Süleyman Rüstəmə ....41

Babamın ömrü ....42

İnamla yaşayıram ....45

Həyata qayıtmışam ....46

**Könlüm bahar istəyir**

Könlüm bahar istəyir ....48

Göygöl ....49

Bu axşam çimməyin ....50

Bənövşə ....51

Qərənfil ....52

Buludlar ....53





Kəpənək ....54

Dağlar ....55

Yarpaqlar töküləndə ....56

Nərgiz gülü ....57

Zanbaq ....58

**Şəklin başım üstədir**

Sevgilim ....60

Saqi, xumar-xumar baxırsan ....61

Kimdən öyrəndin ....61

Şəklin başım üstədir ....62

Günahkar ....63

Necə tale məni etmiş də ....66

Eşitdim ki, yazıb fitrət ....67

Saqi, nəzər et məclisə ....67

Neyləyim, ey dil ki ....68

**Dəniz olmaq lazımdır**

Göl min il yaşadı ....69

Dəniz və günəş ....69

Dənizin səxavəti ....71

Dənizlə tənha qalmaq istəyirəm ....71

Dəniz olmaq lazımdır ....72

**Mən səadət axtarıram**

Qaçqınlar ....75

Elə oğul istəyir Vətən ....80

Mən səadət axtarıram ....87

Qızıl balıq ....90

Fil ....93

Qanun ....96

Torpaq ....102

Romantika ....108

**Uzaq-uzaq ölkələrdən**

Uzaqdan məktublar ....112

Məcnun söyüd ....120

Miladdan qabaqkı danışıq dilində ....126

Marselin taleyi ....130

Nikola məbədində ....137

**Təbrizim mənim**
Təbrizim mənim ....141
Çinardan bir yarpaq qopdu ....144
Ana ....147
Kədərli, sevincli illər ....147
Qibtə ....149
O şeri kim yazacaq ....151
Mənim bir nənəm vardı ....152
Qartalın ölümü ....155
Yağış nemətdir ....155
Qaya üstündə çinar ....156
İmtahan ....158
Babamın ulduzları ....160
"Əsəblərini qoru" ....161
Dağ seli və daşlar ....163
**Dünyada bir şəhər var**
Ana dili ....165
Məni ....166
Körpü ....167
Qaradağ ....168
Gizli-gizli ....169
Pəncərə önündə çinar ....170
Mənim şeir kitabım ....173
Dünyada bir şəhər var ....175
Şəklinə baxıram ....176
Şeyx Səfi küçəsi ....178
Şəmsuvarlı Əbi ....183
**Yağış yağar, yer doymaz**
Yağış yağar, yer doymaz ....187
Məhəbbətlə qayıt gəl ....188
Nə yaxşı ki, bahar var ....189
Səmərqənddə bir qız gördüm ....189
Sən, ey Sariban ....190
Gəraylı ....191
Yaman yerdə ....191

**Dəniz olmaq istəyirəm**
Dəniz olmaq istəyirəm ....193
Xəzər köksümdədir ....194
Dəniz, Heminquey və mən ....195
Qara dəniz ....196
Bu axşam ....197
Dənizlə payızda görüşdük ....199
Dənizə yağış yağdı ....200
Dənizə göz yaşı deməyin ....201
Dəniz əsəbidir ....202
İldırım və dəniz ....203
**Nigaranlıq**
Üçüncü İskəndər ....204
Həsənin ölümü ....212
"Şahin və koramal" ....215
Tacir və Məcnun ....220
**Poemalar**
Auerbaxın meyxanəsində görüş ....226
Mənim cəbhə dostlarım ....239
Polyak qızı Səlmi.. ....259

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektor: *Yasəmən Abbasova*

Yığılmağa verilmişdir 05.08.2004. Çapa imzalanmışdır 18.11.2004.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 18. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 181.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

**000002**